**Telman Orucov**

# Dəhşətlər və bədbəxtliklər

# İnsan və gözəllik



*Telman Orucov*

**Dəhşətlər və bədbəxtliklər**

**Ləyaqət və iradə xilaskar rolunda**

Tarix boyu müxtəlif xalqlar, bəzən bütün bəşəriyyət dəhşətlərlə üzləşməli olmuş, ölkələr çox sayda canlı qüvvə və ərazi itkisinə düçar olmuş, ağır mübarizə aparmaq nəticəsində mövqeyini xoş istiqamətdə dəyişə bilmişlər. Mesopotamiyada və Misirdə yaranan imperiyalar ətrafdakı bütöv xalqları əsarətə almaqla meydana gəlmişdi. Yüzillik müharibədə (1337–1453-cü illər) Fransa İngiltərənin işğalına məruz qalmış, böyük sahədəki torpaqlarını itirməli olmuş, lakin Janna d`Ark kimi qəhrəmalıq nümunəsi fransız xalqını uğurlu mübarizəyə qaldırmış və onlar ingilis işğalıçılarını öz ərazilərindən qovmuşdular. Yeddiillik müharibədə (1756–1763-cü illər) isə fransızlar Şimali Amerikadakı böyük müstəmləkə ərazilərini, Hindistanda malik olduğu torpaqları ingilislərin xeyrinə itirməyə məcbur olmuşdular.

Osmanlı imperiyası Avropada, Asiyada və Afrikada xeyli əraziləri tutmuş, son mərhələdə paytaxt Konstantinopolu 1453-cü ildə işğal etməklə, Bizans imperiyasının mövcudluğuna son qoymuşdu.

Böyük Britaniya imperiyası Şimali Amerikadan və Hindistandan başlayaraq, artıq XIX əsrdə dünya ərazisinin dörddə birinə ağalıq etmişdi. Rusiya imperiyası həmçinin silah tətbiq etməklə, qan axıtmaqla Avroasiyanın şərqində və cənubu-qərbində, qismən Qara dəniz ətrafında böyük əraziləri öz hökmranlığı altına salmışdı.

İspaniya Mərkəzi və Cənubi Amerikalardakı ölkələri işğal etmiş, Vest İndiyanın nəhəng sərvətlərinə sahib olmuş, İngiltərə və Fransa isə Afrikanı özlərinin müstəmləkə zonasına çevirmişdilər.

Xoşbəxtlikdən, bütün imperiyalar əsasən dağılmış, çox sayda xalqlar nəticədə azadlığa çıxmış, müstəqillik qazanmışlar. Lakin onlar buna nail olmaq üçün çoxlu qurbanlar vermişlər. Napoleon İspaniyanı

işğal etdikdə, Cənubi Amerikada axırıncının imperiyasına daxil olan ölkələrdə milli-azadlıq hərəkatı böyük vüsət almış və 1820-ci illərdə müstəqilliyə qovuşmuşdular. Digər xalqların azad olmasına isə I və II Dünya müharibələri nəticəsində imperiyaların dağılması səbəb olmuşdu. I Dünya müharibəsində məğlub olan Avstriya-Macarıstan, Osmanlı, Almaniya və Rusiya imperiyalarından (Rusiyada Oktyabr inqilabı da buna müəyyən şərait yaratmışdı) qopan onlarla yeni dövlət meydana gəlmişdi. II Dünya müharibəsindən sonra isə Hindistan Britaniya ağalığından xilas olaraq, müstəqilliyini elan etmiş, onun bir hissəsində isə Pakistan İslam Respublikası yaranmışdı. Afrikada milli azadlıq hərəkatının canlanması nəticəsində1960-cı illərin əvvəlindən başlayaraq qitədə müstəmləkə sisteminin bütünlüklə dağılması baş vermişdi. Hər iki dünya müharibəsinin yaratdığı dəhşətlər seriyasında, bu hadisə yeganə təskinlik faktı kimi qiymətləndirilə bilər.

Etiraf etmək lazımdır ki, dünya müharibələri xalqları oyadaraq, istiqlaliyyət uğrunda mübarizəyə qaldırmışdı və metropoliyalar güzəştə getmək məcburiyyətində qalmışdılar. Xalqların öz azadlığı uğrunda mübarizə nümunəsi başqaları tərəfdən də mənimsənilməklə, azadlıq hərəkatının məhsuldarlığına yol açmışdı. Vaxtilə Şimali Amerikanın 13 koloniyasının Britaniya ağalığından azad olub, ABŞ kimi müstəqil dövlət yaratması, başqa xalqlara da güclü təsir göstərdi. Fransız xalqının mütləqiyyətə qarsı mübarizə aparması, 1789-cu ildə Böyük Fransa inqilabının qələbəsi ilə nəticələndi. Öz növbəsində Fransa inqilabı da xalqları milli dövlət yaratmaq uğrunda mübarizəyə səslədi, öz ardınca çox şeyə nail olmasa da, millətlərin suverenliyi ideyası geniş yayılmağa başladı. İki əsr sonra SSRİ dağıldıqda onun xarabalığında 14 yeni müstəqil dövlət meydana gəldi. Özünü Sovet imperiyasının varisi sayan Rusiya isə böyük ərazisini qoruyub saxlaya bildi.

XX əsrdə Avropa və dünyanın digər hissələri ağır dəhşətlərlə üzləşməli oldu, 20 illik fasilə ilə iki dəfə görünməmiş qaydada insan həyatı itkiləri və şəhərlərin dağıdılması ilə müşayiət olunan Dünya müharibələri baş verdi. Hər iki müharibə tonqalının alovlanmasında

Almaniya aparıcı rol oynadı. Almaniya İngiltərədən və Fransadan fərqli olaraq müstəmləkə piroqundan vaxtında lazımınca pay götürməmişdi və müstəmləkə ölkələrinin nemətlərindən bəzənən süfrənin arxasına nisbətən gec gəlmişdi, daha dəqiq deyilsə, bu prosesdə iştirak etməyə sadəcə gecikmişdi. Yaponiya da 1910-cu ildə Koreyanı işğal etdikdən və 1937-ci ildən Çinin böyük ərazilərini tutduqdan sonra güclü iştahaya yiyələnərək, Asiyada ağalıq etmək meylinə düşmüşdü.

I Dünya müharibəsinin başlanmasını reallaşdırmaq üçün Almaniya, Avstriya-Macarıstanla Serbiya arasındakı münaqişəni qızışdırmaq və Serbiyanı müdafiə etmək istəyən Rusiyaya və ona müttəfiqliyə girmiş Antantanın digər iki üzvünə – İngiltərəyə və Fransaya qarşı müharibədə bilavasitə iştirak etmək şansı qazandı. Almaniya kayzeri II Vilhelm bu şansa çox bötük ümid bəsləyirdi.

## I Dünya müharibəsi

I Dünya müharibəsi 1 avqust 1914-cü ilgə  başlandı, bəhanə kimi ona, Avstriya-Macarıstan ershersoqu, prints Frants Ferdinandın Sarayevoda serb Qavrila Printsip tərəfindən öldürülməsi istifadə edilsə də, əsas səbəb imperialist dövlətlər arasında daha böyük əraziyə sahib olmaq  istəyi və müstəmləkələr üstündə gedən mübarizə və onun nəticəsi olan münaqişə idi. Müharibəni Avstriya-Macarıstan Serbiyaya qarşı başlamışdı və Almaniya əvvəlincinin tərəfində silahlı münaqişəyə girmişdi.

Rusiya Serbiyaya pravoslav dövləti kimi kömək göstərmək üçün müharibəyə qatıldı, sonra Antantanın digər üzvləri olan İngiltərə və Fransa, Almaniyadan, Avstriya-Macarıstandan və Osmanlı imperiyasından olan müttəfiqlərə qarşı müharibədə vuruşdu. Müharibədə Avropanın xeyli sayda dövləti və 1917-ci ilin aprelindən isə ABŞ iştirak etdi.

I Dünya müharibəsi illərində tarixdə ilk dəfə tranşey və səngər müharibəsi meydana gəldi. Avropanı tranşey xətləri çalın-çarpaz qaydada “bəzəmişdi”.

Səngərlər döyüşçünü xilas etmək əvəzinə, öz antisanitariya vəziyyəti ilə, burada sığınacaq tapan yaralıların daha çox ölümünə səbəb olurdu.

1915-ci ildən etibarən ilk dəfə olaraq döyüşdə hərbi təyyarələrdən istifadə olundu, onlar düşmən mövqelərinə hücumda tətbiq olunurdu. Bir qədər sonra onlar yer üstündəki hədəflərə, xüsusən düşmən kommunikasiyalarına hücum əməliyyatına başladılar. Təyyarələrdə pulemyot quraşdırmaqla, hava hücumlarının təhlükəsi artdı.

Almanlar dənizdə hərbi və ticarət gəmilərini batırmaq üçün sualtı qayıqlardan geniş istifadə edirdilər. Kayzer II Vilhelm hətta submarinaların köməyi ilə müharibəni udmaq istəyirdi. Tarixdə isə bir silah növünə bel bağlamaqla, heç vaxt müharibə udulmamışdır.

Lakin ingilislər 1915-ci ildə almanların gizli hərbi kodunu dağıdıb, onların ABŞ və Meksika ilə bütün yazışmalarını ələ kçirə bildilər..Almaniya Britaniyaya hərbi və ərzaq köməyini kəsmək üçün ABŞ-ın əz öz ərazisində də müharibə aparmaq və Meksikanın da, özünün şimal qonşusuna qarşı almanların hücumunda iştirak etməsini istəyirdilər. Almaniya xarici işlər naziri Tsimmerman açıq mətnlə Meksika rəhbərliyinə yazmışdı ki, əvəzində Meksikaya 70 il əvvəl ABŞ tərkibinə keçmiş Texas, Arizona və Nyu-Meksiko ştatları qaytarılacaqdır.

İngiltərə bunu birbaşa açsa, ona iri miqyasda kömək edən ABŞ-la diplomatik münaqişə yarana bilərdi, ona görə də dolayı yoldan istifadə etdi və məktub ABŞ mətbuatında da dərc edildi. Tsimmerman da məktub yazdığını etiraf etdi. ABŞ prezidenti Vudro Vilsonun səbir kasası dolmuşdu, onsuz da, almanlar onun ticarət donanmasına böyük ziyan vururdular. O, neytrallıq mövqeyindən əl çəkib, 1917-ci ilin aprelində Almaniyaya müharibə elan etdi və qoşunlarını Avropaya göndərdi. ABŞ-

ın I Dünya müharibəsinə girməsi Antantanın silahlı toqquşmada üstünlük əldə etməsinə şərait yaratdı.

Almanlar həmçinin nəhəng hava gəmilərindən – tseppelinlərdən istifadə edirdilər. Onlar hidrogen qazı ilə doldurulurdu, pulemyot atəşi ilə vurulduqda, yanğın tam cəhənnəm mənzərəsi yaradırdı.

1916-cı ildən isə Avropa döyüş meydanında tanklardan istifadə edilməyə başlandı. İlk tank Britaniya modeli idi. Tırtıl təkərlərin üzərində qurulmuşdu, bu onu təpələrə dırmaşmağa da qadir edirdi. Onun silahı, üzərindən quraşdırılmış top idi. Tanklar düşmən mövqelərinə, həm də piyadalara pulemyot atəşi ilə də hücum edirdi. Lakin 1918-ci ilə kimi tanklar o qədər də səmərə vermirdi. Britaniyalılar yeni model kimi döyüşdə daha səmərəli tank tətbiq etdilər.

I Dünya müharibəsinin icadı kimi tank sonralar, II Dünya müharibəsi cəbhələrində daha böyük əhəmiyyət kəsb etdi. Tankın potensialının reallaşması bütünlükdə yeni növ döyüşlərin aparılması qaydasını yaratdı. I Dünya müharibəsində həyata keçirilən yüngül hücumlar tank kolonnalarından asılı olurdu. Kütləvi hava qüvvələri bombardmanı isə orduların döyüş xətlərini qırırdı və düşmən qoşunlarını tamamilə dövrəyə alırdı. Bu, I Dünya müharibəsinin döyüş səngərlərindən qalxan qışqırıqlardan da uzağa gedirdi.

I Dünya müharibəsinin uzanması, baxmayaraq ki, əvvəlcə onun bir neçə aya başa çatacağı düşünülürdü, savaşın ilk dəfə olaraq, total xarakter almasına gətirib çıxardı. Bu, müharibə aparan ölkələrin bütün vətəndaşlarının həyatına öz təsirini göstərdi. Döyüşə illər ərzində kişi cinsindən olan kütlənin və materialların cəlb edilməsi, siyasi və iqtisadi dəyişikliklərə səbəb oldu.

Əvvəllər tanış olmayan total müharibə, Avropa cəmiyyətinə əsaslı təsir göstərdi, işsizliyə son qoyulmasına səbəb oldu. Kişi cinsindən olan milyonların vuruşmaq məqsədi ilə əmək bazarından uzaqlaşması, döyüş silahları və sursat istehsalında işləməyə qadir olanların hər birinin zəhmətlə məşğul olmasına gətirib çıxardı.

Müharibə 11 noyabr (11.11) 1918-ci ildə başa çatdı.

I Dünya müharibəsi Avropa sivilizasiyasını viran qoydu. 8 və 9 milyon arasında əsgər döyüş cəbhələrində həlak oldu, digər 22 milyon isə yaralanmışdı, sağ qalanlardan çoxu sonralar müharibə yaralarından və ya əllərinin, ayaqlarının itirilməsindən və aldıqları digər zədələrdən ölürdü.

Çox saydakı Avropa ölkələrində uşaq doğumu əhəmiyyətli dərəcədə azalmışdı, bu, çox sayda cavan kişiləilərin ölməsinin və ya əlil olmasının nəticəsi idi. ABŞ prezidenti Franklin Ruzveltin arvadı 1930-cu illərin birinci yarısında Avropada turist səfərində olarkən, Fransada cavan adamıarın gözə dəyməməsindən olduqca pərişan olmuşdu. O, öz kitabında bu ağır təəssüratını, I Dünya müharbəsinin,  ölkənin gənclərini amansızcasına biçməsi ilə izah edir. Bu müharibə həmçinin öz veteranlarından itirilmiş "nəsil" yaratdı, onlar döyüşməyə adət edən qüvvələrə və müharibədən sonrakı dövrdə həmin döyüşçülərdən ibarət olan bandalara çevrilmişdilər. Onlar həm də məhz Mussolininin və Hitlerin tərəfində çıxış edən və bu hesaba, özlərinə çətinliklərdən xilas yolu axtaran fəal qüvvəni təmsil edirdilər.

Müharibə təkcə əsgərlərin həlak olması effekti ilə fərqlənmirdi. Müttəfiq dövlətlərin mülki vətəndaşları, müharibənin özünün gedişində baş verən vətəndaş müharibəsi və ya aclıq nəticəsində ölürdülər. 1915-ci ildə Rusiyaya kollaborantlıq, öz dövlətinə isə xəyanət edən Osmanlı vətəndaşları olan ermənilər bu hərəkətlərinə görə cəzalandırıldılar. Heç bir dövlət müharibə dövründə ciddi xətaya yol verən öz vətəndaşını cəzasız buraxmır. Ermənilərin bir hissəsi ölümlə də üzləşməli oldu, ancaq onların özləri də çox sayda türklərin həlak olmasına səbəb olmuşdular.

Türkiyə hökuməti satqınlığa görə erməniləri sürgün etdilər, kürd dəstələrinin basqınlarından və yol məhrumiyyətlərindən, onlardan ölənlər də az deyildi. Deportasiya edilmiş ermənilərin sayı 500 min

nəfərə çatırdı. Onların xeyli hissəsi Suriya və İraqın səhralarından və bataqlıqlarından keçən yollardakı əzabdan ölmüşdü.

Qatı erməni millətçiləri bunu, guya 1,5 milyon nəfərin öldürülməsində ifadə olunan genosid adlandırırlar. Türklər həqiqətin üzə çıxarılması üçün arxivlərin açılması barədə dəfələrlə çağırış etsələr də, Ermənistan rəhbərliyi bundan boyun qaçırır və əsassız ittihamlarının saxta olmasının aşkar edilməsindən qorxurlar. Türklər əsassız ittihamlardan uzaqlaşıb, elmi tədqiqatlar yolu ilə həqiqətin aşkar edilməsini istədikləri halda, ermənilər bir əsrdən artıq müddətdə (onlar genosidin 1915-ci ildə baş verdiyini iddia edirlər) əsassız haraylarını kəsmirlər. Onlar özlərini əzabkeş obrazında dünyaya təqdim etmək istəyirlər.

“Əzabkeş” ermənilər I Qarabağ müharibəsi dövründə xeyli sayda mülki azərbaycanlının öldürülməsinə, qocalara, qadınlara, uşaqlara qarşı ən çirkin vəhşiliyə yol verdilər. Onlar Xocalı şəhərində əsl qətliyam təşkil etdilər, yüzlərlə günahsız insanı qətlə yetirdilər. Bu alçaq işə başçılıq edənlər özlərini milli qəhrəman kimi qələmə verirdilər və öz millətini də sonralar ağır sınaqlara məruz qoydular.

Erməni cəlladları əvvəllər də azərbaycanlıların qırğını ilə öyünmüşdülər. XX əsrin əvvəlində Bakıda və digər regionlarda erməni silahlı dəstələri kütləvi şəkildə azərbaycanlıları məhv etmişdilər. Azərbaycanlılar isə öz ləyaqətlərini əsas götürərək, uzun müddət qonşu xalqın bu cinayətlərini xatırlamağa da meyl etməmişdilər.

I Dünya müharibəsi Avropaya və Asiyaya böyük bədbəxtliklər ”bəxş” etmişdi. Bu barədə danılmaz faktlar vardır, təəssüf ki, bəzi qatı millətçilər müharbə mövzusundan həm də öz saxtakarlıqları üçün geniş istifadə etməyə çalışırlar. Müharibə kütləvi aclıq hallarına və dağıntılara səbəb olmuşdu, adamlar onun başa çatmasına sevinirdilər, bəziləri bunun, bütünlükdə müharibəyə son qoyacağını düşünürdü. Fransız marşalı, müharibənin qəhrəmanlarından biri olan Ferdinand Foş onu möhkəm sülh deyil, 20 illik barışıq adlandırmışdı. Onun öncəgörməsi

düz çıxdı,  bu müddətdən sonra tarixdə görünməmiş və  daha dəhşətli II Dünya müharibəsi başlandı.

## II Dünya müharibəsi

II Dünya müharibəsinə 1sentyabr 1939-cu ildə alman ordusunun Polşaya hücumu ilə start verildi. Hitler siyasi fəaliyyətə başladığı vaxtdan avropalılardan qisas almaq və Şərqdə yaşayış məkanı əldə etmək barədə öz ideyasını gizlətməyərək, tam açıq şəkildə bəyan etmişdi. 1933-cü ilin yanvarında kansler kimi  Almaniyada hakimiyyətə gəlməsi ilə, onun üçün öz bədnam planlarını reallaşdırmaq imkanı yarandı. Bir il sonra isə artıq ona mane olan bir qüvvə  də qalmamışdı. Fürer titulunu qəbul etməklə, bütün ali vəzifələri zəbt etmiş diktatora çevrilmişdi. Natsist partiyası istisna olmaqla, bütün siyasi partiyalar ləğv edilmiş, Almaniyada fəaliyyət göstərən yalnız bir partiya və bir ideologiyanın hakim mövqeyi qalmışdı. Məkrli niyyətlərini həyata keçirmək üçün o, I Dünya müharibəsindən sonra Versal müqavilələri ilə Almaniyanın  ağır təzminat verməsi kimi cəzaya məhkum edilməsinə və alman xalqının alçaldılmasına görə əhaliyə qisas almaq barədə çağırış etdi. Və ardıcıl olaraq həmin müqavilələrin tələblərini pozmağa girişdi. Orduya məhdudiyyət qoyulmasına baxmayaraq, onu gücləndirməyə, müasir hərbi texnika və silahlarla təchiz etməyə başladı. Bu məqsədlə ölkədə hərbi sənaye kompleksini inkişaf etdirdi.

Hitler 1938-ci ilin martında anşlyus (birləşmə) adı altında Avstriyanı işğal etdi. Həmin ilin sentyabrında isə Çexoslovakiyanın böyük ərazisini zəbt etdi. Qərb dövlətləri Hitlerin işğal siyasətinə göz yumurdu, Münhen sazişi kimi xəyanətkar xarakterli sənədə imza atmaqla, İngiltərə və Fransa onun son hərəkətinə şərait yaratmışdılar.

I Dünya müharibəsi total müharibə səviyyəsinə çatsa da, II Dünya müharibəsi daha total xarakter daşıdı və 6 il ərzində, başlanğıcdakı kiçik

istina ilə, dünyada görünməmiş bir intensiv vuruş getdi. Müharibədə iştirak edən ölkələrin, demək olar ki, hər biri bu və ya digər yolla, əsgərlər və müharibə sənayesi fəhlələri timsalında, silahlı münaqişəyə qoşuldu. Adi vətəndaşlar, ölkəsinə müdaxilə edən orduların tabeliyinə keçirdi, hərbi işğallar geniş miqyas aldı. Belə bir şəraitdə qaçqınlar dəstəsi meydana gəldi və çox sayda mülki əhali kütləvi şəkildə həlak olurdu. Dünya heç vaxt belə sürətli və qəsdən baş verən ölüm nümunələrini və dağıntılar seriyasını görməmişdi.

Müharibənin başlanmasından bir neçə gün əvvəl, 1939-cu ilin avqustunda Almaniya ilə SSRİ arasında bir birinə hücum etməmək barədə pakt imzalanmışdı. Stalin bu yolla Hitlerlə zəruri müharibənin baş verməsi vaxtını ləngitməyə, hazırlıq üçün vacib olan sülh dövrünü uzatmağa çalışırdı və eyni zamanda Almaniyanı strateji məhsullarla təchiz etməyə də razılıq vermişdi. Lakin Hitler imzalanmış pakta məhəl qoymayaraq, 1941-ci ilin 22 iyununda SSRİ-yə xaincəsinə hücum etdi.

Müharibədə Ox adı altında Almaniya, İtaliya, Yaponiya alyansı meydana gəlmişdi. Onlarla vuruşacaq və Müttəfiqlər adlanan ittifaqa isə İngiltərə, SSRİ, ABŞ daxil idi. Silahlı qarşıdurmanın ilk yeddi ayı pat vəziyyətində olduğuna görə, "qəribə müharibə" adlanırdı: 1940-cı ilin aprelində almanlar müdaxiləni gücləndirib, may ayında Niderlandlara, Belçikaya və Fransaya hücum etdilər. Onlar digər bir blitskriqi həmin vaxt Danimarkaya və Norveçə qarşı apardılar. Beş gün ərzində Niderlandlar təslim oldu. Fransa özünü müdafiə üçün qurduğu Majmo xəttinə böyük ümid bəsləyirdi. Bu xətt Fransanın şimalında La Manş boğazına qədər uzanırdı. Belçika 28 mayda təslim oldu, Britaniya və Fransa qüvvələri tələyə salındı və irəliləyən alman zirehli birləşmələrinə və alman hava qüvvələri olan Lyuftvaffeyə Hitler göstəriş verdi ki, onların ordusunu Dyunkerk sahillərində məhv etsin. Lakin Lyuftvaffenin Müttəfiqlərin qüvvələrinə qarşı hava bombardmanı səmərəsiz oldu. Britaniyanın və Fransanın 350 minlik qoşununu kiçik gəmilər donanması vasitəsilə evakuasiya etmək mümkün oldu. "Dyunkerk

möcüzəsi” adlanan bu əməliyyat yaxşı təlim keçmiş və hazırlanmış ordunu, başqa vaxtlarda zəruri olaraq vuruşmaqdan ötəri xilas edə bildi.

İyunun 5-də almanlar Şimali Fransada hücum əməliyyatı həyata keçirdilər. Beş gün sonra İtaliya diktatoru Mussolini Fransaya müharibə elan etdi. O, inanırdı ki, müharibə artıq başa çatır və bu vaxt əlavə torpaq ələ keçirmək iştahasına düşdü. Alman ordusu şimaldakı Fransa ərazisinin beşdə birini işğal etdi və Cənuba yürüş etdi. Fransızlar müqavimət göstərə bilmirdilər və 22 iyunda, Almaniyanın SSRİ-yə müdaxiləsindən düz bir il əvvəl təslim oldular. Alman ordusu Fransa ərazisinin işğalını davam etdirərək, ölkənin torpaqlarının artıq beşdə üçünü tutdular. Bu vaxt I Dünya müharibəsində Fransız qəhrəmanı olmuş marşal Henri Peten (1856–1951-ci illər) ölkənin qalan cənub hissəsində Vişi Fransası kimi tanınan avtoritar bir rejim qurdu. Müttəfiqlər Peten hökumətini natsistlərin kukla dövləti kimi tanıdılar və sürgündə olan fransız hökuməti Britaniyada özünün iqamətgahına malik oldu.

Almanlar bu vaxt artıq Qərbi və Mərkəzi Avropanı işğal etmişdilər, lakin Britaniyanı hələ də məğlub etmək mümkün olmamışdı. Almaniyanın Danimarka və Norveç üzərində qələbəsi, ancaq Britaniyada hökumət dəyişikliyinə səbəb oldu. Hitler Almaniyasına güzəştə getməklə, onu sülhə dəvət etməyin tərəfdarı olan Nevil Çemberlen başda olmaqla kabinetin üzvlərindən olan narazılığın artması ona gətirib çıxardı ki, baş nazirin öz partiyasından olan üzvü ittiham xarakterli çıxışında ona dedi: “Sən çox vaxt nəsə yaxşı olanı etmək istəmədin. Mən gedən vaxt deyirəm ki, qoy biz özümüz səninlə nəsə edək. Allahın adı naminə, çıx get!” Çemberlen istefa verdi və 10 may 1940-cı ildə Uinston Çörçill (1874–1965-ci illər) baş nazir oldu. O, uzun müddət natsist Almaniyasına qarşı kəskin bir mövqeyin müdafiəçisi kimi parlamentdə çıxışlar etmişdi. Çörçill əmin idi ki, o, Britaniyanı bütöv qələbəyə apara biləcəkdir: “Bütün bu barədəki böyük işi, mən düşünürdüm ki, mən bilirəm”. Sonralar isə o, bu barədə yazırdı: “Mən əmin idim ki, heç də uğursuz olmayacağam”. Çörçill, həqiqətən də,

Britaniya xalqını öz çıxışları ilə ilhamlandıran və kütləvi mübarizəyə qaldıran bir lider olduğunu sübut etdi.

Hitler isə ümid edirdi ki, britaniyalılar sülh müqaviləsi bağlamağa inandırılacaq, beləliklə, o, özünün uzun müddət gözlədiyi Şərqdə yaşayış məkanı əldə etmək imkanını reallaşdırmağı icra edəcəkdir.

Əksinə, Çörçill inanırdı ki, natsistlərlə heç bir kompromis ola bilməz. Britaniyalılar da bu Hitlerlə barışıq variantından bütünlüklə imtina etdilər. Bunu hiss edən Hitler Britaniyaya müdaxilə etməyə hazırlaşmağa məcbur oldu. Perspektiv isə onu, yalnız azacıq əminliyə sahib olmaqla üzləşdirdi.

Hitler Britaniyaya özünün ambitsiyalı müdaxiləsini reallaşdırsaydı, bu vaxt Almaniya adalar üzərində yalnız hava nəzarətini ələ keçirə bilərdi. 1940-cı ilin avqustundan Lyuftvaffe Britaniyanın hərbi-hava və nərbi- dəniz bazalarına, limanlarına, kommunikasiya mərkəzlərinə və hərbi sənaye obyektlərinə böyük hücumlara başladı.

İngilislər yenə də, əvvəlki müharibədə olduğu kimi alman hərbi kodunu sındırmağa müvəffəq oldular. Bu, Britaniya hərbi qüvvələrinə almanların hava hücumunun spesifik hədəfləri barədə əvvəlcədən məlumat əldə etməyə imkan verdi. Buna baxmayaraq, Britaniya hərbi hava qüvvələri avqust ayının axırından etibarən ciddi itkilər verməkdən əziyyət çəkirdi və güman ki, əsasən, Hitlerin strategiyasını dəyişməsi hesabına xilas ola bildi. Sentyabrdan isə britaniyalıların özü Berlinə hava hücumları etməyə başladı. Hitler bu vaxt britaniyalıların mübarizə ruhunu qırmaq üçün şəhərləri bombardman etməyə başladı. Sentyabrın sonundan Almaniya Britaniya ilə döyüşü uduzdu və Britaniyaya müdaxilə təxirə salınmalı oldu.

Hitler Misiri və Süveyş kanalını işğal etmək, həmçinin Britaniya gəmilərinə Aralıq dənizini bağlamaq istəyirdi. Bununla da Britaniyanın idxal hesabına yaranan neft ehtiyatı azalacaqdı. Onun ilkin planı italyanlara imkan vermək idi ki, onlar Balkanlara və Aralıq dənizi flanqlarına nəzarət etsinlər, həm də özləri Şimali Afrikada britaniyalıları

məğlub etsin. Lakin bu strategiya, britaniyalılar italyanları qaçmağa məcbur edəndə, uğursuzluğa uğradı. Hitler belə qərara gəldi ki, Şərqdə yaşayış məkanı əldə etmək ideyasını öz ömrü ərzində həyata keçirmək vaxtı artıq gəlib çatmışdır.

1940-cı il iyulun sonunda  Hitler artıq özünün ordu liderliyinə dedi ki, onlar Sovet İttifaqına müdaxiləyə hazırlaşsınlar. İki cəbhədə vuruşacağı ehtimalına baxmayaraq, Hitler inandırılmışdı ki, Britaniya əgər Sovetlərə kömək etsə, onunla müharibə yenə qüvvədə qalacaqdır. Sovet İttifaqı məhv edildikdən sonra isə Britaniyanın axırıncı ümidi də yoxa çıxacaqdır. Həm də Hitler özünü inandırmışdı ki, Sovet İttifaqını, onun yəhudi bolşevik liderlərini, zəif ordusu ilə birlikdə sürətlə və qəti şəkildə məğlubiyyətə uğradacaqdır.

Sovet İttifaqına 1941-ci ilin erkən yazında hücum etmək nəzərdə tutulmuşdu, lakin Balkanlardakı problemlərə görə müdaxilə gecikməli oldu. Hitler Macarıstan, Bolqarıstan və Rumıniya ilə siyasi ittifaq bağladı. Mussolini isə Balkanları italyan sferasına daxil etmək istəyirdi. O, Yunanıstana 1940-cı ilin oktyabrında hücuma başladı. Lakin italyanlar hərbi cəhətdən hazırlıqlı deyildilər və onların müdaxiləsi tezliklə dayandırıldı. Hitler Yunanıstana hücumun baş tutmamasından hiddətlənmişdi. Balkan flanqını qoruyub saxlamaq üçün Hitler 1941-cı ilin aprelində Yuqoslaviyaya müdaxilə etdi və o təslim olduqdan sonra Şərqə tərəf döndü və Sovet İttifaqına müdaxilə etdi. Alman rəhbərliyi inanırdı ki, qışa qədər Sovetlər qəti məğlubiyyətə uğrayacaqdır.

22 iyun 1941-ci ildə Natsist Almaniyası Sovet İttifaqına hücum etdi, bu, almanların ən iri miqyaslı müdaxiləsi idi. Alman qüvvələri 180 diviziyadan ibarət idi, buna həmçinin 20 pantser (alman tank növü) diviziyası da daxil idi. 8 min tank və 3,2 min təyyarə hücumda iştirak edirdi.

Hücum sərhəd perimetri üzrə 1,8 min mil məsafədə həyata keçirilmişdi. Sovetlər isə 160 piyada diviziyasına malik idi, həmçinin

yarım il ərzində digər 300 ehtiyat diviziyasını səfərbər edə bilərdi. Hitler Sovetlərin malik olduğu potensial qüvvələri çox pis hesablamışdı.

Alman qoşunları sürətlə irəliləyib, 2 milyon nəfər sovet əsgərini əsir götürdü. Noyabra qədər bir alman ordu qrupu Ukraynanı bütünlüklə işğal etmişdi, digəri Leninqradı mühasirəyə almışdı, üçüncü isə noyabrda Moskvadan 25 mil aralı olan bir mövqeyə gəlib çıxmışdı. Lakin almanlar özlərinin birinci məqsədlərinə nail ola bilməmişdilər. Sovet ordusunu məhv etmək mümkün olmamışdı, nə də bir necə ay ərzində ümid etdiklərinin əksinə, Sovet hökuməti süqut etməmişdi. Hansı ki, Hitler düşünürdü ki, bu hadisə hökmən baş verəcəkdir.

Erkən qış və Sovetlərin gözlənilməyən müqaviməti almanların irəliləməsini dayandırdı. Zirehli texnika və nəqliyyat 20 dərəcə şaxtada yerindən tərpənə bilmirdi. Əsgərlər rus qışına uyğun gəlməyən nazik döyüş formasında vuruşurdular. Hitlerin hərbi komandanları geri çəkilmək və sonrakı ilin yazında yenidən qruplaşmaq istəyirdilər. Lakin Hitler bu təklifləri rədd edirdi. O, israr edirdi ki, heç bir geri çəkilmə olmaz, 1941-ci ilin dekabrında Sovet əks-hücumu, natsistlərin qələbələrini tıxaca saldı və SSRİ ilə müharibənin ilk ili də bütövlükdə bu qaydada başa çatdı.

Alman ordusunda intizam pozulmuşdu, əsgərlər silahsız qaydada Qərbə tərəf dönürdü. Yollar davam edən hücumlar altında idi. Bombardmandan ölənlər artıq dəfn edilmirdi. Lyuftvaffe ac qalan qoşunlara göydən ərzaq tökürdü. 1941-ci ilin dekabrından Hitlerin digər bir qərarı – Birləşmiş Ştatlara müharibə elan etməsi, güman ki, onun məğlubiyyətini zəruri etdi və digər Avropa münaqişəsi olan I Dünya müharibəsində olduğu kimi, artıq qlobal müharibəyə və ondan miqyasca daha böyük olanına çevrildi.

1941-ci il dekabrın 7-də yapon aviasiyası Birləşmiş Ştatların Havay adalarındakı hərbi-dəniz bazasına hücum etdi və onu böyük itkilərlə dağılmağa məruz qoydu. Yaponlar bu adalara Yaponiyanın ürəyinə tuşlanmış güllə kimi baxırdılar, baxmayaraq ki, Havay adaları

ilə Yaponiyanın ən şimal nöqtəsi arasındakı məsafə 6 min kilometrə bərabər idi. Onlar əsl cənnət olan bu arxipelaqı cəhənnəmə döndərmək istəyirdilər və hava hücumu olduqca ağır nəticələrə səbəb oldu. Havay adalarının üstündə artıq mavi səma yox idi. Lakin məşhur yapon admiralı, Pyorl- Harbora hücumun bilavasitə təşkilatçısı Yamomoto təəssüf hissi ilə qeyd etmişdi ki, biz yatmış nəhəngi oyatdıq. O, xəbərdar edirdi ki, müharibə 2-3 il davam etsə, biz ABŞ-a qalib gələ bilməyəcəyik. Çünki Yaponiyada resurslar çatışmırdı, ölkə tədricən quruyan göldə üzən balığa bənzəyirdi.  Amerikan generalı isə bu vaxt öz məqsədləri barədə demişdi ki, biz qalib gələndə, yapon dili yalnız cəhənnəmdə işlənəcəkdir. Həqiqətən, yaponların hücumu amerikanlara güclü təsir göstərdi, onlar məğlubiyyətdən yaxşı dərs aldıqları halda, yaponlar öz qələbələrindən düzgün nəticə çıxara bilmədilər.

Gözlənilməyən uğurdan qürrələnən  yaponlar həmin gün digər bir qoşunla üstəlik Filippinə hücum etdi və Britaniya müstəmləkəsi olan Malayyaya doğru irəlilədi.

Sabahısı gün, 8 dekabrda Birləşmiş Ştatlar Yaponiyaya müharibə elan etdi. Prezident Ruzvelt Pyorl- Harbora hücumu özü  üçün biabırçılıq adlandırıb, amerikanların birləşib, düşmənə hökmən qalib gələcəklərini bilgirdi. Üç gün sonra Hitler Birləşmiş Ştatlarla müharibəyə girdiyini elan etdi, baxmayaraq ki, ondan belə bir xahiş edilməmişdi. Çünki Almaniya Yaponiya ilə ancaq sərbəst xarakterli bir alyansa malik idi. Bu hərəkət prezident Franklin D. Ruzvelti, izolyasiyanı davam etdirmək sahəsindəki amerikanların güclü hisslərinə məhəl qoymamağa qadir etdi və Birləşmiş Ştatların birbaşa Avropa münaqişəsinə girməsinə gətirib çıxardı. Beləliklə, müharibə artıq qlobal xarakter daşıyırdı.

Amerikalıların müharibəyə daxil olmasından az sonra yapon qüvvələri Holland Şərqi İndiyalarına (İndoneziyaya) müdaxilə etdi və Sakit okeandakı bir neçə adanı işğal etdi. 1942-ci ilin yazında, demək olar ki, Cənubi-Şərqi Asiya ölkələrinin hamısı və Sakit okeanın qərbinin

çox hissəsi yaponların əlinə keçmişdi. Yaponiya, Böyük Şərqi Asiya həmmülkiyyət sferasının yaradıldığını elan etdi. Bütöv regionlar artıq yapon ağalığı altında idi və bəyan edildi ki, onların məqsədi Cənubi-Şərqi Asiyanın müstəmləkə zonalarını Qərblilərin hökmranlığından azad etməkdir. Həmin vaxt həm də Yaponiya hərb maşını regionun resurslarına möhtac idi, bu ölkələrdə isə qalay, kaçuk və neft nisbətən bol idi. Onlar həmin ölkələri, özlərinin müharibə işlərindəki bazaları kimi tam hökmranlıqları altına saldılar.

Yaponiya liderləri ümid edirdilər ki, Amerika bazasına onların ilk nisbətən yüngül miqyaslı zərbəsi, Birləşmiş Ştatları az qala darmadağın edəcəkdir. Onlar Sakit okean donanmasını və Ruzvelt administrasiyasını inandırmağa çalışırdılar ki, onlar Sakit okeanda yapon ağalığını qəbul etsinlər. Amerikan xalqı yapon liderlərinin gözündə zəif materialdan hazırlanmış yumşaq insanlar idi. Lakin Tokio öz hesablamasında səhvə yol vermişdi, Pyorl Harbora hücum amerikan rəyini qalvanizasiya etmişdi və Ruzveltin müharibəyə girmək siyasəti geniş dəstək qazanmışdı. Birləşmiş Ştatların məqsədi bu vaxt Avropa xalqları və həmçinin millətçi Çin ilə birləşmək cəhdləri hesabına, Yaponiyanı məğlub etmək və Sakit okeanda onun hegemonluğuna son qoymaq idi.

1942–1943-cü illərdə müharibədə dönüş nöqtəsi baş verdi. 1942-ci 18 aprelində, müharibənin ilk günündə Ruzveltin səsləndirdiyi, Tokionu bombardman etmək barədəki fantastik kimi görünən çağırışı yerinə yetirildi. B-25 “Mitçell” aviadaşıyan gəmisindən polkovnik- leytenant Ceyms Dulittlin başçılıq etdiyi təyyarəçilər 16 bombarmandçı təyyarədə 650 mil məsafəni qət edib, yapon şəhərlərini və Tokionu bombardman etdilər. Həmin ilin yayında amerikan dəniz qüvvələri, yaponların irəliləmələrini dayandırdılar. İyun ayında Miduey atollu döyüşündə amerikan təyyarələri 4 yapon aviasiya daşıyan gəmisini məhv etdi, amerikanların özləri isə bu tipli yalnız bir gəmilərini itirmişdilər. Bu qələbə ilə Sakit okeanda amerikanların dəniz ağalığı quruldu.

Britaniyalılar El Alameyndə 1942-ci ilin yayında “Forch” – “(Məşəl”) əməliyyatını həyata keçirməklə, Rommellin komandanlığı altında olan alman və italyan ordularını noyabrın əvvəlində məğlub etdilər. Almanların döyüşü uduzmasının əsas səbəbi yanacağın və hərbi texnikanın çatışmaması oldu, ingilis ordusunun komandanı general B. Montqomerinin hərbi istedadı bunda nisbətən az rol oynamışdı. 1943-cü ilin fevralında Stalinqrad döyüşü almanların ağır məğlubiyyəti və 300 min alman əsgəri və zabitinin əsir götürülməsi ilə nəticələndi. Bu məğlubiyyət təkcə hərbi xarakter daşımırdı, həm də almanlar üçün ağır mənəvi zərbəyə çevrildi. 1943-cü ilin iyununda isə sovet ordusu nəhəng tank döyüşündə almanları həmçinin böyük məğlubiyyətə düçar etdi. Kurskın Proxorovka kəndi yaxınlığında gedən döyüş almanların cəbhədəki qələbələrinə son qoydu, sovet ordusunun isə sonrakı qələbələrinə zəmin yaratdı.

Müttəfiqlər 1943-cü ilin əvvəlindən razılaşmışdılar ki, Ox qüvvələri tam təslim olana qədər onlarla vuruşacaqlar. Almanların və yaponların qeyd-şərtsiz təslim olması, razılığa əsasən başlıca əsas prinsipə çevrilmişdi.

Müttəfiqlər öz razılaşmalarına ardıcıl olaraq əməl edirdilər. 1943-cü ilin mayında Ox qüvvələri Tunisdə məğlub olduqdan sonra, Müttəfiqlər Aralıq dənizini adlayıb, müharibə teatrını İtaliya ərazisinə keçirdilər. U. Çörçill bu zonanı Avropanın “yumşaq qarınaltısı” adlandırmışdı. Siciliya tutulduqdan sonra Müttəfiq qoşunları İtaliyanın qitə ərazisinə nüdaxilə etdilər. Bu vaxt Mussolini həbs edildi. Yeni italiyan hökuməti təslim olmaq təklifi ilə Müttəfiq qüvvələrinə müraciət etdi.

Lakin almanlar Mussolinini, Otto Skortseninin planerlərdən istifadə etməklə, ağlasığmaz əməliyyatı hesabına azad etdilər., sonra isə onu Almaniyanın yaratdığı kukla hökumətinə başçı təyin etdilər. Almanlar

Şimali İtaliya ilə hərəkət edib, ölkənin çox hissəsini zəbt etdilər.. Paytaxt Roma isə 1944-cü ilin 4 iyununa qədər hələ Müttəfiqlərə təslim edilməmişdi, 5 mayda isə Roma alman işğalından azad edilmiş ilk paytaxt şəhəri oldu.. Əbədi şəhərin azad edilməsindən iki gün sonra, 6 iyunda Müttəfiqlər çoxdan gözlənilən "İkinci Cəbhəni" açdılar.

Hələ 1943-cü ilin noyabrında Üçlüyün Tehran konfransı, cəbhələrdə qazanılan qələbələrin təsiri altında "İkinci Cəbhənin" Fransa ərazisində, 1944-cü ilin yazında baş tutmasını planlaşdırmışdı. Sovet qoşunları ilə Britaniya və Amerika orduları Almaniyada görüşəcək, Şərqi Avropanı isə Sovet silahlı qüvvələri azad edəcəkdi. Müharibədən sonrakı Almaniyanın parçalanması variantını da Müttəfiqlər razılaşmışdılar. Konfransın əhval-ruhiyyəsi böyük ümidlər doğururdu. ABŞ prezidenti Franklin D. Ruzveltin müşaviri və çox etibar etdiyi məsləhətçisi Harri Hopkins konfrans barədə nikbin düşüncəsini belə ifadə edirdi: "Biz öz ürəyimizdə həqiqətən inanırdıq ki, bu, yeni bir günün dan şəfəqidir".

1944-cü ilin 6 iyununda Britaniya və ABŞ qüvvələri amerikan generalı Duayt Eyshauerin komandanlığı altında Normandiyaya ağır desant çıxarmaqla, İkinci Cəbhəni açdılar. Avropanın qərbində artıq Müttəfiqlər irəliləyirdilər.

Sakit okean rayonundakı müharibə teatrında 1944-cü ildən təşəbbüs artıq amerikanlara məxsus idi. Yaponiya paytaxtına hava hücumu vaxtı 100 min nəfər tokiolu həlak oldu. Yaponlar isə son yapon və son patron qalana qədər vuruşacaqlarını söyləyirdilər. Azyaşlı məktəblilər əsgərliyə hazırlanmaq üçün konveyer rolunu oynayırdılar. Yaponlar amerikan hərbi gəmilərinə hücum üçün "kamikadze" təyyarəçilərindən tstifadə etməyə başladılar. Onlar, həmçinin adalarda müdafiə döyüşləri aparan yapon əsgərləri fədəkarlıqla vuruşurdular, əsl igidlik göstərirdilər, axırıncılar ölümü, əsir düşüb, sağ qalmaqdan üstün tuturdular. Lakin amerikanların labüd qələbəsinin qarşısını almaq mümkün deyildi.1945- ci ilin avqustunda Hirosimaya və Naqasakiyə

amerikanların atdığı iki atom bombası 200 min adamın həla olması ilə nəticələndi. Avqustub 14-də imperator Hirohitə radio ilə xalqa müraciət edib, bildirdi ki, müharibənin davam etməsi bütün yapon xalqının məhvinə gətirib çıxaracaqdır. O, müharibəni böyük ümidlə başlamışdı, yalnız məğlubiyyət anında ilk dəfə onun səsi eşidildi.  ABŞ həqiqətən böyük qələbəsini bayram edəndə, yaponlar isə özlərinin minillik tarixində ilk məğlubiyyətlərinin matəmini qeyd edirdilər.

II Dünya müharibəsində, özündən əvvəlki Dünya müharibəsində ilk dəfə tətbiq edilən tank və aviasya daha mühüm rol oynadı, təsadüfi deyil ki, bu müharibə motorlar müharibəsi adlanırdı. El-Alasmeyn və Kursk tank döyüşləri alman hərbi maşınının zəifləməsində təsirli rol oynadı. Lakin aviasiya və onun həyata keçirdiyi bombardmanlar Hitler Almaniyasının hərbi qüdrətinin xeyli dərəcədə süqutunun əldə edilməsində daha böyük rol oynadı.

Hitler özü hələ İspaniyada Vətəndaş müharibəsi gedən vaxt aviasiyanın gücünü sınaqdan keçirərək, anlamışdı. 1937-ci ildə həmin İspaniyada, Basklar ölkəsindəki Gernika adlı şəhər almanların aviasiya bombardmanı ilə bütünlüklə məhv edilmişdi.  II Dünya müharibəsinin gedişində isə alman aviasiyası vasitəsilə İngiltərənin Koventri şəhəri məhv edildi və onlar faşist barbarlığının simvoluna çevrildilər. Belə məhv edilənlərə 1944-cü ildə alman işğalçılarının Fransada yer üzündən sildiyi  Oradur-sür- Qlan qəsəbəsi də daxildir.

Lakin Müttəfiq orduları almanıarın vəhşiliyini cavabsız qoymadılar. 1944-cü ildə ingilis-amerikan aviasiyası Almaniyanın böyük sənaye mərkəzi, 1815-ci ildən hərbi şəhər sayılan Hamburqu dəhşətli aviasiya zərbəsinə məruz qoydu. Saksoniyanın paytaxtı Drezden də xarabazara çevrildi. Müttəfiqlərin aviasiyası Almaniyanın hərbi zavodlarını məhv etməklə, onun ordusunun hərbi texnika və silah sursatla təchizatını kəskin surətdə azaltdı.

Sovet İttifaqı qoşunları 1945-ci ilin yanvarında Varşavanı tutdu və aprel ayında isə Berlinə girdilər. Hitler 1945-ci ilin yanvarından

Berlindəki yeraltı bunkerə köçmüşdü. O, nəhəng hərbi cinayətlərindən əlavə antisemitizmi dövlət siyasəti səviyyəsinə qaldırmışdı, Beynəlxalq yəhudiliyi bütün xalqlar üçün universal zəhər hesab edirdi.

Adolf Hitler özünü intihar etməklə dünyadan getdi. Benito Mussolini  ikinci dəfə tutulduqda, partizanlar tərəfindən güllələndi. Mayın 7-də alman komandanlığı təslim oldu. Avropada müharibə başa çatdı.

ABŞ prezidenti Harri Trumenin (prezident Franklin Ruzvelt 12 aprel 1945-ci ildə ölmüşdü) Avropda müharibəsindəki qələbədən sonra, Yaponiyaya iki atom bombası atılması barədəki verdiyi göstərişin həyata keçirilməsi, yaponların qeyd-şərtsiz məğlubiyyətini sürətləndirdi.2 sentyabr 1945-ci ildə Yaponiya amerikalıların "Missuri" hərb gəmisində qeyd-şərtsiz təslim olmaq barədəki aktı imzaladı. Altı il davam edən II Dünya müharibəsi başa çatdı.

**Holokost**. Bu müharibədə Nasist Yeni Qaydasından daha dəhşətli olan bir başqa cəhət yox idi. Bu qayda Avropa xalqı olan yəhudiləri dəqiqliklə tam məhv etməkdən ibarət olan bir cəhd idi. İrqi mübarizə Hitler ideologiyasının başlıca elementi idi və ona elə gəlirdi ki, ari irqinə məxsus olmayana qarşı mübarizə aydın şəkildə getməlidir. Guya arilər bəşər mədəni inkişafının yaradıcılarıdır. Onlara qarşı isə yəhudilər, parazitlər dururdu və ariləri məhv etmək istəyirdilər. 1922-ci ildə Nasist Partiyasının mitinqində Hitler bəyan etmişdi: "Burada bir kompromis ola bilər – burada yalnız iki mümkün olan şey vardır, ya arilər qalib gəlməlidir, yaxud da arilər məhv olmalıdır, yəhudilər qələbə çalmalıdır". Baxmayaraq ki, Hitler sonralar antisemit messajının tonunu, onun partiyası kütləvi seçici qələbələrini axtaranda, aşağı saldı. Antisemitizm natsizmdə canlandırıcı bir mövzuya çevrildi və bu 1938–1939-cu illər ərzində yəhudilərə qarşı qanunverici aktların qəbul edilməsi daşqını ilə nəticələndi.

1939-cu ilin başlanğıcından natsist siyasəti diqqətini Almaniya yəhudilərinin ölkədən "mühacirət" etməsinə yönəltdi. Bu vaxt Hitler

Avropa yəhudilərinin gələcəyi barədə xəbərdarlıq etdi. O, 1939-cu ilin yanvarında alman Reyxstaqına müraciətində özünü həyatdakı peyğəmbər adlandırmaqdan da çəkinmədi. O, əlavə etdi ki, vaxtilə hakimiyyət uğrunda mübarizə aparanda, yəhudilər mənim peyğəmbərliyimi istehzalı gülüşlə qarşılayırdılar ki, bir gün mən dövlətin liderliyinə yüksələcəyəm və yəhudi problemini həll etməyə nail olacağam. Bu gün mən yenidən peyğəmbərəm, Avropa daxilində və xaricində beynəlxalq maliyyə yəhudiliyinə qarşı peyğəmbərəm. Onlar bir dəfə xalqları dünya müharibəsinə cəlb etmişdilər, o vaxtlar nəticədə dünyanın bolşevikləşməsi olmayacaqdı və yəhudiliyin qələbəsi baş verəcəkdi. Lakin elə həmin əsrdə də Avropada yəhudi irqinin məhv olması baş verəcəkdir.

O dövrdə mühacirət hələ də sevilən bir siyasət idi, lakin 1939-cu ilin sentyabrından yəhudi problemi adlanan siyasət yeni ölçü qazandı. Madaqaskara mühacirət planı müzakirə edilirdi, buna görə yəhudilər Afrikanın şərq sahilindəki Madaqaskar adasına köçürülməli idi. Müharibə şəraiti bu planın praktiki xarakter daşımadığı qənaətinə gəldi və hətta daha güclü təsir göstərən bir siyasətə inam bəslənməsi baş verdi

Henrix Himmler və SS təşkilatı Hitlerin irqi ideologiyasının yaxın şəriki idi. Yəhudi problemi barədə natsistlərin axırıncı həll adlandırdığı siyasətin həyata keçirilməsinə məsuliyyət SS-in üzərinə qoyuldu, bu isə məhz yəhudi xalqının məhv edilməsi idi.

1941-ci ilin iyununda SS-in zərbə qüvvələrinin mobil qatil birləşmələrindən ibarət olan qurumuna yeni səlahiyyət verildi. SS-in ölüm legionları, nizami ordu Sovet İttifaqı ərazisində irəlilədikcə, onun arxasınca gedirdi. Onların işi yəhudilərin yaşadığı kəndləri mühasirəyə almaqla, həmin adamları öldürmək və kütləvi qəbirlərdə dəfn etmək idi. Bəzən güllələnməmişdən əvvəl qurbanlar özlərinə, qardaşlıq qəbri üçün nəhəng çuxurlar qazırdılar.

Belə müntəzəm qətllər SS cəlladları arasında da mənəvi problemlər yaradırdı. SS lideri Himmler baş verən hər şey üçün guya Allah

qarşısında, həm də faktiki olaraq Hitler qarşısında məsuliyyət daşıyırdı və SS kontingenti arasında çaşqınlığın və stress keçirmək hallarının baş verməsinə yol verə bilməzdi.

Zərbə qüvvələri tərəfindən artıq 1 milyona qədər yəhudi öldürülmüşdü. Yəhudi əhalisini məhv etmək üçün xüsusi ölüm düşərgələrinin yaradılmasına başlandı. Plan çox sadə idi. İşğal edilmiş ölkələrdən yəhudilər Almaniya və ya ona rəğbət bəsləyənlər tərəfindən mal-qara vaqonlarına yüklənib, Polşaya göndərilirdi. Orada hər yerdən gətirilən yəhudiləri məhv etmək üçün xüsusi mərkəzlər tikilmişdi. Onlardan ən böyüyü Auşvits-Birkenau (bu, işğal edilmiş Polşanın Osventsim şəhəri idi) adlanan həbs düşərgəsi idi. Bu əcaib ölüm düşərgəsində 1,3milyon insan həyatla vidalaşmalı olmuşdu.

Düşərgədə qaz kameraları duş otaqları kimi layihələnmişdi, oraya az sonra qurbana çevrilənlər gətirilirdi. Qazlaşmadan sonra ölülərin cəsədləri xüsusi olaraq tikilmiş krematoriyalarda yandırılırdı. Düşərgə əvvəlcə 10 min adam üçün nəzərdə tutulmuşdu, sonralar burada 200 min adam saxlanırdı.

Osventsim Natsist Almaniyasının yeni imperiya yaratmaq planının tərkib hissəsinə daxil olmaqla, almanların Şərqdə məskunlaşmasının dayaq nöqtəsinə çevrilməli idi. Şəhər olduqca əlverişli yerdə yerləşirdi, dəmir yol qovşağında olduğundan, bütün Avropa ilə əlaqəsi var idi.

1942-ci ilin yazından ölüm düşərgələri artıq fəaliyyətdə idi. Onlara bütün ölkələrdən yığılan yəhudilər gətirilirdi. Ausvitsə daxil olanların 30 faizi əmək düşərgələrinə göndərilirdi; qalanları qaz kameralarına yola salınırdı. Qurbanların əşyaları və hətta onların cəsədləri iqtisadi fayda götürmək niyyəti üçün istifadə olunurdu.

Auşvits-Birkenau ölüm düşərgəsinin həyətinin giriş qapısının üzərində yazılmış və indiyədək saxlanılan "*Arbeit macht frei*" – "Əmək insanı azadlığa aparır" sözləri istehza doğurmaya bilməz. Düzdür, burada əmək düşərgəsi də mövcud idi, lakin onun böyük nifrətamiz "şöhrəti" qaz kameraları vasitəsilə vaxtından əvvəl o dünyaya

göndərilən adamların qırğını ilə əlaqədar idi. Həbs düşərgəsi daha çox əsl genotsid obyekti kimi tanınır, oradakı bədbəxt insanlar hansı azadlıq barədə düşünə bilərdi? Axı onlar  xırda istisna ilə, burada əməklə məşğul olmurdular, yalnız qarşıdakı insanlığa yad olan dəhşətli ölümlərini gözləyirdilər.

Bu saxta sözlərin əvəzinə ölüm düşərgəsinin darvazası üzərində böyük şair Dantenin "İlahi komediya"sındakı cəhənnəmin qapısı barədə deyilən: "Bura girən hər kəs ümidini bütünlüklə  unut" kimi sözlər yazılsaydı, bu, ölüm düşərgəsinin mahiyyətinə daha uyğun olardı. Çünki Auşvits-Birkenauda öldürülənlərin  bircə dənə də olsun qəbri olmadığı halda, bura  lənət harayını kəsməyən yüz minlərin  ruhumun dolandığı nəhəng qəbiristanlıq təsiri bağışlayırdı. 80 ildən artıq bir vaxt keçsə də, bu hər qarışı ölüm saçan düşərgənin həyətindəki hüzn atmosferi və vəhşilərin onlara acı tale "bəxş etmələrindən" kütləvi şikayət və ağı səsləri hələ də yoxa çıxmır və kəsilmək bilmir. Buranı görməyə gələn hər kəsin qulaqlarında, özündən asılı olmayaraq, bu məkanda həyatını itirən bədbəxtlərin acı naləsi, bəşəriyyətə ünvanlanan həyəcan siqnalı kimi səslənir.

Natsistlər adamları güllələməklə, həm də aclığa və ağır zəhmətə məhkum etməklə öldürürdülər. Bu qaydada öldürülənlərin sayı ən azı 10 milyon nəfər idi. Natsistlər Avropa qaraçılarını da, guya başqa qana malik olmalarına görə məhv edirdilər. Bir milyon qaraçı ölüm düşərgələrində öldürülmüşdü ki, bu da onların ümumi sayının 40 faizinə bərabər idi. Natsistlər həm də 3 milyondan 4 milyona qədər Sovet müharibə əsirlərini beynəlxalq konvensiyalara məhəl qoymayaraq, əsirlikdə öldürmüşdülər.

Yaponlar da Asiyada işğal etdikləri ərazilərdə əhalinin hər cür əzablara məhkum edirdilər, onlar üçün Yeni Qayda tətbiq edirdilər. Cənubi-Şərqi Asiyanı işğal edən yaponlar "Asiya asiyalılar üçün" şüarı altında hərəkət edirdilər. Yapon hərb qüvvələri də almanlar kimi, onlara təslim olmuş xalqlara olduqca az hörmət bəsləyirdilər. 1937-ci ildə

yaponlar Çini işğal edəndə yapon əsgərləri bir neçə günü adamları öldürməyə, qadınları zorlamağa və şəhəri qarət etməyə sərf etdilər. 600 min koreyalı Yaponiyada işləməyə aparıldı. Koreya qadınlarının bir hissəsi "rahat qadın" adı altında fahişə kimi yapon qoşunları heyətinə xidmət edirdi.

## Qədim dünyada da dəhşətlər az olmamışdır

Qədim dünyada baş verən dəhşətlərə gəldikdə , Qədim Roma sərkərdəsi Qay Yuli Sezar böyük əraziləri işğal edib, müharibələrdə qan çayı axıtmaqla şöhrət qazanmışdı. B.e. ə. I əsrin ortalarında Qalliyada yerli tayfalara qarşı apardığı döyüşlərdə milyonlarla insanı məhv etmiş və əsir götürmüşdü. Həmin əsrin 49-cu ilində onun qanunu pozaraq, Romaya ordusu ilə qayıtması Vətəndaş müharibəsinin başlanmasına səbəb olmuşdu. Pompey tərəfdarlarını məğlub edən Sezar diktatorluğa yiyələnmiş, çar olmaq eşqinə düşdükdə, buna razı olmayan respublika quruluşunun tərəfdarları, onu Senatın iclası keçirilən zalda qətlə yetirmişdilər.

Sezarın bu fəaliyyətindən 40 ilə yaxın əvvəl Pont çarı VI Mitridat Yevpator Romaya qarşı müqavimətə qalxmış və ondan intiqam almaq üçün Kiçik Asiyada olan romalıların və italiklərin kütləvi şəkildə məhv edilməsinə göstəriş vermişdi. B.e.ə. 88-ci ildə bir gün ərzində 80 min adam öldürülmüşdü. Bir il əvvəl isə Mitridat Poma əyaləti olan Asiyanı işğal etmişdi.

Lakin bir il sonra, 87-ci ildə Sulla, Mitridata qoşulan Afinaya hücuma başladı və şəhəri ələ keçirib, qarətə məruz qoydu. O, nəhəng Pont ordusunu da darmadağın etdi. Mitridat Romadan qisas almaq üçün bir gündə 80 min günahsıs insanı məhv etməsinə görə sevinirdi. Lakin romalıların intiqamı daha cüclü oldu. Qay Yuli Sezar Misirdə olduqdan sonra, Mitridatı Pont çarı kimi əvəz edən oğlu Farnakı ağır

məğlubiyyətə uğradıb,  Romaya məşhur “veni, vidi, vici” –“ gəldim, gördüm, qalib gəldim” mesajını göndərmişdi.

## II Dünya müharibəsinə ödənilən haqq

II Dünya müharibəsində bu Moloxa verilən insan həyatı haqqı nəhəng ölçüdə idi. Ən azı, 21 milyon əsgər həlak olmuşdu. Mülki adamların ölüm sayı daha çox idi, sonralar bunun 40 milyon ətrafında olduğu qiymətləndirilmişdi. Onlardan 29 milyonu sovet adamları və çinlilər idi. Sovet İttifaqı başqa ölkələrlə müqayisədə daha böyük itkilərə məruz qalmışdı, bu 10 milyon əsgərin və 19 milyon mülki şəxsin məhvi kimi qiymətləndirilir.

1945-ci ildə milyonlarla adam bütün dünya ətrafında aclıqla üzləşmişdi. Avropada 100 milyon adam bəzi fondların ərzaq yardımından asılı vəziyyətdə idi. Qitədə 30 milyon adam yaşayış yerlərindən uzaqlaşmışdı, onlardan 10 milyonu öz evinə qayıda bilmirdi. Asiya qitəsində isə Çində gedən münaqişə hesabına ölkə ağır viranəliyə məruz qalmışdı. Müharibənin ümumi xərcinin 4 trilyon ABŞ dolları həcmində olduğu qiymətləndirilir.

## Ləyaqət və möhkəm iradə nümunələri

Bəşər tarixində ən çətin anda belə ləyaqətini qoruyub saxlayan, möhkəm iradəsi hesabına taleyinin dolanbaclarından qalib kimi çıxan şəxsiyyətlər az olmamışdır. Onlar müasir insana da nümunə kimi yol göstərir, böhran anlarında çaşqınlığa yol verməməyi, ali insani keyfiyyətlər hesabına uğursuzluqları da dözümlülük hesabına uğura çevirmək dərsi verirlər.

Özünü ləyaqətli aparması hesabına, ağır məğlubiyyətdən sonra yenə ona hörmətlə yanaşılmasına nail olan qədim Şimali Hindistan çarı Poru göstərmək olar. İradəsinin gücü ilə çətinliklərə sinə gərməklə, xalqını siyasi sahədə və döyüş cəbhəsindəki igidlikləri ilə sevindirən şəxsiyyətlər sırasına həmçinin iradəlilik nümunəsi göstərib, Kastantinopolu xilas edən imperatriça Teodoranı, həyatında ağır sınaqlara məruz qalsa da, özünü itirməyən Fransa kralı I Fransiski, ölkəsinə qızıl dövr bəxş etmiş İngiltərə kraliçası I Elizabeti, amerikan İstiqlaliyyət ordusunun görkəmli sərkərdəsi Corc Vaşinqtonu, I Napoleon donanmasına qalib gələn ingilis admiralı Horatsio Nelsonu, bu çəxslərdən tam fərqləndiyinə görə anti- nümunə timsalı sayılan III Napoleonu, mübarizəsini uğurla başa çatdırmış inqilab rəhbəri V. İ. Lenini, Böyük Britaniyanın baş naziri və  II Dünya müharibəsinin qəhrəmanı Uinston Çörçilli, Böyük Vətən müharibəsində görünməmiş məğlubiyyətlərlə və itkilərlə üzləşmiş, sarsılmazlığını itirməyərək, xalqını qələbəyə çatdırmış İ.V.Stalini, yeni dövlət yaratması kimi böyük zəfərdən hələ 15 il əvvəl ordusunu məhv olmaq təhlükəsindən, görünməmiş əzablar hesabına xilas etmiş Mao Tsze-dunu, nəhayət, 2020-ci ildə 44 günlük müharibədə düşmənin ağır məğlubiyyətinin təşkilatçısı, xalqının ilk hərbi qələbəsinin müəllifi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevi daxil etmək istərdim. Bu ləyaqətli insanlar siyahısına bircə III Napoleon uyğun gəlmir, ona görə də o, zaman ardıcıllığına xələl gətirməməklə, həm də anti-nümunə timsalında verilmişdir.

## Ləyaqət nümunələri olan tarixi şəxsiyyətlər

Böyük Aleksandr b.e.ə. 327-ci ildə Hindistan subkontinentinə daxil oldu. Onun müdaxilə etdiyi ilk yer müasir Pakistanın ərazisi idi. Həmin vaxt Hindistanda bir neçə dövlət var idi. 326-cı ildə Hidasp çayı

üzərində ağır döyüş getdi və hind çarı Porun ordusu məğlub edildi və özü əsir düşdü.

## Por (b.e.ə.IV əsr)

Böyük Aleksandr b.e.ə. IV əsrdə Hindistan yürüşündə bir sıra çətin döyüşlərdə vuruşdu. Hidasp çayı üzərindəki döyüşdə isə hind çarı Por kimi möhkəm bir rəqiblə üzləşməli oldu. Poru məğlub etdikdən sonra , Makedoniyalı dahi sərkərdənin qədim bioqrafı olan Arriana görə, Aleksandr onunla hörmətlə davrandı.

Fərdi hərəkəti, igidliyi və ləyaqəti hesabına Por özünü təkcə həqiqi hərbi xadim kimi deyil, həm də əsl igid əsgər kimi göstərdi. O, öz süvarilərinin darmadağın olduğunu gördükdə, piyadalarının əksəriyyəti isə həlak olmuşdu, onun filləri də öldürülmüşdü  ya da qəzəbdən qışqırırdı, Persiya çarı III Daradan fərqli olaraq, öz canını xilas etməyə çalışmamış, bir çar kimi ordusunun qalan hissəsini bir yerə yığıb, uzun müddət mübarizə aparmışdı. Por igidliklə vuruşurdu, yalnız özü yaralananda, fillərini başqa səmtə çevirib, geri çəkilməyə başladı.

Aleksandr bu böyük və fərasətli sərkərdənin həyatını xilas etmək qayğısına qalıb, onun yanına Moroes adlı bir hindlini göndərdi, ona desin ki, o, öz rəqibi Porun dostu olacaqdır. Por Moroesın mesajına qulaq asdı, öz filini dayandırıb, onun belindən aşağı düşdü. Susuzluqdan yandığına görə su içdikdən sonra özünə gəlib, Moroesə dedi ki, o, özü də Aleksandrla nə qədər mümkünsə, daha tez görüşmək istəyir.

Aleksandra onun gəldiyini xəbər verdilər, o, Poru qarşılamağa çıxdı. Onlar görüşdükdə o, öz düşməninə heyranlıqla baxmağa başladı. Por yaxşı fiquraya malik idi, boyu yeddi futdan da çox ola bilərdi və şəxsi bir gözəlliyə malik idi. O, öz  bədən quruluşunu itirməmişdi, bu xüsusiyyəti onun bir igid insan olması ilə birləşirdi. Çarın qarşısında

başqa bir çar dayanmışdı, o, öz səltənəti üçün Aleksandrla da şərəflə vuruşmuşdu.

Aleksandr ilk olaraq danışmağa başladı, dedi ki, “Yaxşı, sən özünlə necə davranmağımı istəyirsən?” Por  cavab verdi: “Mənə çara olan kimi münasibət göstər”. Aleksandr dedi: “Mənə qaldıqda, sənin istəyinə əməl ediləcəkdir. Lakin burada elə bir şey yoxdurmu ki, sən özün üçün arzu edəsən?” Cavab belə oldu: “Hər şey onun təkcə bir xahişində ifadə edilmişdir”.

Porun nitqindəki sözlərin ləyaqəti Aleksandra daha xoş gəldi və o, Porun öz təbəələri üzərindəki hökmranlığını bərpa etdi və üstəlik, onun səltənətinə hətta yeni geniş ərazilər də əlavə etdi. Sonra həqiqətən bu igid insandan çara layiq olan kimi istifadə etdi və həmin vaxtdan sonra da onunla bütün yollarla bir loyal dost kimi davrandı.

Çar Por ləyaqətini nümayiş etdirmək hesabına Böyük Aleksandrın etimadını qazanmışdı.

Bizans imperiyasında isə 532-ci ildə Konstantinopolda qiyam baş verəndə, imperatriça Teodora böyük iradə nümayiş etdirərək, əri Yustinianın qaçmasına mane olmuş və onu həm də qiyamı yatırtmağa həvəsləndirmişdi.

**Teodora (VI əsr)**

Teodora “ayı saxlayanın” qızı idi, atası Konstantinopolda oyunlar göstərirdi və qız uşaq olanda, o. ölmüşdü. Teodora anasının peşəsinin arxasınca gedib, aktrisa olmuşdu. O vaxtlarda bu fəaliyyətlə məşğul olanlar aşağı təbəqədə doğulmuş kimi hesab olunurdu. Çox vaxt aktrisalar həmçinin fahişə kimi xidmət göstərirdilər və Teodora da bu məsələdə istisna təşkil etmirdi. 25 yaşı olanda o, Yustinianla qarşılaşdı, bu vaxt  printsin 40 yaşı var idi. Onun əmisi olan imperator Yustin qanunu dəyişdirib, aristokrat senatorların aktrisa olanlarla nikaha

girməsinə icazə vermişdi. 527-ci ildə əmisi öldükdən sonra Yustinian imperator, Teodora isə imperatriça oldu, qadının belə yüksəlməsi aşağı sinfə məxsus olan bir şəxsin böyük nailiyyəti idi.

Yustinian və Teodora yaxın və sevimli kompanyonlar idilər. Arvadı həmçinin ona kilsə və dövlət işlərində də təsir göstərirdi. Güclü iradəyə və bacarığa malik olan bu qadın xüsusən 532-ci ildə çox lazımlı oldu, həmin ili Konstantinopolda keçirilən döyüş arabalarının yarışında bir-birinin rəqibi olan iki fraksiya  vahid qüvvə kimi birləşib, imperatora qarşı qiyam qaldırdı. Qiyam tezliklə üsyana çevrildi, adamlar şəhəri yandırmağa və qarət etməyə başladı. Onlar “Nika” (“qalib gəldik”) deyə qışqırırdılar. Bu sözü, adətən, azarkeşlik etdikləri zamanlarda sevimli komandaları qalib gələndə səsləndirirdilər. Yustinian qaçmağa hazır idi, lakin Teodora ona bu sözləri dedi: “İndi mənim rəyim belədir ki, indiki vaxtda hər şeydən üstün olanı, hətta təhlükəsizlik üçün  imkan yaratmaq üçün də, vuruşmaq lazımdır. İmperator olan üçün qaçqına çevrilmək dözülməz bir işdir və bir gün mənim qarşıma çıxan adamlar mənə təzim edilməli bir xanım kimi müraciət etməsələr, buna dözmərəm. Mən sonra sağ qalmasam belə”. Arvadının bu sözlərini Yustinian eşidib, şəhərdə qalmağa və vuruşmağa qərar verdi. Etiraz edənlərin çoxu öldürüldü və Nika üsyanı adlanan hərəkat sona çatdı.

Əgər Teodoranın möhkəm iradəsi olmasaydı, Yustinian paytaxtı tərk edib, onu günahsız qan axıtmaq və qarət etmək məqsədi güdən üsyançıların əlinə verəcəkdi və Yustinianın Konstntinopolu gözəlləşdirmək sahəsindəki sonralar böyük işləri də, əlbəttə ki, işıq üzü görməyəcəkdi: Teodora, bəlkə də, tək imperator ərini deyil, Konstantinopolun mövcud abadlığını və gələcək gözəlliyini də xilas etmişdi. Yustinianın qiyamdan sonrakı fəaliyyətində, paytaxt şəhərinin möhtəşəm binalarla və kilsələrlə gözəlləşməsi xüsusi yer tutdu.

Əslində, 532-ci il üsyanından sonra Yustinian şəhəri yenidən qurdu və ona təzə bir heyran edici görünüş verdi,, bu, demək olar ki, 1,5 min il keçdikdən sonra da müəyyən ölçüdə yaşamaqda davam edir. Ondan

əvvəl imperator II Teodorus (408–450-ci illər) şəhəri. bütün perimetr boyu quru tərəfdən nəhəng divarlarla əhatə olunmasının layihəsini vermişdi. Şəhərdə nəhəng saray kompleksi var idi. İqamətgahı əhatə edən küçələr təkcə gözəl saraylara malik deyildi, onların ətrafında həmçinin komalar da var idi.

Yustinian çoxlu yeni binalar tikdirdi, çoxlu yollar salındı, körpülər, divarlar, hamamlar, hüquq məhkəmələri binası və nəhəng yeraltı rezervuarlar tikdirdi. Axırıncılar şəhəri təchizatı qıt olan su ehtiyatı ilə təmin etməli idi. O, həmçinin xəstəxanalar, məktəblər, monastırlar və kilsələr inşa etdirirdi. Kilsə tikintisinə onun xüsusi ehtirası var idi və Konstantinopolda 34 yeni kilsə tikildi və ya bərpa edildi. Onun ən böyük nailiyyəti isə bu gün də hamını heyran edən Hagia Sophia  (Aya Sofiya)– Müqəddəs Müdriklik kilsəsi idi.

Binanın işığı elə təsəvvür yaradırdı ki, o heç də möhkəm bünövrə üzərində dayanmamışdır. Elə bil ki, Allah bu binadan uzaqda dayana bilməzdi. Burada məhəbbət məskunlaşmışdı. İçəridəki qaranlıq mühit görünməyən bir işıqla işıqlanmışdı, həm də belə bir inam yaranırdı ki, dünya elə bil ki, görünməyən bir ruhla işıqlanır, Hagia Sophia,  saray kompleksi və Hippodrom (Cıdır meydanı) Konstantinopolun üç ən böyük tikintisi idi. Axırıncı nəhəng amfiteatr olmaqla 60 min tamaşaçı tuturdu.

Teodoranın çətin anda iradəsini işə salması təkcə Yustinianı xilas etmədi, həm də Konstantinopola əlavə şöhrət gətirən incilər ilə onu bəzəndirdi.

**I Fransisk** (1491–1547-ci illər)

Valua Evindən olan, onun ilk kralı,  Renessans rəssamlığını və alimləri himayə edən, humanist və rıtsar adam olan I Fransisk 1515–

1516-cı illərdə İtaliyaya yürüşə başlamışdı. 1521–1544-cü illərdə isə Müqəddəs Roma imperiyası ilə müharibələr aparmışdı.

Fransisk Şarl de Valuanın - Orleanlıların oğlu idi. Əmisi oğlu XII Lui 1508-ci ildə taxt-taca çıxdıqda, onun varisinə çevrildi və Fransiskə Valua hersoqu titulu verildi. Onun anası 20 yaşında dul qalmışdı. XII Lui öz əmisi oğluna inanmadığından, ona dövlət işlərinə qarışmağa imkan vermirdi. I Fransisk 18 yaşında orduda xidmət etməyə başladı, həm də özünü idarə etməyi öyrəndi.

XII Lui, ölümündən əvvəl özünün 15 yaşlı qızını Fransiskə ərə verdi. 1515-ci ildə Fransisk Fransanın kralı oldu.

XII Lui ordusunu, Milan hersoqluğunu yenidən işğal etmək üçün hazırlayan vaxt ölmüşdü. Bir qanlı döyüşdə süvari qoşununa başçılıq edən Fransisk isə Milan hersoqu Sfortsanın muzdlu ordusunu məğlub etmişdi. Həmin dövrdə rıtsar Bayard ən məşhur döyüşçü idi. İndi də fransızlar Bayarda böyük hörmət bəsləyirlər.

Roma papası, Fransiskə Rafaelin “Madonna”sını təklif etdi. Fransisk isə Sfortsaya və Leonardo da Vinçiyə mükafat verdi. O, bir qayda olaraq, qadınları saraya dəvət edirdi, bunu izah etmək üçün deyirdi ki, “Qadınsız saray, baharı olmayan il kimidir və qadınlarsız, baharın özü də qızıl güllərsiz kimidir”.

Kral yorulmadan Fransanı gəzirdi, bu vaxta qədər kralı görməyənlər ona maraqla tamaşa edirdilər.

Babasının taxt-tacda əvəz edən İspan kralı I Karl Fransiski məhv etmək üçün yetişmişdi. Fərasətli siyasətçi olan 19 yaşlı Karl Müqəddəs Roma imperiyasında imperator olduqda, ağlında kainat monarxiyası yaratmağı düşünürdü. Ona ən çox maneçilik törədən isə Fransa kralı idi. Fransisk bu vaxt həm də uğurlu qaydada İngiltərə kralı VIII Henri ilə ittifaqa can atırdı.

I Karlla (Müqəddəs Roma imperatoru kimi o, V Karl adlanırdı) düşmənçilik 1522-ci ildə başlandı. Fransız kralının məşuqəsinin iki

qardaşı Milanda yoxa çıxmışdı. 1523-cü ildə o, özünün fransız dövlətinə qayıtmalı oldu, çünki Şarl de Burbon öz arvadına görə varis olmağa can atırdı. Burbon həm də satqına çevrilmişdi və imperatorun xidmətinə keçmişdi. Karl Provansa girdi. Fransisk Karlı izləyəndə 24 yaşlı arvadı Klaudinanın öldüyünü eşitdi, az sonra onun ikinci qızı da öldü.

1525-ci ildəki ispanlarla İtaliyadakı Pavia döyüşündə I Fransiskin ordusu məğlub edildi, onun özü yaralandı və əsir götürüldü. O, anasına yazırdı: “Madam, bədbəxtliyimin qalan hissələri barədə sənə məlumat vermək istəyirəm, mənim namusdan və həyatımdan başqa heç nəyim qalmamışdır”.

Kralın əsirlikdən azad olunması üçün imperator Fransanın üçdə birini ona verməyi, həmçinin onun İtaliyaya olan iddiasından əl çəkməsini, Provans malikanələrinin isə Burbona verilməsini tələb etdi. Fransisk vətənə göndərdiyi məktubda yazırdı: “Allahın iradəsi ilə nəinki mənim səltənətimə xətər toxunması şərtlərini qəbul etməyəcəyəm, nə qədər uzun çəksə də, həm də dözməyi qərara almışam”.

Onu Madridin ağır şəraitə malik olan bir qülləsində saxlayırdılar, o, burada melanxolik şeirlər, şərqilər yazırdı, öz təbəələrinə məktublar göndərirdi. Onun köhnə və yeni yaraları bu vaxt zöhrəvi xəstəliyi ilə birləşmişdi.

Fransisk axırda sağala bildi, baxmayaraq ki, onun əzabları kəsilmirdi. İmperator isə öz iddialarını davam etdirirdi. Dustaqxanada ölməyi qərara alıb, Fransisk böyük oğlunun xeyrinə taxt-tacdan imtina etdi. Dofin isə olduqca gənc idi; ölkə öz lideri olmadığından itirilə bilərdi. Hansı qiymətə olursa olsun, o, vətəninə qayıtmalı idi.

Axırıncı şərt ondan ibarət oldu ki, Fransisk azad olmaq üçün, 7 və 8 yaşlı iki böyük oğlunu girov kimi Karla versin.

Mühasirə edilmiş əyalətlər Fransanın tərkibindən çıxmaqdan imtina etdilər. İmperator kralı mənəvi cəhətdən yaralamaq üçün onun

uşaqlarını 4 il dustaq saxladı. Onun ordusu müqavimət hiss etmədiyindən, İtaliyanı qarət etdi və papa VII Klementi əsir götürdü.

Fransisk öz gözətçilərindən qaçmağı bacardı, ac qalmamaq üçün ov ovlamaqla bir meşədən digərinə keçirdi. Karl və Fransisk bir-birini duelə çağırdı, lakin bu baş tutmadı. Kambray müqaviləsi Madridi yumşaltdı. Uşaqların geri qayıtması üçün Fransisk öz müttəfiqlərini tərk etməli idi və İspaniyaya 12 milyon qızıl pul verməli idi. Onun ağılsız xərcləri xəzinəni boş qoymuşdu və girov pulunu çətinliklə yığmaq mümkün oldu. Nəticədə kiçik printslər öz atalarının 1530-cu ildəki Eleonora ilə siyasi nikahında iştirak etməyə müvəffəq oldular.

Kral faciəli qaydada qocalmışdı, 1533-cü ildə özünün ikinci oğlu Henrinin Katerina de Mediçi ilə toyunda iştirak etdi. Varis dofin öldüyündən, sonralar o, II Henri adı altında, taxt-tacda atasını əvəz etməklə, 12 il ərzində hökmranlıq etdi. Xəzinə boş olduğuna görə, printsin təzə gəlinin böyük cehiz gətirməsinə xüsusi ümid bəslənirdi.

V Karlla müharibə 1536-cı ildə yekunlaşdı. Dofin 18 yaşında öldü. Fransisk inanırdı ki, onu İspan kralı zəhərləmişdir. Çox sevdiyi üçüncü oğlu isə taun xəstəliyindən ölmüşdü. Fransiskin axırıncı diplomatik nailiyyəti imperatora qarşı Türkiyə ilə ittifaqa girməsi oldu.

Kral isitmədən əziyyət çəkib. öləndə bir qəsrdən başqasına keçirdi. Nəticədə 31 mart 1547-ci ildə rıtsar kral oldu. Həyatının son 20 ilində Fransisk öz həmvətənlərinə və onları əvəz edən nəslə *la grand roi Francois* – Böyük kral Fransisk kimi qaldı. Həmin il onunla ittifaqa girmək istədiyi İngiltərə kralı VIII Henri də öldü.

## **I Elizabet.** (1533–1603-cü illər)

İngiltərə kraliçası I Elizabet ağır əzablarla keçən uşaqlıq və gəncliyindən sonra 25 yaşında, 1558-ci ildə taxt-taca çıxmışdı. Elizabetin 3 yaşı olanda, anası Anna Boleyn zinakarlıqda ittiham

edilərək, atası VIII Henri tərəfindən edam etdirilmişdi. Ona görə də kiçik qıza bastard (haramzada) kimi baxırdılar. 1547-ci ildə ölən atasını hakimiyyətdə əvəz edən qardaşı, 9 yaşlı VI Eduard Elizabetə yaxşı münasibət göstərirdi, lakin o, 6 il kral olduqdan sonra öldü. Ögey bacısı, kraliça olan Mariya Tüdor, protestantları təqib etdiyinə görə ona Qanlı Mariya da deyirdilər, anası Katerina Araqonlu kimi qatı katolik idi və anasının boşanmasına səbəb olmuş Anna Boleynə görə onun qızı Elizabetə də olduqca pis münasibət bəsləyirdi, hətta onu aradan götürmək istəyirdi. Mariyanın kraliçalığı dövründə Elizabet qəsddə iştirak etməkdə təqsirləndirilib, Tauerə salınmışdı. Lakin 1558-ci ildə Mariya ölərkən başqa namizəd olmadığından, taxt-tacın Elizabetə keçməsinə razılıq vermişdi.

I Elizabet ölkədə dini ixtilafların qızışdığı bir dövrdə hakimiyyətə gəlmişdi. Lakin cəsarət nümayiş etdirərək İngiltərədə protestant dininin hakim mövqeyini saxlamışdı.

Elizabet yeniyetməlikdə hər cür sarsıntılarla üzləşmə də, özünü itirməmiş, ömrünün erkən sınaqlarından çıxmağı bacarmışdı. Elizabetə ögey, hətta pis münasibət bəsləndiyinə baxmayaraq, öz təhsili ilə ciddi məşğul olmuş, beş dildə sərbəst danışırdı. Onda şairlik istedadı da var idi.

Elizabet kraliça kimi özünün sələfi olan bacısının dini ədavəti qızışdırmasına son qoya bilmiş, ilk illərdə ağır bir sosial miqyaslı hadisə ilə də üzləşməli olmuşdu. Əgər bacısı protestantları sıxışdırmaq üçün onların nümayəndələrinin edam etdirirdisə, Elizabet də katoliklərə qarşı heç də yumşaq münasibət nümayiş etdirmirdi. Onun qorxmaz və ardıcıl fəaliyyəti sahəsində ölkədə, bu vaxt onun 3 milyon əhalisi var idi, protestantizmin dayaqları möhkəmləndi və bu, katolik dünyasında ona qarşı düşmənçiliyin yaranmasına səbəb oldu. Roma papası, katolik dünyasının başçısı kimi onun qətlə yetirilməsinə rəğbət bəslədiyini bildirməklə, kraliçaya qarşı sui-qəsdə çağırış edirdi. Katolik İspaniyası, onun iki il əvvəl taxt-tacına yiyələnmiş, ögey bacısının keçmiş əri II

Filipp İngiltərənin protestant dayaqlara əsaslanaraq dövlət quruluşunu məhv etmək, onu yenidən katolitsizmə çevirmək planlarından əl çəkmək istəmirdi. Birinci qurban isə onun əvvəllər evlənmək istədiyi kraliça I Elizabet olmalı idi.

İspaniya kralı II Filipp katolitsizmi hər vəchlə yaymağı, öz sələfi olan babası I Karldan (o həm də Müqəddəs Roma imperiyasının imperatoru idi və bu vəzifəsinə görə V Karl titulunu daşıyırdı) öyrənmişdi. Axı Karl çox uzağa gedərək, katolik dini əsasında kainat monarxiyası yaratmağı arzulayırdı. Fransa bu istəyinə ciddi maneə rolunu oynadığından, sonralar o bu fikirdən daşınmağa məcbur olmuşdu.

II Filipp isə İngiltərə barədə qətiyyətli hərəkət etmək, onun protentastizmini məhv edərək, katolik dünyasına qaytarmaq istəyindən əl çəkmirdi və bu məqsədlə İngiltərəyə müdaxilə etməyi vacib sayırdı. O, özünün Məğlubedilməz Armadasını  hersoq Medina Sidoniyanın başçılığı altında 130 gəmidən ibarət olan donanma ilə 1588-ci ildə İngiltərənin işğal etmək planının reallaşdırılması vəzifəsini yerinə yetirməyə göndərdi. Onun donanmasındakı 20 minlik qoşunlara əlavə kömək üçün Parm hersoqunun Dyunkekdəki 30 minlik ordusu da qoşulmalı idi. İspanlar və onların kralı qələbəyə böyük ümid bəsləyirdilər, hətta döyüş nəticəsində anadan yetim qalmış ingilis körpələrini döş südü ilə qidalandırmaq üçün xeyli sayda dayələr də göndərilmişdi.

İspan kralının qələbə ümidi təkcə onun ambitsiyasına deyil, həm də ispan donanmasının Osmanlı donanması üzərində çaldığı böyük zəfərə arxalanırdı. 1571-ci ildə ispan- Venetsiya donanmalarından ibarət Müqəddəs Liqanın hərbi-dəniz qüvvələri Yunanıstandakı Lepanto dəniz döyüşündə Osmanlı türk donanmasını darmadağın etmişdi. Bu qələbə Qsmanlı donanmasının məğlubedilməzliyi barədəki mifi də bütünlüklə sıradan çıxarmışdı. II Filipp güman edirdi ki, ingilis donanması da türk hərbi- dəniz qüvvələrinin acı taleyini yaşayacaqdır. Paralellər çox vaxt uğurlu olmur.

Lakin II Filippin gözlədiyinin tam əksi baş verdi. Dəniz quldduru, lakin kraliça tərəfindən ser titulu ilə mükafatlandırılmış Frensis Dreyk müharibədən əvvəl təkcə Vest İndiyadan gələn və qiymətli metal daşıyan gəmilərlə hücum edərək, onları qarət etməklə kifayətlənməyərək, ispan limanı Kadisdə hərbi ehtiyatları yandırıb məhv etmişdi və ispanların onlarla gəmisini sıradan çıxarmışdı. Frensisk Dreyk və onun digər məharətli silahdaşları ispan Atmadasına güclü müqavimət göstərdilər, onların çox sayda gəmilərini batırdılar, La Manş  boğazında baş verən tufan da onların köməyinə gəldi. Nəticədə ispanlar məğlub edildilər, donanmaları ağır zərbəyə məruz qaldı, 15 min əsgər həlak oldu. Salamat qalan gəmilər Şotlandiya sahillərinə üzdükdə, burada qalxan tufan da onların çoxunu məhv etdi.

İspan kralı məğlubiyyətin ağrısını dəf etmək üçün demişdi ki, o, ingilislərlə vuruşmaq istəmişdi. Allahla vuruşmağa isə o, cəsarət etməzdi.

Kraliça I Elizabet o vaxtlar dünyanın ən varlı dövləti olan İspaniyaya, oraya Vest İndiyadan qızıl, gümüş karvanı fasilə vermədən gəlirdi, qarşı mübarizədən nəinki qorxmamışdu, heç hansısa bir çaşqınlığa da yol verməmişdi. O, sahildə dayanan ingilis döyüşçülərinin yanına gəlmiş, at belində onlara alovlu sözlərlə müraciət etmişdi. Kraliça çıxışında demişdi ki, ən çətin anda da, zəfər çalanda onların yanında olacaq, qələbəyə görə özü onlara mükafatı təqdim edəcəkdir. Səmimiyyətinin ifadəsi kimi bildirilmişdi ki, zəif qadın bədəninə malik olsa da, onun sinəsində kral ürəyi döyünür. Əsgərlər Elizabetin bu sözlərindən ruhlanaraq, hər cür fədakarlığa hazır idilər.

Hakimiyyəti dövründə ən çox müzakirə edilən məsələlərdən biri Elizabetin ərə getməsi və taxt-tac üçün varis doğması idi. Elizabetə ölkəsində evlənmək arzusunda olanlar kimi, xarici printslərdən də onunla evlənmək barədə çox sayda təkliflər gəlirdi. O, kral hakimiyyətinin təsirlərə məruz qalmasına yol verməmək üçün ərə getməmək, bakirə qalmaq qərarına gəlmişdi. Buradan da onun “Virgin”

ləqəbi meydana gəlmişdi, lakin onun bakirəliyi yalnız elan edilmək üçün idi. Əslində isə onun bir neçə məşuqu olmuşdu.

O düşünürdü ki, ingilisə ərə getsə, onun qohumlarının, əslində, tayfasının arzuolunmaz təzyiqlərinə məruz qalacaqdı. Əcnəbiyə ərə getsə isə doğulan varisin hesabına İngiltərə katolik dövlətinə çevriləcəkdi. Fransanın gələcək kralı, III Henrinin onu almaq təklifini eşitdikdə, o vaxtlar ayaqları ağrıdığına görə, istehza ilə demişdi ki, əlil, yaşlı qadının gənc ərini kilsəyə aparmasına həvəsi yoxdur.

Atası VIII Henri varis oğula malik olmaq üçü birinci arvadını boşamış, ikincisini guya başqa səbəbə görə edam etdirmiş, yalnız üçüncü arvadı Ceyn Seymur ona gələcək kral olacaq oğulu doğsa da, 12 gün sonra ölməklə, körpəni yalnız həmin qısa müddətdə görə bilmişdi. VIII Henri çətinliklə hakimiyyətə gəlmiş Tüdor sülaləsini davam etdirmək naminə prints oğula böyük ehtiyac duyurdu. Elizabet ərə getməsə, oğul doğmasa, sülalə mövcudluğunu itirəcəkdi və kraliçanın 45 illik hakimiyyətdə olmasından sonra bu, həqiqətən də, baş verdi və edam etdirdiyi Şotlandiya kraliçası Mariya Styuartın oğlu, Şotlandiya kralı VI Ceyms Styuart, I Ceyms kimi İngiltərə taxt-tacına sahib oldu.

I Elizabet 1603-cü ildə, 70 yaşında öldü. Onun ən böyük mükafatı hakimiyyəti dövründəki illərinin İngiltərənin “qızıl dövrü” adlandırılması və gələcək Britaniya imperiyasına çevriləcək ölkəsinin dünya dəniz dövlətinə çevrilməsi oldu.

**Corc Vaşinqton** (1735–1799-cu illər)

Corc Vaşinqton əmək fəaliyyətinə torpaq mühəndisi (torpaqölçən) kimi başlamışdı. Sonra ingilis ordusunun tərkibində hərbi xidmət keçmiş və fransızlara qarşı döyüşdə iştirak etmişdi. Lakin ona hərbi rütbə verilməmişdi, yalnız amerikan könüllü ordusunda polkovnik rütbəsi almışdı.

Hərbçi zabit kimi Corc Vaşinqton ABŞ-ın İstiqlaliyyət ordusunun baş komandanı təyin edilmişdi. O, əvvəllər də döyüşlərdə vuruşmuşdu. Əslində, ABŞ, nizami ordu adlanacaq hərbi qüvvəyə malik deyildi. Könüllülərdən təşkil olunmaqla, əsgərlərin geyimi pis vəziyyətdə idi, hətta bəziləri ayaqyalın qaydada döyüşə girirdi, onlara silah da çatışmırdı.

Vaşinqton bir sərkərdə kimi məğlubiyyətlə, həmçinin silahdaşının xəyanəti ilə də üzləşmişdi. Ordusunun məğlub olmasına görə o, Nyu-Yorku tərk edib, düşmən ingilislərə verməyə məcbur olmuşdu. Saraqota döyüşünün qəhrəmanı general Benedikt Arnold sonralar xəyanət yoluna düşərək, ingilislərə casusluq etmiş və onlara qoşulmaqla, amerikan ordusundan qaçmışdı.

Bütün bu ağır sınaqlar Vaşinqtonu ruhdan salmırdı, axı müharibənin ilk qışında iki şəhərdə kiçik də olsa qələbə qazanmışdı. 1781-ci ildə isə Yorkstounda ingilislər üzərində qəti qələbə çalmaqla, İstiqlaliyyət müharibəsi başa çatmışdı.

1787-ci ildə Konstitusiyanı qəbul edən iclasda Vaşinqton sədr kimi iştirak etmişdi. 1789-cu ildə onu yeni dövlətin konstitusiyasının təqdim etdiyi ali icra orqanının başçısı kimi ilk prezident seçdilər. Konqress ona ildə 25 min dollar həcmində maaş müəyyən etmişdi, bunun çox olduğundan yaranan narazılığa görə həmin maaşı almaqdan imtina etmiş, öz fermasından gələn gəlirlə dolanmışdı. Ferma isə əslində, onun özününkü deyil, dul qadın kimi evləndiyi arvadına məxsus idi. Bu vəzifədə o, 8 il qaldı və istefasından xeyli əvvəl vətəndaşlara “Vida məktubu” ilə müraciət etmişdi.

Onun yenidən, üçüncü dəfə prezident seçilməsi barədə təkliflərə rədd cavabı verərək, istirahətə yollanmışdı. Ali vəzifəni daşıyanda ona kəskin hücumlar edilirdi, hətta bir dəfə demişdi ki, belə prezident olmaqdansa, qəbirdə olmağı arzu edərdi.

İstirahətə çıxdığından sonra o, Patomak çayı yaxınlığındakı fermasının işləri ilə məşğul olurdu. Yeni qatır cinsi yetişdirmək istəyirdi,

keçmiş silahdaşı və dostu fransız Lafayet ona Malta adasından aldığı qatırları göndərmişdi.

O, atına minib, öz fermasını dolaşır, başqa fermerlərlə də görüşürdü. Belə gəzintilərinin birində ona soyuq dəymişdi və 1799-cü ilin başa çatmasına iki həftə qalmış həyatla vidalaşmışdı.

Onun prezident olduğu dövrdə Patomak çayının sahilindəki bataqlıq yerdə, özünün təklifi itlə paytaxt şəhəri salınmağa başlandı, buna qədər paytaxt bir şəhərdən başqasına köçürülürdü. Şəhərdə Kapitoli yarımçıq tikildikdə və Ağ Ev istifadəyə verildikdə paytaxt rolunu oynamağa başladı. Konqressmenlər sessiyalara, kənarda yaşadıqları yerlərdən gəlirdilər. Paytaxta ilk prezident və onun hərbi xidmətlərinə hörmət əlaməti olaraq Vaşinqton adı verildi. Üçüncü prezident Tomas Cefferson ilk dəfə olaraq Vaşinqtonda yaşamağa və işləməyə başladı.

C.Vaşinqtonun ferması da əvvəllər arvadının malikanəsi olmaqla, Patomak  çayının kənarındakı Maunt Vernonda yerləşirdi.

1812-ci ildə Birləşmiş Ştatlar davam edən münaqişəni əsas götürərək, müharibə partiyasının təkidi ilə Britaniyaya müharibə elan etdi və məğlubiyyətlə üzləşdi. Həmin ili ingilislər Vaşinqton şəhərini işğal edib Ağ Evə və Kapitolinin yarımçıq tikintisinə od vurdular. Yaponların XIII əsrdə işğaldan mühafizə edən İlahi Külək – Kamikadze kimi, ABŞ paytaxtını da üç gün davam edən güclü tufan və leysan yağış xilas etdi. İngilislər Patomak çayındakı qayıqlara oturub Vaşinqtonu tərk etdilər.

İngilislər şəhəri tutarkən prezident Ceyms Medison paytaxtdan qaçmışdı. Onun arvadı Dolli özü ilə ən qiymətli şey kimi Corc Vaşinqtonun Ağ Evdə divardan asılmış portretini götürmüşdü. Amerikanlar öz ilk prezidentlərinə həm də başqa ehtiram nişanələrini də göstərdilər. Paytaxtda ona hündürlüyü 100 metrdən uca olan sadə bir abidə tikildi. Bir konqressmen bu məsələnin parlamentdə müzakirəsi gedərkən demişdi ki, abidə nə qədər hündür olsa da, Vaşinqtonun

mənəvi hündürlük plankasına çatmayacaqdır. Amerikanın şimali-qərb hissəsindəki ştata da Vaşinqtonun adı verildi.

**Horatsio Nelson** (1758–1805-ci illər)

Ser Horatsio Nelson  böyük donanma komandanı olmaqla, onun tərcümeyi-halını təkcə qəmli faktlar bəzəmirdi, baxmayaraq ki, dəfələrlə yaralanmış, sağ gözünü və sağ qolunu itirmişdi. O, öz istedadı və igidliyi ilə Britaniyanı ağır zərbədən qorumuşdu, öz ölkəsini uzun müddət ərzində planetdəki ən güclü dəniz dövlətinə çevirmişdi. Ona görə də o, tarixdə ən görkəmli admiral hesab olunur. Çünki o, bütöv yüzillikdə Britaniyanın dənizdə ağalığına nail olmuşdu. Bu gün də Britaniya donanmasında qorunub saxlanılan ənənələrin də banisi məhz o, idi. O, qələbə anında həlak olmuşdu və özünə əbədi şöhrət gətirmiş bir qəhrəman idi.  Dəfnində dilə gətirilən bu sözlər əsl həqiqəti əks etdirir.

12 yaşı olanda Nelson gəmidə yunqa-kiçik matros kimi xidmətə girmişdi və burada öz istedadına yiyələnmişdi. 1794-cü ilin iyulunda Korsika adasına desant hücumuna komandanlıq edəndə, sağ gözü mərmi yarası almışdı və onu itirmişdi, lakin xidməti tərk etməmişdi, həm də soralar çox sayda igidliklər göstərmişdi.

Kopenhagen dötüşü vaxtı onun fədakarlığı hesabına qəribə bir hadisə baş vermişdi. Britaniya donanmasının baş komandanı ser Hayd Kiçik-Parker geri çəkilmək əmrini vermişdi. Horatsio Nelson isə binoklun trubasını yaralı sağ gözünün üstünə qoyub, “mən heç bir siqnal görmürəm” demiş və sonra onun komandanlıq etdiyi qüvvələr döyüşü davam etdirmiş və nəticədə Danimarka donanması üzərində qələbə çalınmışdı.

Sonrakı dəniz döyüşündə isə britaniyalılara artıq Nelson özü komandanlıq edirdi və ingilis dilində “turning to blind eye”- “kor gözün üstünə keçirmək” idioması meydana gəlmişdi.

1798-ci ildə Abukirdə,  bu, həm də Nil döyüşü kimi məşhurdur, admiral Nelsonun başçılığı altında Böyük Britanita hərbi-dəniz donanması və Fransız respublikasının donanması arasında həmin körfəzdə döyüş getdi. Bu, Nilin mənsəbinin, həm də Aleksandriyanın yaxınlığında idi. Döyüşün  nəticəsi britaniyalıların qəti qələbəsi oldu. Bundan bir az əvvəl  Napoleon ekspedisiya korpusu ilə Tulondan Aleksandriyaya gəlmişdi. Onun yürüşünün məqsədi Britaniya Hindistanına qarşı aparılacaq kampaniyanın ilk addımı olmalı idi. Ekspedisiyanın son məqsədi isə tam məxfi saxlanırdı.

İyulun əvvəlində donanma ordunu sahilə düşürüb, Abukir körfəzində lövbər salmışdı. Avqustun 1-də Britaniya donanması onlara yaxınlaşdı. Üç saatlıq qızğın döyüşdə fransızların “Orient” flaqman gəmisi məhv edildi və fransız vitse-admiralı Bryue həlak oldu. Brinaiyalılar Aleksandriyanı tutdular. Nelson frontal hücuma keçdi. 1 avqust 1798-ci ildə Abukirdə fransızların 13 gəmisi, 4 freqatı və 4 briqi var idi. Gəmilərin heyəti 3 min matrosdan ibarət idi.

Döyüş gün batanda, saat 19-da başladı.Britaniyalılar risq edərək, Abukir adasını ötüb keçdilər və düşmənə hücum etdilər. Fransız donanması məhv edildi. Fransızlar 1400 adam itiırdilər, 600 nəfər isə yaralanmışdı. Döyüşdə Nelson da yaralanmışdı, onun başına güllə dəymişdi, ölüm qorxusu var idi. Lakin qanaxmanı datandırmaq mümkün oldu.

İngilislər, beləliklə Levant donanmasını məhv rtdilər. Napoleonun Misir avantyurası məğlubiyyətə düçar oldu.

Fransa özünün və müttəfiqlərinin donanmaları ilə La Manş boğazını nəzarətə götürmüşdü ki, Napoleonun Böyük Ordusunun İngiltərəyə müdaxiləsinə şərait yaratsın.  Admiral Vilnyovun komandanlığı altında birləşmiş donanma  18 oktyabr1805-ci ildə İspaniyanın cənubundakı Kadis limanından çıxdı. Nelsonun komandanlığı altında olan Britaniya donanması ilə Atlantik okeanında, İspaniyanın cənubi-qərb sahilindəki Trafalqar körfəzində qarşılaşdı.

Vilnyov bu görüşə hazır deyildi və donanmsını bütövlükdə döyüşə hazırlamamışdı. Nelson isə qətiyyətli hərəkət edib, gəmilərini iki cərgəyə düzdü və düşmənin xəttini dağıtmaq üçün ona hücum etdi.

27 ingilis gəmisi 33 fransız-ispan gəmiləri ilə üz-üzə gəldi. Nelsonun "Victory" flaqman gəmisi praktiki olaraq sıradan çıxmışdı. Lakin tarixi təcrübə britaniyalılara qələbə çalmağa imkan verdi. Fransız-ispan donanması 22 gəmi itirdi, britaniyalılar isə bir gəmi də itirməmişdilər. Döyüş 21 oktyabr 1805-ci ildə britaniyalıların tam qələbəsi ilə başa çatdı

Döyüş vaxtı fransız matrosunun snayper atəşi ilə Nelson ölümcül yaralandı və döyüşün qurtarmasına az qalmış öldü. Admiral Vilnyov isə özünün flaqman gəmisi ilə əsir düşdü. Əsir kimi o, Nelsonun dəfnində iştrak etdi və yarım il sonra özünü intihar etdi.

Qələbə ingilis dəniz artilleriyasının texniki üstünlüyünü sübut etdi. İngilas topları  fransızlarınkından ikiqat sürətlə  mərmi ilə yüklənib, atəş açırdı. Napoleonun döyüşə yararlı donanması məhv edildi. Britaniya isə uzun dövr ərzində dənizlərin tam ağasına çevrildi.

Döyüşdən əvvəl Nelson öz "Victory"  flaqman gəmisində "İngiltərə hər bir adamın öz borcunu yerinə yetirəcəyini gözləyir" sözlərindən ibarət bayraq siqnalını qaldırdı. Bu sözlər ingilis xalqının şüuruna həkk olundu və Londondakı  Nelsonun heykəlini haşiyə kimi bəzəyir.

Ledi Hamiltonla məhəbbə tarixçəsi

Horatsio Nelson görkəmli admiral olmaqla yanaşı, həm də ledi Hamiiltonla yaşadığı eşq  macərasına görə də pərəstişkarlarına yaxşı tanışdır.  Bu sevgi yeddi il davam etsə də,böyük qəhrəmanın həyatına özünə məxsus naxış vurması ilə seçilir.

Sonralar ser Uilyam Hamiltona ərə getdiyinə görə ledi Hamilton kimi tanınan bu qız , doğulanda Emi Lion adlanmış, sonralar  Emma Harta çevrilmiş, ərinə görə isə qeyd olunan titula yiyələnmişdi. O,

model, rəqqasə və aktrisa olmuşdu. 15 yaşından bir sıra varlı adamların , axırda isə lord Nelsonun məşuqəsi olmuşdu.

1791-ci ildə, 26 yaşlı Emma Britaniyanın Neapol krallığındakı səfiri, ser Uilyam Hamiltona ərə getdikdən sonra , Fransa kraliçası Mariya Antuanettanın bacısı, Neapol kralının kraliçası Mariya Karolinanın yaxın rəfiqəsi olmuşdur.

Ser Uilyam 55 yaşında dul qalmışdı, bu vaxt Emma isə məşhur gözəl idi. O, 21 yaşlı Emmaya vurlmuş və onlar Neapola gəlmişdilər. Müvəqqəti məşuqəsi kimi qızı o, evinə gətrdi. Beş il sonra, 1791- ci ildə onlar Parisdə evləndilər.

Emmanın vulqar geyimləri var idi, o, fiqurasını gah Medeyaya (Yevripidin məşhur pyesinin qəhrəmanı, qədim yunan mifologiyasında arqonavtların başçısı Yasona "Qızıl yunu" ələ keçirməkdə kömək edən Kolxiada çarının qızı, vurulduğuna görə Yasonla birlikdə Yunanıstana gedən və onun arvadı olan, lakin ərinin sədaqətsizliyinə görə ondan ağır intiqam alan qız), gah Kleopatraya (söhbət sonuncu Misir çariçası VII Kleopatradan gedir, o, iki Roma sərkərdəsinin məşuqəsi olmuş, Antoni ilə gur eşq macərası yaşamış, onun rəqibi Aleksandriyanı işğal etdikdə, romalılara alçalmamaq üçün özünü intihar edən və tarixdə qızğın məhəbbət simvoluna çevrilmiş qadın) oxşadırdı.

Altı il bundan əvvəl evləmiş və əlavə qüvvə toplamaq üçün 1793-cü ildə Neapola gəlmiş Horatsio Nelsonla Emma görüşdü. Və bu gözəl məxluqa qarşı sərkərdə heç də biganə qalmadı. Lakin görüş qısa oldu, beş gün sonra Nelson Sardiniyaya yollandı. Emma isə ərinin steril olması ucbatından dörd il ərzində doğmamışdı, gözəlliyini qoruyub, saxlamışdı.

Beş il sonra , 1798-ci ilin oktyabrında ledi Hamilton, yenidən Neapola gələn Horatsio Nelsonla görüşdü, o, artıq Abukir döyüşündə qalib gəlmiş, yaşayan əfsanəyə çevrilmişdi. O, bir əlini və dişlərinin çoxunu itirmişdi. Məktubunda Emmaya heyran olduğunu etiraf etmişdi.

Emma səfir əri ilıə onu limanda qarşılayıb, öz evlərinə kimi müşayiət etdilər.

Emma burada,ərinin otağından aşağıda Nelsona qulluq edirdi və 1800 nəfər qonağın iştirak etdiyi ziyafət təşkil etdi. O, tezliklə Nelsonla sevişdi və bu qızğın eşq macərası başlandı. Şayiə bütün Neapola yayıldı və xəbər ingilis qəzetlərinə çatdı.

Neapolda inqilab başlananda kral və kraliça Sardiniyaya qaçdı. Nelson inqilabı yatırtmağa kömək etmək istəyirdi. Hətta inqilab liderlərindən biri edam edilmişdi. Emma özü də inqilaba son qoymaqda mühüm roı oynadı.

U. Hamilton Neapoldakı vəzifəsindən istefa verdi. 1800-cü ilin aprelində Emma artıq Nelsondan hamilə idi, bu vaxt o, əri ilə birlikdə Londona gəldi. Nelsonun arvadı Fanni Emmanın hamiləliyini eşidib, çox pis oldu. Nelson da arvadı ilə qəddarcasına davranırdı.Bu vaxt o, vitse-admiral rütbəsi almışdı. Sevgililər məktub mübadiləsi ilə əlaqə saxlayırdılar.

1801-ci ilin yanvarında Emmanın Nelsondan qızı oldu., bir ay sonra Nelson Londona gəlib,qızını gördü.Üç il sonra Emmanın əri U. Hamilton öldü. 1804-cü ildə onun doğduğu yeni uşaq da altı həftə sonra öldü. Emma qumar oynayır, çox içirdi, səhhəti korlanmışdı.

1804-cü ildə bir neçə varlı adam ona nikah təklifi etdi, lakin qadın Nelsonu sevdiyinə görə onları rədd etdi. Horatsia adlanan qızı beş yaşında onunla Mertonda yaşadı. Avqust ayında Nelson İngiltərəyə gəldi, kraldan xahiş etsin ki, Emmaya maddi yardım göstərilsin və qızı Horatsia gələcəkdə yalnız Horatsia Nelson kimi adlandırılsın.

21 oktyabr 1805-ci ildə Nelson Trafalqar döyüşündə fransız-ispan birləşmiş donanması üzərində parlaq qələbə çaldı. Döyüş vaxtı Nelson ciddi yaralanmışdı və üç saat sonra öldü. Emma xəbəri eşitdikdə, kədər içərisində bir neçə həftəni yataqda keçirdi.. Nelson millətdən xahiş

etmişdi ki, Horatsiaya qayğı göstərsin. Dövlət qəhrəman admiralın matəminə böyük xərc çəkdi.

Üç il ərzində Emmanın 15 min funt məbləğində borcu əmələ gəldi. 1811-1812-ci illərdə o, vaxtının çoxunu rəsmi borc dustaqxanasında keçirdi. Hətta özünü öldürmək istəmişdi. 1815-ci ildə Emma 49 yaşında öldü.

Horatsia 14 yaşında Duvra gəldi. Sora o, ərə getdi, 10 uşağı oldu. İlk oğlunu Horatsio Nelson, bir qızını isə Emma Hamilton adlandırmışdı.

Ledi Hamiltonla əlaqədar Londonda bir gülməli hadisə də baş vermişdi. 1966-cı ildə İngiltərədə keçirilən futbol üzrə dünya çempionatında SSRİ  yığma komandası şərəfinə yüksək səviyyədə qəbul düzəldilmişdi.  Ziyafətdə tost demək məşhur qapıçı Lev Yaşinə həvalə edilmişdi. O, çıxışını “Ladies and Hamilton” sözləri ilə başlayanda, ingilisləri gülmək tutdu. Yaşin ingilis dilini bildiyini göstərmək istəmiş, “gentlemen ” sözü əvəzinə “Hamilton” kəlməsini işlətmişdi. Səfərdən əvvəl o, “Ledi Hamilton” filminə baxmış və şüurunda bu ad qalmışdı. Çıxışın belə başlanğıcı məclisdə çaşqınlıq yaratdı, lakin məşhur futbolçu olmağı Yaşini biabırçılıqdan xilas etdi.

**III Napoleon** (1808–1873-cü illər)

1870-ci ilin yayında Fransa ilə Prussiya arasında mürəkkəb vəziyyət yarandı. Bundan istifadə edib, ətrafı III Napoleonu müharibəyə hazırlayırdılar, onu inandırırdılar ki, ispan taxt-tacı məsələsində Prussiya güzəştə getməli olduğundan, Fransa ona başqa məsələləri də diqtə edə bilər. Onlar III Napoleonu, Fransanın güclü hərbi qüdrətə malik olduğuna əmin etdilər. İmperat müharibədəki qələbə ilə, siyasətindəki bütün səhvləri malalamaq istəyirdi və bu yolla işlər müharibə başlanmasına gətirib çıxardı.

Onun daxili siyasətindən narazılıq da çox idi. Ona qaqrşı sui-qəsd halı da olmuşdu. Arvadı Yevgeniya ilə imperator teatrda tamaşaya baxarkən, orada bomba partladılmışdı, onlara ziyan dəyməsə də, 8 nəfər ölmüş, 150 nəfər yaralanmışdı. Bu hadisə ona qarşı olan nifrətdən xəbər verirdi.

İspan taxt-tacı məsələsində Prussiyanın güzəştə getməsi isə kraliça İzabellanın inqilab nəticəsində İspaniya hökmranlığından devrilməsindən sonra baş vermişdi. Bu vaxt boş qalan kürsüyə Prussiyanın Hohentsollern kralına uzaq qohum olan prints II Leopoldun namizədliyi təklif edildi. Bismark bu cəhətə görə həmin variantı bəyəndi. Lakin Fransa bu təklifin əleyhinə çıxdı. II Leopold İspaniya taxt-tacına yerləşdirildi. Bu vaxt Fransa virtual qaydada Hohentsollern sülaləsi ilə əhatə olunacaqdı. Fransızların prints II Leopoldun taxt-taca yiyələnməsinə zidd çıxması kayzer I Vilhelmə əsas verdi ki, qohumunu, öz namizədliyindən geri çəkilməyə məcbur etsin. Bismark isə kralın hərəkətindən narazı qalmışdı. Diplomatik qələbə çalındığından, fransızlar I Vilhelmə sadəcə təklif etdilər ki, Fransadan formal qaydada üzr istəsin və vəd etsin ki, heç vaxt bir də Leopoldun namizədliyinin baş tutmasına razı olmayacaqdır.

Kansler Bismark kraldan teleqramı alıb, onu fransız tələbi kimi formalaşdırdı və mətbuatda nəşr etdirdi. Burada həmin təklif təhqir kimi üzə çıxdı. O, yaxşı bilirdi ki, fransızlar hiddətlənib, müharibə elan edəcəklər. Fransızlar, həqiqətən, Bismarkın gözlədiyi kimi reaksiya verdilər və Prussiyaya 15 iyul 1870-ci ildə müharibə elan etdilər. Fransız baş naziri bununla əlaqədar qeyd etmişdi ki, “Biz müharibəyə təmiz ürəklə gedirik”.

Bədbəxtlikdən, fransızların “təmiz ürəyi” heç də vuruşmaq üçün kifayət deyildi. Onlar yaxşı döyüşə bilmədiklərini göstərdilər. Prussiyalıların isə əksəriyyəti yaxşı təşkil olunmuşdu. Cənubi alman dövlətləri Prussiya ilə hərbi alyansına da vicdanla əməl edərək, öz müharibə cəhdlərini  Fransa əleyhinə yönəltdilər.

2 sentyabr 1870-ci ildə Sedanda bütün fransız ordusu və III Napoleonun özü əsir götürüldü. İkinci fransız imperiyası birincinin taleyini təkrar edərək, süqut etdi. Lakin müharibə hələ başa çatmamışdı. Dörd aylıq ağır müqavimətdən sonra Paris 28 yanvar 1871-ci ildə işğal edildi və rəsmi sülh müqaviləsi yalnız 3 mayda bağlandı.

Fransa 5 milyard frank məbləğində təzminat ödəməli idi, Elzas və Lotaringiya əyalətləri yeni birləşmiş Almaniya dövlətinə keçməli oldu. Ərazi itkisi fransızları qəzəbləndirdi və onlar intiqam almaq alovu ilə yanırdılar.

Müharibə başa çatdıqdan sonra hətta Cənubi Alman dövlətləri Şimali Alman Konfederasiyasına girməyə razılıq verdilər. 18 yanvar 1871-ci ildə XIV Luinin Versal sarayının Güzgülü salonunda sarayın istifadəyə verilməsindən hələ iki əsr keçməmişdi, I Vilhelm tacın yanında dayanıb, II Alman imperiyasının (birinci Orta əsrlərdəki Müqəddəs Roma imperiyası hesab olunurdu) kayzeri və ya imperatoru elan edildi. Bismark isə bu vaxt yeni birləşmiş dövlətin kansleri oldu.

Almaniya birliyinə Prussiya monarxiyası və Prussiya ordusu tərəfindən nail olundu. Fransızların ağır məğlubiyyətində isə Bismarkın *Realpolitic*-indən irəli gələn provokasiyası mühüm rol oynamışdı. Real düşüncədə Almaniya Prussiyanın tərkibində meydana gəldi, Prussiya heç də Almaniyanın daxilində deyildi. Alman liberalları da sevinirdilər. Onlar birliyi və azadlığı çox arzulayırdılar. Lakin birliyə nail olmaq bu vaxt daha əhəmiyyətli bir məsələ kimi görünürdü.

III Napoleon iddialı adam idi, ambisiyalarında əmisi I Napoleona bənzəmək istəyirdi, lakin ona istedadı və imkanları çatmırdı. Dahi Viktor Hüqo nifrətlə yanaşdığına görə onu “Xırda Napoleon” adlandırmışdı. O, xarici siyasətdə avantürizmə yol verirdi. Ordusunun köməyi ilə Maksimilianı Meksikanın prezidenti etmişdi. Ordu təzyiqə davam gətirməyib, Meksikanı tərk etdikdən sonra müdafiəsiz qalan prezident istefa verməyə məcbur edildi, həbs edilib, 1867-ci ildə güllələndi.

Prussiya ilə müharibənin təşəbbüsçüsü III Napoleon özü idi, guya qələbəsi ilə siyasətində buraxdığı səhvləri ört-basdır edəcəkdi. Müharibə ölkədə dövlət və ictimai quruluşun möhkəm olmadığını aşkara çıxardı, bunu isə onun öz siyasəti yaratmışdı. Ordusu hücum etməyə qadir olmadığından, Prussiya ordusunun və onun müttəfiqlərinin Fransaya müdaxiəsinə mane ola bilmədi. Fransa bir-birinin ardınca məğlub olurdu. Sedan ətrafındakı döyüş III Napoleonun özünü təslim olmağa məcbur etdi. Özünün dediyinə görə, ölümü tapmaq ona müvəffəq olmamışdı.

İmperator əsir götürüldükdən bir gün sonra onun hökumətini yıxan Sentyabr inqilabi baş verdi. Sülh müqaviləsi bağlandıqdan sonra azad olan III Napoleon İngiltərəyə getdi. Özünün devrilməsinə etirazını bildirirdi. Fransızlar isə onu Sedandakı məğlubiyyətə görə “biabırçı təslim olmaqda” ittiham edirdi.

Digər böyük iradə gücünə malik olan şəxsiyyətlərdən fərqli olaraq, III Napoleon hətta alçalmaq yoluna düşüb, düşmənin köməyi ilə imperatorluğa bərpa olunmaq istəyirdi.  Hələ əsir ikən Bismarka memorandum ünvanladı ki, sülh müqaviləsindən sonra Prussiya kralı fransız xalqını məcbur etsin ki, onu imperator adlandırsınlar. Bismark isə imperatoru taxt-taca bərpa etmək niyyətində deyildi, xalq isə Napoleonu düşmənin marionetkası hesab edirdi. III Napoleon siyasi traktatlar və məktublar yazmaqda davam etdi və yenidən hakimiyyətə qayıtmağı arzulayırdı. Nəhayət, onun İngiltərəyə sürgün edilməsinə qərar verildi və 1871-ci ilin martında şimaldakı qonşu ölkəyə gəldi.

Hakimiyyətdən əvvəl o, 6 il ərzində Ham məhbəsində olanda onun səhhəti korlanmışdı. Ayaqları soyuqdan xroniki ağrıya məruz qalırdı. 1872-ci ildə sürgündə onun səhhəti daha da pisləşdi və 9 yanvar 1873-cü ildə vəfat etdi. Öləndə onun axırıncı sözü: “Axı biz Sedanda qorxaqlıq göstərmədik” oldu, göründüyü kimi, öz səhvlərini etiraf etməkdən də bu adam çox uzaq idi.

Lakin Parisin yenidən qurulmasında, abadlaşdırılmasında II İmperiya mühüm rol oynamışdı. Bu böyük işin təşəbbüsçüsü olan III Napoleon, onu Sena prefekti, baron Osmana həvalə etmişdi. Baron Osman Fransa paytaxtının bir prefekturasının (rayonunun) başçısı olmaqla, kiçik vəzifə sahibi idi, lakin atlant Göy qübbəsini çiyinlərində saxladığı kimi, Parisin yenidənqurulması tək olduqca böyük miqyaslı, həm də çox ağır işi öz üzərinə götürmüşdü və onun öhdəsindən şərəflə gəlməyi bacarmışdı. Bu nadir istedad və iradə sahibi bilavasitə titana xas olan cəhdləri və zəhməti ilə Parisi yeni gözəl bulvarlarla, prospektlərlə, göz oxşayan binalarla, arxitektura inciləri ilə zənginləşdirmişdi. Yenidənqurma onun nəhəng fəaliyyətinin uğurlu nəticəsi olsa da, təsadüfi deyil ki, bu nəhayətsiz ölçüdəki tədbiri “osmanlaşma” adlandırırlar, imperator kimi III Napoleonun da xidmətlərini danmaq insafsızlıq olardı.

**V .İ. (Ulyanov) Lenin** (1870–1924-cü illər)

Bolşevik partiyasının lideri və Oktyabr inqilabının rəhbəri, ilk Sovet hökumətinin başçısı V. İ. Lenin utopik sosialistlərin də arzusunu yerinə yetirmək üçün, elmi kommunizm nəzəriyyəsi ilə silahlanaraq, tarixin gedişini dəyişdirmək kimi müstəsna əhəmiyyətə malik olan bir işi bacardı və onu reallaşdıra bildi.

Lenin Simbirskidən Petroqrada gəlmişdi, bundan üç il sonra, 1897-ci ildə burada ali təhsil alıb, hüquqşünas ixtisasına yiyələnmişdi. Onun pərəstiş etdiyi Maksimilian Robespyer də hüquüşünas idi. İdeya axtarışları və inqilabi taleyi onu marksizmə gətirib çıxardı. O, çarizmin qatı düşməninə çevrildi. Qanunsuz təşkilat qrupunun yaradılmasında iştirak etdiyinə görə həbs olunub, Sibirə sürgünə göndərildi . Minusinsk

mahalının Şuşenskoye kəndində yaşayarkən, oraya gələn N. K. Krupskaya ilə evləndi..

Sonra Lenin İsveçrəyə sürgünə yollandı və oradan bolşeviklərə liderlik etdi. Rusiyada marksist Sosial Demokrat Partiyası (RSDRP) 1898-ci ildə yaradılmışdı, 1903-cü ildə keçirilən II qurultayında partiya menşevik və bolşevik fraksiyalarına bölünmüşdü. Menşeviklər Qərb modeli şəklində mübarizə aparmaq tərəfdarı idilər. Bolşeviklər isə radikal inqilabi mübarizəyə üstünlük verirdilər. Həmin qurultayda menşeviklərin lideri Martov istehza şəklində "leninizm" kəlməsini işlətmişdi. İki-üç onillikdən sonra isə leninizm artıq əsl inqilabi təlimə çevrildi.

Leninin başçılığı altında bolşeviklər özlərini zorakı mübarozəyə həsr etdilər və Oktyabr inqilabının qələbəsi ilə öz məqsədlərinə nail oldular.

1900-1917-ci illərdə Lenin vaxtının çoxunu İsveçrədə keçirdi. I Dünya müharibəsinin başlanması bütün Avropada inqilabi şərait meydana gətirdi. 1917-ci ilin fevralında çarın devrilməsi ilə Müvəqqəti hökumət yarandı. Bu, bolşeviklər üçün hakimiyyəti ələ keçirməyə əlverişli şərait yaratdı.

Alman hərbi komandanlığı Rusiyada siyasi vəziyyətin ağırlaşmasina ümid edirdi. Həmin məqsəd naminə Lenin "bağlı vaqonu" olan qatarla Almaniya ərazisindən keçib, Rusiyaya gəldi. 1917-ci il aprelinin əvvəliində artıq Petroqradda idi. 20 apreldə dərc etdirdiyi "Aprel tezisləri" isə Rusiya inqilabının yeni səhifəsini açdı.

Lenin marksizmin nəzəri müddəalarına tam əməl etməmək yolunu da seçdi. O, Aprel tezislərində fəhlə-əsgər Sovetlərini dəstəkləməklə, Müvəqqəti hökuməti devirmək üçün üç sadə şüar irəli sürdü : “Sülh, torpaq, çörək”, “İstehsalata fəhlə nəzarəti” və “Bütün hakimiyyət Sovetlərə”.

Hərbi situasiya da ağır idi, zabitlər komandanlıqdan uzaqlaşdırılırdı, onların yerini aşağı sinfin seçilmiş nümayəndələri tuturdu. Hərbi nazir Kerenski Kornilov qiyamından qorxub, Petroqrad Sovetindən kömək xahiş etdi. Bu, Müvəqqəti hökumətin zəifliyini göstərdi.

Zaman bolşeviklərin xeyrinə işləyirdi. Qısa müddətdə partiya üzvıərinin sayı üç dəfə artdı. Lenin inanırdı ki, ”Biz dünya proletar inqilabının astanasındayıq”. O, öz ətrafını inandırdı ki, inqilab üçün vaxt yetişmişdir.

Artıq 6 noyabrdan 7-nə keçən gecə bolşeviklər Petroqrada nəzarəti ələ keçirdilər. Lenin gecikməni ölümə bərabər hesab etmişdi. İnqilab qan tökmədən qalib gəldi.

Rusiyada az sonra baş verən Vətəndaş müharibəsi ölkəyə böyük ziyan vurdu. Bolşevik rejiminin əleyhdarları iri qüvvəyə çevrilmişdi. 1918-ci ilin yanvarında Lenin Qızıl Ordunun yaradılması barədə dekreti imzaladı.. 1918-1921-ci illərdə Qızıl Ordu çox saydakı cəbhələrdə vuruşmalı oldu və ağlara qalib gəlməyi bacardı. İnqilabi orduda intizamın nisbətən daha möhkəm olması və Rusiya Hərbi Sovetinin sədri L. D. Trotskinin təşkilatçılıq qabiliyyəti də, onun hədsiz sərtliyi ilə yanaşı, qəti qələbənin

qazanılmasında mühüm rol oynadı. 1921-ci ildə kommunistlər Rusiya üzərində nəzarəti ələ keçirdilər. Lakin canlı qüvvə itkisi və dağıntı böyük idi.

Lenin şəraitə uyğun olaraq çevik qərar verməyin ustası idi və bu, ona ən çətin anlarda da uğur gətirirdi. Qatarla Rusiyaya dönərkən. Finlandiya ərazisində onu Rusiya hökumətinin qüvvələri həbs etməyə cəhd etdi. Lakin bu baş tutmadı. O, Petroqrada çatan kimi həbs olunacağını gözləyirdi, lakin 1917-ci ilin aprelin əvvəlində vağzalda özünün təntənə ilə qarşılandığını gördükdə, fikrini dəyişdi və az sonra cəsarətlə "Bütün hakimiyyət Sovetlərə" şüarını irəli sürdü. Bu artıq Müvəqqəti hökuməti də hakimiyyətdən qovmaq məqsədini güdürdü. Çünki paytaxtda fəhlə-əsgər Sovetləri solların nəzarətində idi.

İyun ayında Kornilov qiyamı təhlükəsi baş verdikdən sonra Lenin əvvəlki şüarını dəyişib, xalqı sosialist inqilabına çağırmışdı. Müvəqqəti hökumət onu həbs etmək istəyirdi. Məhkəməyə çağırıldıqda, bolşevik partiyasının VI qurultayı (1917-ci il) buna razılıq vermədi və Lenini Razliv gölü yanındakı komada gizlətdilər. Oktyabr ayının əvvəlində təcili olaraq Petroqrada gəldi və üsyana bilavasitə başçılıq etdi. Petroqrad Sovetinin sədri kimi Trotski isə üsyanın təşkilatçısı idi.

128 il əvvəl baş vermiş Böyük Fransa inqilabından fərqli olaraq, burada qan tökülmədi. "Avrora" gəmisindən açılan zərərsiz top atəşi oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə inqilabın qalib gəldiyini bildirdi. Qış sarayı üsyançılar tərəfindən tutuldu, bu vaxt Lenin Smolnıda idi. 25 oktyabr (7 noyabr) 1917-ci ildə Oktyabr inqilabı qalib gəlməklə, Rusiya tarixində yeni bir səhifə açdı. Qısa müddətdə ömür sürən Paris Kommunası yeni sosialist dövlətinin prototipi hesab edilsə də, inqilab tam fərqli olan dövlət quruluşunu meydana gətirdi. Ölkəni idarə etmək üçün ali icra orqanı kimi Xalq Komissarlar Soveti yarandı və Lenin ona başçılıq etdi. Xeyli əvvəl isə o, özü demişdi ki, bizim nəsil inqilabı görməyəcəkdir, çünki hələ əlverişli şərait yetişməmişdi. Lakin

onun pessimist öncəgörməsi düz çıxmadı, inqilab baş verdi və onun doğduğu, həyata gətirdiyi hökumətə Lenin özü başçılıq etməli oldu.

Həllini gözləyən problemlər arasında qarşıdakı Təsis Yığıncağı xüsusi yer tuturdu.. Bu xalq tərəfindən seçilmiş orqan Rusiyada hakimiyyətin hansı dövlət quruluşunda - monarxiya və ya respublika olmasını müəyyən etməli idi. Lenin Təsis Yığıncağının bolşeviklərin xeyrinə hərəkət edəcəyinə inanmırdı və ona görə də Oktyabr dövlət çevçevrilişini tələsdirmişdi ki, Təsis Yığıncağını qabaqlasın. Leninin ümidsizliyi düz çıxdı, çünki bolşeviklər seçkilərdə eserlərdən iki dəfəyə yaxın az səs qazanmışdı. Ona görə də qanuni yolla şans əldə edilməsi itirildiyindən, yeganə çıxış yolu bu orqanın işləməsinə imkan verməmək idi.

1918-ci ilin yanvarında bolşeviklər hakimiyyətə legitimlik verməli olan, Təsis Yığıncağını, onun loyallığına inanmadığından, qovdu və digər partiyaların hökumətdə iştirakına imkan vermədi. Təsis Yığıncağı yanvarın 6-da Tavriçeski sarayında keçirilirdi, onun mənfi rəyinə bələd olan bolşeviklər Yığıncaq nümayəndələrini qovmaq üçün gülünc bir bəhanəyə əl atdı, sarayın mühafizə xidmətinin rəhbəri matros Jeleznyak "Karaul ustal!" – "Qarovul yorulmuşdur!" deyə qışqırıb, zalda oturanları güc tətbiq edilməklə oradan çıxardı. Bolşevik hakimiyyəti diktaturaya çevrildi, Təsis Yığıncağının qovulması isə Vətəndaş müharibəsini başlanmasının mühüm səbəblərindən biri oldu.

İnqilabdan sonrakı dövrdə vəziyyət başqa səbəblərə görə də heç də yaxşı deyildi, ölkəyə ağır bəla gətirən Vətəndaş müharibəsi başlandı. Keçmiş quruluşu bərpa etməyə çalışan və "ağlar" adlanan silahlı qüvvələrə qarşı bir neçə cəbhədə vuruşmalı olan bolşeviklərin "qırmızılar" adlanan güclü Qızıl Ordusu meydana gəldi. Yeni ordunun təşkilatçısı, İnqilabi Hərbi Sovetin başçısı L.D.Trotski vaqonunda müharibə ərzində uzunluğu ekvatordan artıq olan bir məsafədə döyüş cəbhələrinə baş çəkmişdi. "Ağların" hücumu qarşısında qaçan əsgərləri öz alovlu çıxışı ilə geri döndərib, onları qaliblərə çevirə bilirdi. Lakin o,

həm də sərt cəzalar tətbiq edirdi, ilk dəfə geri qaçanları güllələmək üçün "zaqradotryadlar" yaratdı və ingilislərin Bur müharibəsində tətbiq etdikləri həbs düşərgələrini Rusiyada da təşkil etdi. Ümumiyyətlə. ölkədə "qırmızı" terror baş alıb gedirdi.

1918-ci ilin martında Leninin təkidi ilə almanlarla Brest-Litovsk sülh müqaviləsi bağlandı. Bu biabırçı akta görə, Rusiyanın qərb ərazilərinin böyük hissəsi almanlara verildi. Lenin almanların I Dünya müharibəsində məğlub olacaqlarına və Almaniyada inqilab baş verəcəyinə görə Brest sülhünü müvəqqəti hal kimi qiymətləndirərək, onun imzalanmasına getmişdi. Leninin peyğəmbərliyi düz çıxdı və məğlub olan Almaniya həm inqilabla üzləşdi, həm də ona verilmiş Rusiya ərazilərini tərk etməli oldu.

Lenin inqilab düşmənləri hesab etdiyi adamlara və din xadimlərinə qarşı yakobinçi qəddarlığı göstərirdi. Çox sayda alimlər, yaradıcı ziyalılar Rusiyanı "Filosof gəmisi"ndə tərk edib, Avropa ölkələrində məskunlaşdı.. Onların arasında Nikolay Berdyayev kimi görkəmli filosoflar da var idi.

Sürgünə göndərilənlərin içərisində rus faşizminin ideya liderləri də meydana gəldi. Filosof İvan İlyin (1883-1954- cü illər), onun anası alman idi, özünün "Bizim vəzifələrimiz" əsəri ilə qeyri-azadlığın qaranlıq yolunda "bələdçilik" edirdi, bu yol isə zəruri olaraq əbədiliyə aparırdı. O, həm də narazı idi ki, niyə italyanlar faşizmi rusiyalılardan əvvəl meydana gətirmişlər.

İlyin Rusiyanı və rusiyalıları dünyada bütün xalqlardan istisna hesab edirdi. O, elan etmişdi ki, rusiyalılara məxsus günahsızlığı kənar dünyada müşahidə etmək mümkün deyildir. O, özünü "kor edən" vaxt, millətinin "təmiz və obyektiv" olduğunu görür. O, deyirdi ki, rusiyalılar

başlanğıcdan Yerüstü Cənnətdə (Edemdə) olan heyvan kimi günahsızdırlar.

İlyinə görə. rusiyalıların nə vaxtsa vuruşduğu hansısa bir xüsusi döyüş, yalnız müdafiə döyüşü olmuşdur. Rusiya heç bir səhv etməmişdir, ancaq Rusiyaya qarşı səhv edilmişdir. Filosof bu mülahizəsində tarixə btütünlüklə göz yumur. 1848-ci ildə Macarıstanda inqilab baş verdikdə, Avstriya imperatorunun xahişi ilə çar I Nikolay 140 min nəfərlik rus ordusunu inqilabı yatırtmaq üçün 1849-cu ildə oraya göndərdi. Ordu qan axıtmaqla inqilabı, macarların azadlıq mübarizəsini boğdu. İngiltərə kraliçası Viktoriyanın əri Albert bu münasibətlə yazmışdı:"İmperator Nikolay Avropanın ağasıdır, Avstriya isə onun alətidir".

Məgər dünyadakı ən böyük əraziyə malik olan bir dövlət, həmin torpaqları işğalla əldə etməmişdirmi? Elə doğma Azərbaycanımızın taleyini götürək. İranla müharibələrdəki qələbəsinin nəticəsi kimi 1813-cü ildəki Gülüstan və 1828-ci ildəki Türkmənçay müqavilələri ilə vahid millət iki yerə parçalanaraq, şimalda yaşayan azərbaycanlıların ərazisi, İrəvan xanlığı da daxil olmaqla Rusiya imperiyasının tərkibinə daxil edilmişdi. Belə misalları çox gətirmək olar, qoy onlar İlyinin vicdanı üzərində qalsın.

Ölkədə iqtisadi və sosial vəziyyət də çox ağır idi, yeni hökumətin həyata keçirdiyi tədbirlər böhranı daha da dərinləşdirirdi. "Hərbi kommunizm" siyasəti məhsuldar qüvvələrə böyük zərbə vurdu. Kəndlilərin ərzaq taxılı zorla müsadirə edilirdi. Bu siyasətin acı nəticəsi,

onu dəyişmək lüzumu yaratdı, ərzaq vergisinə və bütünlükdə Yeni İqtisadi Siyasətə (НЭП-ə) keçildi. Bu, iqtisadiyyatın, az da olsa, canlanmasına səbəb oldu, lakin az vaxt keçməmiş onun ləğvi baş verdi. Çünki Lenin özü də Yeni İqtisadi Siyasətin müvəqqəti olduğunu bildirmişdi, onun qüvvəyə minməsi kapitalist münasibətlərinin aşağı səviyyədəki bərpasına yol açmışdı və bu sosializm prinsiplərinə xəyanət sayıla bilərdi.

Leninin səhhəti 1922-ci ilin sonundan pisləşməyə başladı, burada Mixelson zavodunda sui-qəsd nəticəsində aldığı güllə yarası da öz təsirini göstərmişdi.Sonrakı ildə o, insult oldu və danışa bilmədi. Bu məqsədlə Nikolay Buxarin demişdi ki, dünyanın ən güclü ağlının özünü ifadə edə bilməməsi kimi böyük haqsızlıq baş vermişdir.

1923-cü ilin əvvəlində, əslində, Corc Vaşinqtonun "Vida məktubu"na bənzəyən, vəsiyyət tipli sənədi Lenin imzalamışdı. Bu məktubunda o, özünə kimin varis olacağını bildirməmişdi, Siyasi Bürodakı öz silahdaşlarının istedadları ilə yanaşı, nöqsanlarını da göstərmişdi. İ.V.Stalin 1922-ci ildə partiyada yeni yaranan baş katib vəzifəsinə seçilmişdi. Lenin bu vəzifəni texniki bir iş hesab edirdi. Stalin isə əlində böyük səlahiyyətlər cəmləşdirmişdi, partiyadakı kadr siyasəti onun inhisarında idi və öz tərəfdarlarını yerlərdə rəhbər vəzifələrə irəli çəkmişdi. Ona görə də Lenin məktubunda Stalinin öz əlində böyük hakimiyyəti mərkəzləşdirdiyini əsas götürərək, bu vəzifənin başqasına verilməsini məsləhət görmüşdü. Ölümündən sonra keçirilən XIII qurultayda (1924-cü il) Leninin məktubu ilə qurultay iştirakçıları tanış edilmişdi. Lakin qurultay mərhum partiya rəhbərinin təklifinə qulaq asmayaraq, Stalini həmin vəzifədə saxlamışdı. Bununla da Stalin partiya aparatında rəhbərliyini möhkəmləndirmişdi və bu, inqilab xadimlərinin, Leninin silahdaşlarının təqib edilməsinə və tədricən aradan götürülməsinə yol açmışdı.

Leninin son məktubunun yaranması səbəbləri də məlum olmuşdur. Ağır xəstə olan Lenin Moskvadan kənarda, Podmoskovnoye Qorki

adlanan kənddəki sanatoriyada qalırdı. Onun yanına getməyə Stalinin icazəsi lazım idi. Arvadı Nadejda Konstantinovna Leninin yanına tez-tez getmək istədiyindən, Stalin buna etirazını bildirmişdi və onun bu hərəkətini Krupskaya Leninə, Stalinin onu təhqir etdiyi kimi xəbər vermişdi. Stalinin belə hörmətsizliyi Lenini hiddətləndirmişdi və bəzi versiyalara görə belə məktubun katibəyə diqtə edilməsinə gətirib çıxarmışdı.

V.İ.Lenin xəstə yatdığı Podmoskovnoye Qorkidə 21 yanvar 1924-cü ildə vəfat etdi. Onun tabutunu Moskvaya gətirdilər və orada cəsədi tələsik düzəldilmiş müvəqqəti Mavzoleyə qoydular. İ.V.Stalin bu vaxt Leninin xatirəsinə müraciətdən ibarət and xarakterli matəm çıxışı etmişdi. Sonralar Stalin "Leninizmin əsasları" adlı nəzəri əsər də yazmışdı.

Leninin şəxsi həyatı, siyasi fəaliyyəti kimi heç də uğurlu olmamışdı. Cavanlığından ölənə qədər Nadejda Krupskaya ilə nikahda olmasına baxmayaraq, onların övladı olmamışdı. Nadejda Konstantinovna müəyyən xəstəliyinə görə ərindən daha tez qocalırdı və diqqəti cəlb etməyən bir qadına çevrilmişdi. Ona görə də Lenin ailə sədaqətsizliyindən qaça bilməmişdi. O, İsveçrədə olarkən gözəl İnessa Armanda vurulmuş, və inqilabçı qadınla uzun müddət yaxınlıq etmişdi.

İnessa Armand ailəli idi, əxlaq barədə qüsurlara da malik idi. Onun altı uşağı olmuşdu, onların atalarını dəqiq müəyyən etmək də çətin idi., çünki qadın ərinin qardaşı ilə də yaxınlıq edirdi. Ancaq Lenin ona vurulmuşdu, dərin məhəbbət bəsləyirdi. Ona görə də oğlan uşaqlarından birinin bioloji atasının Lenin olduğunu müəyyən etmək çətin deyildi. 1980-ci illərdə "Arqumentı i faktı" qəzeti (Bu mətbu növü 30 milyondan artıq tirajla buraxılırdı) gənc yaşlarında olan bir kişinin portetini

vermişdi, o, Armandın Berlində yaşayan oğlunun şəkli idi. Bu şəkildən, elə bil ki, gənc Lenin adama baxırdı. O, atasına xas olan dəbdə geyinmişdi, iri alnı, batıq gözləri, səliqəli bığı və çənəsinin uzunluğunu örtən saqqalı var idi. Övladın atasına belə çox oxşamasına nadir hallarda rast gəlmək olur, elə bil ki, oğlu deyil, bu, onun klonu idi. Lakin Lenin özünün bastard oğlunun mövcudluğunu etiraf edə bilməzdi, bu, onun nüfüuzuna ağır təsir göstərərdi. Həm də Lenin Aleksandra Kollontayın o vaxtlar azad sevgi barədəki "bir stakan su" nəzəri ideyasını bəyənmirdi, möhkəm dövlət üçün möhkəm ailənin mövcud olmasının tərəfdarı idi. Ona görə də ölənə qədər doğma oğlunu etiraf etməkdən yayınmışdı.

V. İ. Lenin bolşevik partiyasının banisi və lideri kimi partiyaya rəhbərliklə yanaşı, elmi yaradıcılıqla da məşğul olurdu. Mövcud vəziyyətin dəyişilməsi ilə əlaqədar olaraq, marksizmə düzəlişlər etməkdən də çəkinmirdi. Marks inqilabın məhsuldar qüvvələrin gur inkişaf etdiyi ölkədə, istehsal münasibətlərinin onlara buxova çevrildiyinə görə sosialist inqilabının baş verəcəyini bildirmişdi. Rusiya isə Avropanın iqtisadi cəhətdən ən geridə qalmış böyük ölkələrindən biri idi, Marks nəzəriyyəsinə görə, burada inqilabın qələbəsi qeyri-mümkün idi. Lenin isə I Dünya müharibəsinin yaratdığı şəraitdən, Rusiyanın məğlubiyyətlərindən və ağır canlı qüvvə itkisindən istifadə edib, bir ölkədə, həm də geridə qalmış Rusiyada inqilabın qələbəsinin mümkün olduğuna inandığından, marksizmin cızdığı nəzəri əsaslar çərçivəsindən çıxmaq yolunu seçmişdi. Ona görə də Lenin inqilabda alim, elmdə inqilabçı hesab olunur.

Leninin yaratdığı dövlət XX əsrin ikinci onilliyində meydana gəldi, lakin 74 il sonra əsrin son onilliyində tarixin arxivinə getməli oldu. SSRİ-nin dağılmasında xarici qüvvələr çox maraqlı idi. Lakin 1980– ci illərin sonundan etibarən ölkənin daxilində də quruluşa qarşı

etiraz nümayişləri baş verirdi. Millətlərarası münasibətlər də formal "xalqlar dostluğu" ideyasını kənara atıb, düşmənçilik müstəvisinə keçdi. Bu isə. Sovet hakimiyyətinin dağılması, bəzi mülahizələrə görə, nətizədə XX əsrin ən böyük geostrateji fəlakətinin baş verməsinin detonatoru rolunu oynadı.

Lenin və onun silahdaşları monarxiyanın izini bütünlüklə itirmək üçün hər cür qəddar tədbirlərə əl atırdılar. 1918-ci ilin 17 iyuluna keçən gecə imperator II Nikolayın özü, uşaqları ilə birlikdə bütün ailəsi Yekaterinburqda güllələnmişdi. Buna MİK sədri Y.M.Sverdlovun göstəriş verdiyi versiyası irəli sürülür. Leninin razılığı olmadan, o, təkbaşına bunu edə bilməzdi.

Lenin, əsində, kütləvi terrorun təşəbbüskarı və təşkilatçısı idi. O, hakimiyyət naminə istənilən qanun pozuntusuna getməyə hazır idi, dəfələrlə güllələmək, asmaq, girov götürmək kimi qanuna zidd çağırışlarla çıxış etmişdi. 1920-ci ilin yanvarında İrkutskda bolşeviklər məhkəmə hökmü olmadan admiral A.V. Kolçakı güllələmişdilər.

Lenin təkcə mahir strateq deyildi, taktikadan da yaxşı baş çıxarırdı, zamanın nəbzini ustalıqla tuturdu. Petroqradın xarici təhlükə hesabına tutulacağı ehtimalını əsas götürülərək, hökumət 1918-ci ilin martında Petroqraddan Moskvaya köçürülmüşdü və paytaxt da artıq Moskva idi.

Leninin tarixi xidmətləri danılmazdır, ona dünya proletariatının rəhbəri kimi sitayiş edilirdi. Maksim Qorki Leninin yaxından tanıdığına görə yazmışdı: "Onun üçün fəhlə sinfi – dəmirçi üçün filiz demək idi".

Dahi Albert Eynşteyn 1929-cu ildə rus inqilabının başçısı haqqında fikrini bildirərkən demişdi ki, "Sosial ədalət naminə öz şəxsiyyətini qurban verdiyinə görə mən Leninə hörmət edirəm".

Leninin nitqində qüsurlar var idi. O kəkələyirdi, lakin onun natiqliyi öz təsir qüvvəsinə və cazibədarlığına görə kütlələrə təsir göstərə bilirdi. Onun pərəstişkarları yüz milyonlar olduğu kimi, düşmənləri də az deyildi. Onlar Leninə şəxsən deyil, onun ideyalarına qarşı

düşmənçilik edirdilər. Bəlkə də, onun şəxsi düşməni yox idi, inqilab dahisi olması isə şübhəsiz olduğundan, bütöv bir XX əsr ərzində isə heç kəslə müqayisə edilməyən bir ikonaya çevrilmişdi. Hətta Meksika rəssamı Dieqo Rivera milyarder Rokfellərin sifarişi ilə Nyu Yorkda divarda çəkdiyi freskaya Leninin portretini də əlavə etmişdi, bundan narazı qalan sifarişçi onu pozmağı tələb edəndə, Rivera işini yarımçıq qoyub, Nyu Yorku tərk etmişdi.

**Uinston S.Çörçill** (1874–1965-ci illər)

Uinston Çörçill siyasətə qatıldıqdan sonra hərbi-dəniz qüvvələri (Admiralteystvo) komandanı və nazir vəzifələrində olmuşdu. I Dünya müharibəsi onun üçün uğurlu olmamışdı. 1915-ci ildə Qallipoli döyüşü ingilislərin böyük itkisi və məğlubiyyəti, türklərin qələbəsi ilə nəticələnmişdi. Bu döyüşün təşəbbüskarı Çörçill olmuşdu, o, Qallipolidə Osmanlı ordusuna qalib gəldikdən sonra İstanbula hücum və şəhərin işğalı üçün əlverişli şərait yaranacağını vəd etmişdi. Lakin türklərin kəskin müqavimət göstərəcəkləri ehtimalını nəzərə almamışdı, hansı ki, Krım müharibəsində ingilislər “yüngül süvari” hücumunun acı nəticəsini görmüşdülər və bunu yaddan çıxarmamalı idilər.

Bu məğlubiyyətə görə Çörçill hərbi-dəniz komandanlığından istefa verməyə məcbur oldu. Onun 1918-ci ildə Rusiyaya hücum edilməsi barədəki təşəbbüsü də uğurlu olmamışdı və Rusiya ərazisinə müdaxilə edən qüvvələr geri, vətənə dönməyə məcbur olmuşdular.

1915-ci ildəki Qallipoli döyüşü Çörçillin müvəqqəti iflasına səbəb olsa da, gələcək baş nazir Klement Ettli də həmin döyüşdə yaralanmışdı. Axırıncı 1945 –ci il seçkilərində məğlub olan U. Çörçilli həmin vəzifədə əvəz etmişdi. Qallipoli döyüşü türklərə şərəf gətirməklə, İstanbulu tutmaq istəyən britaniyalıların ağılsız ambitsiyalarına son qoymuşdu. Bu döyüş

həm də İngilərənin iki böyük siyasi xadimiinin taleyində özünəməxsus rol oynamışdı.

Lakin Çörçill böyük vətənpərvər olaraq qalırdı, 1933-cü ildə Hitlerin, natsistlərin hakimiyyətə gəlməsi Böyük Britaniya imperiyası üçün böyük təhlükə olduğunu hiss edərək, İcmalar Palatasının üzvü kimi ardıcıl olaraq bu təhlükəyə cavab olaraq ordu quruculuğuna diqqəti artırmağı tələb etsə də, Hitlerlə sülhün mümkün olmasına çox inanan baş nazir Nevill Çemberlen parlament üzvünün xəbərdarlıqlarını qulaqardına vurmuşdu.

1938-ci ilin sentyabrında Çemberlen Çexoslovakiyanın işğalına yol açan biabırçı Münhen sazişinə imza atdıqdan sonra Londona qayıtdıqda, hava limanında əlindəki kağız parçasını göstərib, İngiltərəyə sülh gətirdiyini lovğalıqla bildirmişdi. Çörçill  isə parlamentdəki çıxışında bunu alçalma və müharibəni seçmək kimi qiymətləndirərək demişdi ki, siz əvvəlcə alçalmanı seçdiniz, müharibəni gözləmək də çox çəkməyəcəkdir. Onun peyğəmbərliyi həqiqətə çevrildi, düz bir il sonra Hitlerin Polşaya müdaxiləsi ilə II Dünya müharibəsinə start verildi.

1940-cı ilin mayında Çörçill baş nazir təyin edildi, bundan bir qədər əvvəl o, Admiralteystvoya başçılıq etmişdi. Üç gün sonra keçirilən parlament iclasında o, ölkədə son ingilis qalana qədər quruda, suda, havada Hitler natsizminə qarşı mübarizə aparılacağını bildirməklə, xalqa yağlı vədlər verməyib, dedi ki, mən yalnız ağır zəhmət, tər və qan axıtmağı vəd edirəm.

1940-cı ilin iyununda Fransa məğlub olduqdan sonra, 1922-ci ildə Hitlerin vəd etdiyi SSRİ-yə dəhşətli basqının başlanmasına qədər, bir il müddətində Böyük Britaniya Hitler ordusunun hava və dəniz hücumlarını təkbaşına sinə gərdi və görünməmiş bir dözümlülük göstərdi. Fransa məğlub olduqdan sonra isə onun donanmasının Almaniyanın əlinə keçməməsi üçün, ağla gəlməyən bir hərəkətə əl atdı, atəşlə Fransız gəmilərini batırdı.

Alman aviasiyası İngiltərənin strateji obyektlərini ardıcıl olaraq bombardman edirdi. Aviasiya bombalarından Londonda meydana gələn xarabalıqlara baş çəkən Çörçill xalqa təskinlik verir və adamlara daha çox qələbə əzmi təlqin edirdi. İngiltərə bombardmançı təyyarələri də cavab olaraq Berlini bombalamağa başlamışdı.

İngilislər "Engma" maşını vasitəsilə almanların hərbi kodunu qırdılar və bu onlara bombardmanın harada olacağını əvvəlcədən bilməyə imkan verdi.

Çörçill, almanlar SSRİ-yə xaincəsinə müdaxilə edən kimi, hücuma məruz qalan ölkəni dəstəkləyəcəyini və hər cür kömək göstərəciyini vəd etdi. Vaxtilə o, inqilabı boğmaq üçün ingilis qoşunlarının Rusiyaya göndərilməsinin təşəbbüsçüsü olmuşdu. Lakin Hitlerlə mübarizə naminə, özünün dediyi kimi, cəhənnəmdəki şeytanla da ittifaqa girməyə hazır idi.

1942-ci ilin avqustunda o, Moskvaya səfər etdi. Stalin İkinci Cəbhənin açılmasını təkidlə tələb etsə də, Çörçill buna mənfi cavab verməli olurdu. Çünki almanlar hələ olduqca qüvvətli idilər, britaniyalılar isə öz mövqelərini qorumaqla məşğul idi.

Müharibə Müttəfiqlərin qəti qələbəsi ilə başa çatdıqdan sonra Çörçill SSRİ-yə münasibətlni tamamilə dəyişdi. 1946-cı ilin martında ABŞ-da, Missuri ştatındakı Fulton şəhərində prezident Trumenin də iştirak etdiyi amerikan auditoriyası qarşısında SSRİ-yə qarşı ittiham xarakterli çıxışı ilə əslində Soyuq müharibəyə start verdi. O, bəyan etdi ki, Avropa qitəsi boyu "dəmir pərdə"sallanmışdır. Bu pərdə Almaniyanı və Avropanı iki düşmən düşərgəyə bölmüşdür. Müharibədən sonra Şərqi Avropa ölkələri və Şərqi Almaniya həqiqətən də SSRİ-nin nəzarətinə keçmişdi və az sonra bu

ərazilərdə sosialist sistemi yaranacaqdı. Stalin Çörçillin çıxışını "Sovet İttifaqına qarşı müharibəyə çagırış" kimi qiymətləndirdi.

Dünyanı daha şox viran qoyan münaqişənin başa çatmasından heç yeddi ay keçməmiş, dünyanın yenidən acı bir şəkildə bölünməsi görünürdü. Qərb sivilizasiyasının XX əsr böhranı görünür heç vaxt başa çatmayacaqdı. II Dünya müharibəsindən keçən səkkiz onilik zaman məsafəsi də bu mülahizəni, təəssüf ki, təsdiq edir.

1942-ci ilin oktyabrında ingilis ordusu Afrikanın şimalını və Misiri işğal etmək məqsədi güdən Rommelin qoşunlarını El Alameyndə məğlub edib, onların almanların əlinə keçməsi təhlükəsini bütünlüklə aradan qaldırdı.

1944-cü ilin 6 iyununda ingilislərin və amerikanların birləşmiş qüvvələri, 5 min gəminin və çox sayda təyyarələrin iştirakı ilə Normandiyada sahilə çıxıb, İkinci Cəbhənin açılmasına start verdilər. İngilis kəşfiyyatı alman rəhbərliyini aldadaraq, hücumun La Manşda baş verəcəyinə onu inandırmışdılar. Normandiyaya olan nəhəng desantı almanlar gözləmirdilər, arxayınçılıqdan ordu komandanı Rommel arvadının ad gününü qeyd etməyə getmişdi.

Lakin almanlar hücum edən Müttəfiq qüvvələrinə kəskin müqavimət göstərirdilər, bu, müdaxiləni ləngitsə də, onun irəliləməsinin qarşısını ala bilmirdi. 1944-cü ilin avqustunda fransız generalı Leklerin tankçıları Parisi azad etdilər, onlara yerli müqavimət qüvvələri kömək etmişdi. Avqustun 24-də İngiltərədən vətəninə dönən, fransız Müqavimət Hərəkatının lideri Şarl de Qoll məşhur Yelisey çölündəki şəhərlilərin gur dəstəsi ilə bir yerdə əvvəlcə Konkord meydanına, sonra isə Notr dam de Pari kilsəsinə gəldi.

Çörçill daim de Qolla şərait yaratmış, müqavimət hərəkatının liderliyini əldə saxlamasında ona köməklik göstərmişdi.

1945-ci ilin mayında Hitler ordusu qeyd-şərtsiz təslim olmağa imza atdıqdan sonra , Çörçill Bukingem sarayının balkonunda kral VI Corcla birlikdə bayram edən kütləni salamlamışdı.

Həmin ilin iyulunda Çörçill İ. V. Stalin və Harri Trumenlə birlikdə müttəfiq ölkələrin liderlərinin Potsdamda keçirilən üçüncü konfransında, birincisi 1943-cü ilin noyabr-dekabrında Tehranda, 1945-ci ilin fevralında ikincisi Yaltada keçirilmişdi, iştirak etmişdi. İngiltərədə parlament seçkiləri keçirildiyinə görə o, vətəninə qayıtmağa məcbur olmuşdu. Hitler Almaniyası üzərində böyük qələbənin müəlliflərindən biri olan Çörçillin partiyası seçkiləri leyboristlərə uduzdu və artıq yeni baş nazir Klement Ettli Postdamdakı konfransda onu əvəz etdi.

1947-ci ildə Hindistan müstəqilliyini elan etdi və Böyük Britaniya müstəmləkəsi olan Hindistanın qərb və şərq qurtaracağında yeni Pakistan dövləti yarandı. Bu Britaniya imperiyasının dağılmasının ABŞ-dan az qala iki əsr sonra ikinci nümunəsi idi. Çörçill dağılan imperiyanın hökumətinə başçılıq etməyi özünə rəva görməzdi və Hindistandakı hadisələri də sakit müşahidə edə bilmirdi.

Lakin Çörçilli siyasətdən silmək asan məsələ deyildi. 1930-cu illərdə Bernard Şou ilə birlikdə SSRİ-yə gəlmiş ledi Akton Stalinlə görüşdə, Çörçillin siyasətdən uzaqlaşmalı olduğunu dedikdə, Sovet lideri etiraz etmiş və demişdi ki, Çörçill hərbi ata bənzəyir, ingilislərə təhlükə baş verdikdə yenə o, xalqına lazım olacaqdı. Çörçill II Dünya müharibəsi gedişində Stalinin bu fikrini bütünlüklə təsdiq etdi.

1951-ci ildə yeni seçkilərdə qalib gəlib, baş nazir seçildi, 1955-ci ildə səhhəti ilə əlaqədar vəzifəsindən istefa verdi. 1953-cü ildə ona ədəbiyyat üzrə Nobel mükafatı verildi. O, ingilis xalqının, ingiliscə danışanların tarixinə dair, II Dünya müharibəsi barədəki sanballı əsərin müəllifi idi. Lakin onu insult vurması xidməti vəzifəsini yerinə yetirməyə mane olduğundan istefa verməli oldu və 1965-ci ildə 91 yaşında vəfat etdi. İngilislər və digər xalqlar ona müharibə qəhrəmanı kimi baxırlar. Londonu və Malta adasını onun heykəlləri bəzəyir.

**İ. V. (Cuqaşvili) Stalin** (1879–1953-cü illər)

İ.V.Stalin 30 il ə yaxın müddətdı kommunist partiyasının rəhbəri kimi SSRİ-yə başçılıq etmişdi. Leninin vəfatından sonra hakimiyyət bütünlüklə Stalinin əlinə keçmişdi. Onun fəaliyyətindən narazı olanları sıradan çıxarmaqla, əsasən, diktaturaya yaxın bir quruluş yaratmışdı. 1920-ci illərin sonundan kənd təsərrüfatı istehsalının kollektiv təsərrüfatların – kolxozların ixtiyarına keçməsi sonrakı illərdə aqrar bölməyə böyük zərbə vurmuş, Ukraynada və Volqaboyu regionunda aclığın baş verməsinə səbəb olmuşdu. Ölkə daxilindəki böhran vəziyyətinə baxmayaraq, ağır sənayenin inkişafı üçün valyuta əldə etməkdən ötəri xaricə taxıl ixracı davam etdirilmişdi. Valyuta qazanmaq naminə həm də Ermitajın kolleksiyasından Avropa rəssamlarının qiymətli rəngkarlıq əsərləri xaricə satılmışdı.

Stalin ölkədə ağır sənayenin inkişafına prioritet əhəmiyyətli məsələ kimi baxır, bu məqsədin naminə hər cür risqli eksperimentlərə gedilirdi. 1930-cü illərdə sənaye inkişafı olduqca sürətlə inkişaf edirdi, çoxlu yeni zavodlar tikilir, yeni şəhərlər, qəsəbələr salınırdı. Ümumi daxili məhsul istehsalının artım sürəti olduqca yüksək idi və bu sahədə heç bir inkişaf etmiş dövlət SSRİ ilə müqayisə oluna bilməzdi. Amerika tarixçisinin SSRİ-nin iqtisadi inkişafına həsr olunmuş kitabında göstərilirdi ki, ilk sosialist dövlətinin iqtisadi nailiyyətləri Qərbdə möcüzə kimi görünürdü.

Təəssüf ki, sənayeləşmənin yüksək sürəti, böyük qurbanlara səbəb olan kənd təsərrüfatının kollektivləşdirilməsi ilə müşayiət olundu. Stalin inanırdı ki, sənayenin üstün yüksəlişi,. kənd təsərrüfatının kollektivləşdirilməsi ilə meydana gələn məhsul istehsalının artımı hesabına əldə ediləcəkdir. Kolxozların yaradılmasında ilk addım, qolçomaqların və varlı kəndlilərin ləğv edilməsi oldu. 1930-cu ildən

başlayaraq onlar Sibir düşərgələrinə göndərilirdi. Özəl mülkiyyətin ləğv edilməsi həmçinin kommunist idealına uyğun idi.

Artıq 1934-cü ildə Sovet İttifaqında 25 milyon kəndli ailəsi 250 min sayda olan kolxoz və sovxozlarda işləyirdi.

Bu geniş miqyaslı tədbir nəhəng haqq ödənilməsinə səbəb oldu. Kəndlilərin aclığı kütləvi xarakter alsa da, Stalin öz siyasətini həyata keçirməkdə tərəddüd göstərmirdi. Ukraynada aclıqdan 2,9 milyon adam ölmüşdü. Uinston Çörçill 1942-ci ildə Moskvada səfərdə olarkən, Stalin özü etiraf etmişdi ki, 1932-1933-cü illərdə süni surətdə yaradılan aclıqdan 10 milyon nəfər kəndli ölmüşdü.

Öz siyasi məqsədinə nail olduqdan sonra, Stalin partiyada da bürokratiyanı möhləmləndirdi. Etiraz edənlər Sibirdəki əmək düşərgələrinə göndərilirdi. O, partiyanı köhnə bolşeviklərdən də təmizlədi. Onlar istintaqa cəlb edilir və ölüm cəzasına məhkum edilirdilər.

Stalin həm də ordu zabitlərinin, diplomatların, ziyalıların və saysız-hesabsız adi vətəndaşların təmizlənməsini həyata keçirdi, onları sıradan çıxardı. Təqribən 8 milyon rusiyalı Sibirdəki məcburi əmək düşərgələrində öldü. Təqibləri əsaslandırmaq üçün “ideoloji” və hüquqi müddəalar da irəli sürülürdü. Maksim Qorkinin “Düşmən təslim olmursa, onu məhv edirlər” sözləri “düşmən”sayılanlara qarşı mübarizənin devizinə çevrilmişdi. Böyük məhkəmə proseslərində baş ittihamçı kimi çıxış edən A. Y. Vışinski saxta mühakimələrə haqq qazandırmaq üçün “Etiraf sübutun çariçasıdır” müddəası ilə yeni hüquqi prinsip irəli

sürmüşdü. Bu çariçanın heç iyrənc fahişəliyi də nəzərə alınmırdı, axı etirafların əksəriyyəti işgəncə vermək yolu ilə əldə edilirdi. Bütün bunlara görə Stalini kütləvi qətllərin ən böyük təşkilatçısı adlandırırlar. Bəzi Qərb ziyalıları isə əksinə, Stalinin ölkəyə rəhbərlik fəaliyyətini təqdir edərək, SSRİ-ni "yeni sivilaziya" kimi qiymətləndirirdilər.

Pozitiv dəyişikliklər də az deypldi, əyintilərə baxmayaraq, cəmiyyət dayanmadan irəliyə doğru inkişaf edirdi. Təhsil yeni, yüksək səviyyəyə qaldırıldı, ,bu vaxt mühəndisliyə həvəs olduqca böyük idi. Çox sayda yaşlı adamların savadsızlığını ləğv etmək üçün geniş "likbez" kursları şəbəkəsi yaradılmışdı. Qısa müddətdə nəhəng bir ölkədə savadsızlıq bütünlüklə ləğv edilmişdi. Çox sayda ali məktəblər açılırdı. Elm də sürətlə inkişaf edirdi.

Stalin imperialist dairələrin, ölkəsinə hücum təhlükəsinin daim mövcudluğunu nəzərə alaraq, hərbi-sənaye kompleksinin inkişafı məsələlərini də diqqətdə saxlayırdı. Yeni Ural-Kuzbas sənaye kompleksinin yaradılması, Böyük Vətən müharibəsində metallurgiya kombinatlarının və daş kömür şaxtalarının bol olduğu Ukrayna ərazisinin almanlar tərəfindən işğal edildikdən sonra Şərqə köçürülmüş hərbi zavodlarla birlikdə, ordunu hərbi-texnika, silah-sursatla təmin məkdə böyük rol oynamışdı.

Stalin öz ölkəsinə qarşı Hitler təcavüzünün baş verəcəyi ehtimalını yaxşı bilirdi, çünki fürer bolşevizmi məhv etmək niyyətini heç vaxt gizlətməmişdi. Lakin SSRİ-nin qarşıdakı müharibəyə hazırlaşması üçün nə qədər mümkünsə, çox vaxt udmaq olduqca vacib idi. Ona görə də SSRİ 1939-cu ilin avqustunda Almaniya ilə bir-birinə hücum etməmək barədə pakt imzaladı. General Şarl de Qollun sonralar dediyi kimi, Stalin ölkəsinə qarşı müharibədən böyük ziyan çəkməkdənsə, işğala

şərik olmaq ona daha faydalı idi. Bu, həqiqətən baş verdi. Hitler Almaniyasının Polşaya müdaxiləsinin başlanmasından iki həftə sonra sovet ordusu həmin ölkənin şərq hissəsində olan torpaqlarını, Şərqi Ukrayna və Şərqi Belorusiya adı altında işğal etdi. Pribaltika respublikaları olan Latviyada, Litvada, Estoniyada ört-basdır edilmiş işğal faktları əsasında, həmin ölkələrdə guya sovet quruluşu yarandı və bu üç ölkə yeni respublikalar kimi Sovet İttifaqı tərkibinə daxil oldu.

Hitler ordusunun SSRİ sərhədlərinin yaxınlığında yerləşdirilməsi barədə xəbərlərə, digər sədaqətli sovet kəşfiyyatçılarının müharibənin tezliklə başlanacağı barədə məlumatlarına Stalin əhəmiyyət vermirdi, Hitleri qıcıqlandırmamaq üçün bunları provokasiya hesab edirdi. Sovet-alman paktına müvafiq olaraq SSRİ-dən Almaniyaya strateji məhsulların, xüsusən neftin və taxılın göndərilməsi, müdaxilənin başlandığı 22 iyun 1941-ci ilə kimi davam edirdi. Həmin gün səhər saat 4-də alman ordusu bütün sərhəd boyu SSRİ ərazisinə hücum etdi. İlk aylar sovet qoşunları üçün uğursuz oldu, iki milyona qədər sovet əsgəri əsir götürüldü. Bütöv Ukrayna itirildi, Leninqrad mühasirəyə alındı, alman ordusu Moskvanın 27 kilometrliyinə gəlib çıxdı.

Hökumət Kuybışev şəhərinə köçsə də, Stalin Kremli tərk etmədi. Alman təbliğatının SSRİ-nin məğlub edilməsi barədəki saxta hay-küyünə cavab olaraq, Stalin cəbhəyə yollanacaq ordunun 1941-ci ilin7 noyabrında Qızıl Meydanda hərbi paradını keçirdi və döyüşçülər qarşısında çıxış edib, onlara böyük rus sərkərdələrinin ənənəsini davam etdirmək lüzumunu xatırlatdı. Dekabrın əvvəlində əks-hücumla alman ordusu 200 km geriyə oturduldu. 1943-cü ilin fevralında isə Stalinqrad döyüşündə möhtəşəm qələbə çalındı. 300 min alman əsgəri və zabiti feldmarşal Paulyus başda olmaqla əsir götürüldü. Stalinqrad qələbəsi Böyük Vətən müharibəsində dönüş nöqtəsi oldu. Həmin ilin iyununda Kursk vilayətindəki Provorovka kəndində gedəni nə həng tank döyüşündə Qızıl Ordu yeni qələbə çaldı. Hitler artıq bu məğlubiyyəti sərt rus qışının adına yaza bilməzdi.

1937–1938-ci illərin repressiyası çox sayda hərbi xadimlərini də sıradan çıxmasına səbəb oldu. Bu itkilərə baxmayaraq, Stalinin müdrikliyi onda idi ki, müharibənin taleyini Vətəndaş müharibəsi qəhrəmanları olan sərkərdələrə deyil, yeni müharibə taktikasından baş çıxaran Georgi Jukov, Konstantin Rokossovski, Aleksandr Vasilyevski kimi gələcək marşallara etibar etdi. K. Y. Voroşilov, S. M. Budyonnı isə motorlar müharibəsinin tələblərini anlamırdılar, ona Vətəndaş müharibəsinin köhnəlmiş təcrübəsi prizmasından baxırdılar. Yeni sərkərdələrin hərbi istedadı hesabına Moskvanı müdafiə etmək, Stalinqradda və Kurskda qalib gəlmək, sonrakı qələbələrə də zəmin yaratmaq mümkün oldu.

Ordunun baş qərargahı çox intensiv işləyirdi, onun fəaliyyətinə Ali Baş Komandan kimi Stalin özü nəzarət və yaxından rəhbərlik edird.  O, cəbhədə vuruşan generallarla da telefonla danışır, vəziyyəti olduöu kimi öyrənməyə çalışırdı.. 1944-cü ildə hücum edən sovet ordusu təkcə alman qoşunlarını öz torpaqlarından qovmurdu, həm də on minlərlə əsir götürürdü. Lakin nə düşmən, nədə müttəfiqlər belə çox əsir götürülməsinə inanmırdılar.Onda Stlin əeirlərin Moskva küçələrindən keçirilməsini təklif etdi, axı almanlar Qızıl Meydanda qələbə paradı keçirməyi çox arzulamışdılar. İndi onlara əks-qələbə paradı keçirmək nəsib olacaqdı.  Moskva küçələrindən 60 min alman əsgəri və zabiti keçirildi. Bu tədbir amerikan filminin adından götürülmüş “Böyük vals” adlanırdı. Ancaq sifətlərindən əsirlərə məxsus çarəsizlik yağan almanlar Ştrausun valsında deyil, Hitlerin dəhşətli “cəhənnəm musiqisinin” sədaları altında,  ölümün ağuşunda fırlanmalı olmuşdula.

Stalin hansısa bayram xatirinə raport vermək üçün döyüş əməliyyatını tələsdirməyə də yol vermirdi. Berlini marşal G.K.Jukov beynəlxalq bayram günü olan 1 maya qədər tutmaq istəyirdi, bu tələsiklik çox sayda sovet əsgərinin ölümünə səbəb ola bilərdi. Stalin əməliyyatın, artıq qurbanlara səbəb olacaq sürətlənməsinə imkan vermədi və çox inandığı sərkərdənin ölçüyə sığmayan həvəsini söndürə bildi.

Lakin müharibə vaxtı bütöv xalqlara qarşı böyük ədlətsizlik, əsl qəddarlıq halları da baş vermişdi. 1944-cü ildə Şimali Qafqazın, Ktımın, Kalmıkiyanın bütöv xalqları—çeçenlər, inquşlar, balkarlar, qaraçaylılar, Krım tatarları, kalmıklar və Gürcüstandan Axısxa türkləri Qazaxıstana, Özbəkistana və Sibirə sürgün edilmişdilər. Onların hamısı, təkcə buddist kalmıklardan başqa, islama sitayiş edənlər idi. Onlar qaramal vaqonlarına yükləndirilirdilər, ağır səfərə davam gətirməyənlərdən xeyli adam ölmüşdü. Yeni yaşayış yerlərində onlar rezevasiyalarda, ciddi məhdudiyyətlərin olduğu yerlərdə saxlanırdılar. On illərdən sonra yerli əhali ilə onların, qan tökülməsi ilə müsayiət olunan münaqişələri baş verirdi.

Stalin müharibə illərində Ali Baş Komandanl olmaqdan da yuxarıda dururdu. Döyüş əməliyatlarının hazırlanmasına və həyata keçirilməsinə bilavasitə rəhbərlik edirdi. Məsələn, Stalinqrad əks-hücumunun bütöv planı yalnız ona məlum idi və bu plan icra edilənə qədər tam gizli saxlanmışdı. Lakin ilk il yarım ərzində sovet qoşunları məğlub olur, geri çəkilir və böyük itkilər verirdi. Başlanğıcdakı məğlubiyyətlər seriyası, sonralar, müharibə başa çatana qədər daha parlaq qələbələr seriyası ilə əvəz edildi.

Stalini tarixin ən böyük sərkərdələri ilə müqayisə etmək olar. Böyük Aleksandr öz ordusundan böyük olan qüvvələr üzərində qələbə çalnaq, şəxsi igidlik göstərmək qabiliyyəti ilə şöhrət tapmışdı. Hannibal və Yuli Sezar taktiki ustalıq, gözlənilməyən tədbirlər seçmək yolu ilə parlaq qələbələr qazanmırdılar. Napoleon düşmənin daha iri qüvvələri üzərindəki qələbələri ilə böyük sərkərdələr qalereyasına daxil olmuşdu. Lakin o. ağır məğlubiyyətlərlə üzəşdikdə, onun əvvəlki sərkərdə

qabiliyyəti yoxa çıxmış, fransız hərbi-dəniz donanması isə daim ingilislərə məğlub olmuşdu. Özü isə ölümlə nəticələn uzaq sürgünə yollanmaq kimi ağır cəzaya məhkum olmuşdu.

Stalin də ağır məğlubiyyətlərlə və böyük itkilər verməklə üzləşmişdi,, düşmən, ölkənin paytaxtını az qala tuturdu. Lakin o, çaşqınlığa yol verməmiş, qələbə əzmi onu bir an da olsa, tərk etməmişdi. O, həm də böyük sələflərindən hərtərəfli, daha böyük miqyaslı fəaliyyəti ilə də fərqlənmişdir. O, viran qoyulmuş ölkəsinin iqtisadiyyatını uğurla idarə edir, hər cür əzablarla müşayiət olunan sosial siyasəti davam etdirməklə, əhalinin nəzarətdən çıxmasına yol vermirdi. Partiya rəhbərliyini əlində saxlamaqla, bu canlı orqanizmi döyüşkən qvardiyaya çevirməyi bacarmış, müharbənin qalibiyyətli ideoloji təminatına da başçılıq etmişdi. Təkcə sənaye müəssisələrinin Şərqə köçürülməsi ölkənin dəmir yol nəqliyatından titanik səylər tələb edirdi. Bu zavodlarda çalışanlar gəlib çatdıqları məkanda hələ hazır bina olmadığından, açıq havada, yağan qarın altında, Sibirin sərt şaxtasında işləməklə, hərbi məhsul istehsal edirdilər. Arxa cəbhədəki fədəkarlıq döyüşçülərin düşmənlə ağır mübarizəsindən heç də geridə qalmırdı. Sovet qadınları döyüşən ərlərini, qardaşlarını, atalarını əvəz edərək, kənddə istehsalın bütün ağırlığını öz üzərlərinə götürərək, əslində arxada “ikinci cəbhə” açmışdılar. Ölkə, elə bil ki, vahid cəbhəyə çevrilmişdi. Belə çətin həyatın idarə edilməsi də heç də asan məsələ deyildi. Bu vəzifələrin öhdəsindən gəlməyi bacaran Stalin

tarixin ən görkəmli sərkərdələrinin və siyasi xadimlərinin o qədər də böyük olmayan siyahısını öz böyük şəxsiyyəti ilə bəzəyir.

Stalin XX əsrin əvvəllərində Bakıda inqilabi fəaliyyətlə məşğul olmuş, həbs edilmiş, köhnə Bayıl dustaqxanasında saxlanmışdı. O, Bakıda yaşayarkən, Yekaterina Svanidze adlı gürcü qızı ilə evlənmiş, onların bir oğlan uşağı olmuşdu, onu Yakov adlandırmışdılar. Yakov Böyük Vətən müharibəsi başlanan kimi cəbhəyə yollanmış, iki ay sonra, avqustda əsir düşmüşdü. Başqa çıxış yolu olmadığından, 1943-cü ildə o, özünü həbs düşərgəsindəki cərəyan buraxılmış məftilin üstünə atmaq istəyəndə, mühafizəçinin açdığı atəşlə ölmüşdü. Marşal Jukovun yazdığına görə, Yakovu sovet əsiri, feldmarşal Paulyusa dəyişmək barədə almanların təklifinə etirazını bildirərək, Stalin "əsgəri generala dəyişmirlər" cavabını vermişdi.

1919-cu ildə Stalin Tsaritsinə (gələcək Stalinqrada) ezamiyyətə göndərilərkən, katibə kimi Nadejda Alilluyevanı da özü ilə götürmüşdü., iki il əvvəl atası Sergey Alilluyev də inqilabçı olduğuna görə, o, onların evində yaşamışdı. Tsaritsində gənc qızla, bu vaxt onun 17 yaşı var idi, yaxınlıq edən Stalin, sonralar ona evlənmişdi. Onların iki uşağı olmuşdu, onlar Vasili və Svetlana adını daşıyırdılar. 1932-ci ildə, Svetlananın 6 yaşı olanda, Kremldəki bayram ziyafətində, ərinin təhqiramiz hərəkətinə dözməyən Nadejda Sergeyevna məclisi tərk etmiş, Kremldəki mənzillərinə qayıtmış, orada, ona bağışlanmış xarici markalı tapança ilə özünü öldürmüşdü.

Vasili hərbi təyyarəçi idi, cəbhədə vuruşmağa can atsa da, Stalin onu müharibədə iştirak etməyə buraxmamışdı. Çünki qorxurdu ki, ikinci oğlunun da əsir düşməsi, onu dünyada biabır edəcəkdir.

Vasili Stalin generai rütbəsinə, Moskva hərbi-hava qüvvələrinin komandanlığına yüksəlmişdi, 1950-ci ildə SSRİ Ali Sovetinin deputatı seçilmişdi. Lakin o, sərxoşluğa meylli idi, bahalı "Metropol" restoranında atəş nəticəsində adam öldüyünə görə, atasının ölümündən sonra, hadisədə iştirak etmək ittihamına görə azadlıqdan məhrum edilmək cəzasına məhkum edilmiş, dustaqlıqdan buraxıldıqdan sonra, Moskvada yaşamasına icazə verilmədiyindən, Kazanda yaşamış və 1962-ci ildə orada da, 40 yaşında ölmüşdü.

Svetlana Alilluyeva gənc yaşında yəhudi mənşəli yaşlı bir şairə vurulmuş, sevgilisi bir məhəbbət şeirində onun Kremldə yaşadığına ehyam vuraraq, şiş uclu divarın arxasında həsrət çəkdiyini bildiyini etiraf etdiyinə görə, həbs olunmuşdu. Atası Svetlananı, öz silahdaşı A.A. Jdanovun yüksək vəzifədə işləyən oğluna ərə vermişdi. Az sonra gənc ailə dağılmışdı. Sonra Svetlana Moskvada elmi işlə məşğul olan bir hindliyə ərə getmiş, əri öldükdə onu vətəninə aparmaq üçün Svetlanaya xaricə getməyə icazə verilmişdi. O, Hindistandan Amerikaya mühacirət etmiş, orada atası barədə yaxçı təsir bağışlamayan təəssüratlarını çap etdirmişdi.

Stalini digər inqilabçılardan fərqləndirən bir cəhət də var idi, bu da bankları qarət etməklə, partiyanı pulla təmin etmək idi. O, Tiflis bankına hücum təçkil edib, oradan böyük məbləğdə pul götürmüşdü. Bu vaxt o, özü yarıac həyat sürürdü, buna baxmayaraq, pulların hamısını İsveçrəyə, Leninə göndəmişdi ki, partiyanın zəruri xərcləri üçün istifadə edilsin.

Onun gəncliyindəki təmənnasızlığı, ölümcül risqə gedərək, qarət etdiyi pulda özünün şəxsi faydasının olmaması, sonralar ölkə rəhbəri olarkən əlinin təmizliyində, maaşından artıq heç nəyə göz dikməməsində də özünü göstərdi. Onu da qeyd etmək lazımdır ki, onun tələbatının bir hissəsi dövlət hasabına ödənilirdi.

Stalinin şəxsi keyfiyyətlərini təhlil etdikdə, onun öz geyiminə və yaşayışına olduqca dəbdəbəsiz yanaşması, sadə həyat tərzindən uzaqlaşmaması diqqəti cəlb edir. O, nəhəng ölkənin rəhbəri kimi böyük imkanlara malik idi, lakin daim bu imkanların öz xeyrinə olanlarını məhdudlaşdırmağa çalışırdı. O, əylənmək, öz əhvali-ruhiyyəsini yüksəltmək üçün hansısa vasitələrdən istifadə etməyə fikir vermirdi, aludə olmurdu. O, adi şeylərdən sevinməyi, həzz almağı bacarırdı. Onun Kuntsevodakı bağında olan yataq otağının divarlarını məşhur tablolar deyil, onların "Oqonyok" jurnalından kəsilmiş reproduksiyaları bəzəyirdi. Napoleonun isə saraydakı yataq otağının divarında Leonardo da Vinçinin "Cokonda"sı ("Monna Liza"sı) asılmışdı. Sonralar bu rəngkarlıq incisi Luvr muzeyinə bağışlanmışdı. Stalin Böyük Teatrın balet tamaşalarına baxmağı sevirdi, bu vaxt onu teatrdakı digər kütləvi tamaşaçılardan yalnız hökumət lojasında əyləşməsi fərqləndirirdi.

Marşal Jukov Almaniyadan qarət edilmiş külli miqdarda qiymətli ev əşyalarını vaqonla Moskvaya gətirdikdə , bunun üstü açılmışdı Əşyaların içində royal, 46 ədəd İran xalçası, qiymətli mebel olmuşdu. Stalinin bunlar hiddətli təəcübünə səbəb olduğuna görə, Jukovdan birbaşa soruşmuşdu ki, bu cər-cındır onun nəyinə lazım idi.

O, olduqca sadə paltar geyinməyə üstünlük verirdi, əsgər şinelində olmağı da onu razı salırdı. Siyasi Büro üzvləri ilə öz hökumət bağında şam yeməyi yeyərkən ona heç kəs xidmət etmirdi, düzülmüş qazanlardan öz istədiyi xörəyi boşqabına çəkib, süfrənin üstünə qoyurdu.

O, var- dövlətə tamamilə laqeyd idi. Öləndə də, onu tabutda uzandırmaq üçün təzə paltar tapmamışdılar. Çörçill 1942-ci ilin avqustunda Moskvada səfərdə olarkən, müharibə aparan ölkədə səhər yeməyi, nahar və şam yeməyi vaxtı bol-bol xörəklərin olduğundan təəccüblənmişdi və təəssüratını “İkinci Dünya müharibəsi” kitabında təsvir etmişdi. Həm də o, Stalinin Kremldəki sadə mənzilində olarkən, şəraitin kasıblığına məəttəl qalmışdı. Stalinə burada qoca bir rus qadını qulluq edirdi.

Stalinə qarşı çoxlu ittihamlar irəli sürülsə də, bunların həqiqət və saxta olmalarından asılı olmayaraq, onun dövlətə rəhbərlik dövründə olduqca sadə yaşayış sürməsini, hər cür dəbdəbədən olduqca uzaq olan həyat tərzini heç kəs inkar etməyə cəsarət etməmişdi.

Stalinin vəfatından üç il sonra, 1956-cı ildə keçirilən XX qurultayda partiyanın yeni rəhbəri N.S.Xruşşov Stalinin şəxsiyyətinə pərəstiş barədə xüsusi məruzə ilə çıxış etdi və məruzənin mətni tezliklə Qərb mətbuatına məlum oldu. Əlbəttə, ölkəyə rəhbərlikdə, xüsusən repressiyalar vaxtı Stalinin səhvləri olmuşdu. Lakin bütün günahları onun üstünə yaxmaq da düzgün deyildi, axı heç kəs vaxtında ona heç bir etiraz bildirməmişdi.

Xruşşovun mərhum Stalinlə amansız və əslində nəticəsi olmayan bir mübarizə aparmasını U. Çörçill ölümünə yaxın bir vaxtda daha uğurlu ifadə etmişdi : “Xruşşov tarixdə ilk dəfə olaraq ölüyə qarşı müharibəyə başlamış, ağlının ucbatından həm də bu müharibəni uduzmuşdu.”

Stalinin Leninlə münasibətlərinə gəldikdə, Lenin daim ona yaxşı münasibət bəsləmişdi, onu milli münasibətlərdən yaxşı baş çıxaran hesab edirdi. Ona görə də 1913-cü ildə Stalinin çox millətliliyi ilə fərqlənən Avstriya-Macarıstan imperiyasının paytaxtı Vyanaya gedib, orada milli münasibətlər təcrübəsini öyrənməyi məsləhət görmüşdü. Lenin onu xalq komissarı kimi hökumətin tərkibinə daxil etmişdi, hətta ona eyni vaxtda üç vəzifə də tapşırmışdı. Buna görə onu partiyanın X

qurultayında (1921-ci il) tənqid edən Həmkarlar ittifaqı lideri A.Q. Şlyapnikova cavab verərək, demişdi ki, çox vəzifənin həvalə olunması yalnız onun bacarığı ilə əlaqədardır.

Stalin özünü Lenin işinin davamçısı hesab edirdi, onun idarə etmə ənənəsinə sədaqətsizlik edə bilməzdi. Qədim Romanın nəcib imperatoru olan, böyük filosof Mark Avreli, öz gözəl arvadı Faustinanı, əxlaqsızlığına görə boşamaq barədəki ətrafının israrlı təkliflərinə cavab verirdi ki, onda, cehizi də qaytarmaq lazım gələcəkdir. Cehiz isə imperator kürsüsü idi, onu, Faustinanın atası, imperator Antonin Piy ona vermişdi. Belə qiymətli cehizdən imtina etmək mümkün deyildi. Stalin də irs kimi Lenindən aldığını, özünün göz bəbəyi tək qoruyacağına and şəklində söz vermişdi, bu irsə əməl edilməli idi və onu kiməsə etibar etmək olmazdi. Ona görə də daxili və xarici siyasətdə Lenin xəttindən, qurbanlar hesabına da olsa, kənara çıxmaq mümkün deyildi.

Terror miqyasına və dəhşətlərinə görə Stalin Robespyer Terrorunu da geridə qoymuşdu. Ölkədə əsasən hamı bu sahədə aparılan siyasəti və onun nəticəsi kimi terroru dəstəkləyirdi, hətta yerli rəhbər işçilər arasında bu məsələ üzrə elan olunmamış yarış gedirdi. Respublika rəhbərlərindən bəziləri güllələnmə kvotasını artırmaq barədə Stalinə acizanə xahiş edirdi. Xruşşovun bu məzmundakı teleqramının üstünə Stalin: “Uymis, durak! ” -“Sakitləş, axmaq!”” dərkənarını qoymuşdu.

Qəssabxanada faydalı iş əmsalı, digər müəssisələrdə olduğu kimi mühüm əhəmiyyət kəsb edir. Xruşşov kimi qəssablar isə burada da Staxanovçuya çevrilib, zərbəçi olmaq istəyirdilər. Ona görə də onlar güllələnməli olanların siyahısının daha da böyüdülməsini istəyirdilər. Yuxarıdan guya dəqiq müəyyən edilmiş norma həddini ötüb keçmək isə, bu “böyük işin” ləyqətinə xətər toxundura bilərdi. Bu sahədəki özfəaliyyət vahid rəhbərə olan inamı sarsıdardı, ona görə də onun hiddətinə səbəb olurdu.

Xruşşov Stalinə daim sədaqətli olmuşdu, Kuntsevoda onu şənləndirmək üçün “qopaq” rəqsini oynamağa da hər dəfə hazır idi.

Vaxtilə Xruşşov Sənaye akademiyasında Stalinin arvadı ilə bir yerdə oxumuşdu və Moskva şəhər partiya təşkilatında rəhbər vəzifələrə irəli çəkilmişdi. 1952-ci ildə keçirilən partiyanın XIX qurultayında partiyanın Nizamnaməsinə dəyişikliklər barədə məruzə ilə çıxış etmək də ona etibar edilmişdi.

1961-ci ildə isə yenə Xruşşovun təklifi ilə Stalinin adı hər yerdən götürüldü, hətta orada gedən  məşhur döyüş və kütləvi fədəkarlıq, ağılasığmayan qalibiyyət nümunəsi hesabına tarixə düşmüş Stalinqrad şəhərinin adı da dəyişdirilib, Volqoqrad oldu. Stalinqrad cəbhəsini yeni ada uyğun olaraq dəyişilmiş qaydada xatırlamaq,  birbaşa tarixə ünvanlanan istehza olardı. Parisdə Stalinqrad adını daşıyan meydan qaldığı halda, SSRİ- də bu tarixi şəxsiyyətin adı bütünlüklə anafemaya uğradı. Stalinin cəsədi Mavzoleydən çıxarılıb, Qızıl Meydanda dəfn edildi.

Stalinqradın adının dəyişdirilməsi Stalinin barədəki xatirələrin bütünlüklə yaddaşlardan silinməsinə xidmət edirdi və bu, əslində cinayətdən betər bir səhv idi. Axı Stalinqrad, yaşadığı faciə və qəhrəmanlıqlarla müqəddəs məkan adını qazanmışdı. Hitler Almaniyasına nifrət edən dünya, misisiz mübarizə rəmzi kimi onunla fəxr edirdi. Xarabazra çevrilən şəhər apokalipsis mənsərəsini yada salırdı. Almanlar şəhəri tutduqlarına əmin idilər, lakin sovet əsgərləri və zabitləri misilsiz fədəkarlıq göstərib, şəhəri düşməndən azad etdi və feldmarşal Paulyus başda olmaqla xeyli əsir götürdü. Sovet ordusunun əkshücumu almanların böyük məğlubiyyəti ilə nəticələndi. Hitler öz ölkəsində üç günlük matəm elan etdi. Stalinqradın müdafiəsi II Dünya müharibəsinin zəfər simvoluna çevrildi. Çünki Stalinqrad döyüşü reallıqdan çox mifə bənzəyirdi.

Stalinin SSRİ-nin iqtisadi və hərbi inkişafında xidmətləri böyükdür və onların üstündən xətt çəkmək mümkün deyildir. Ölkəsinin hücumlardan müdafiəsi üçün qalxana malik olması naminə 1949-cu ildə SSRİ-də ilk dəfə atom bombası sınaqdan keçirildi və nüvə silahları

müqayisəsində gələcəkdə paritetin yaranmasının bünövrəsi qoyuldu. Raket sənayesinə diqqət hesabına 1957-ci ildə dünyada ilk dəfə sovet süni peykinin kosmosa uçuşu təmin edildi. 1961-ci ildə isə ilk sovet kosmonavtı kosmosa uçdu. Bu nailiyyətlər binasının bünövrəsini məhz Stalin qoymuşdu.

Stalin 5 mart 1953-cü ildə vəfat etdi və ona sui-qəsd təşkil edilməsi barədə müxtəlif versiyalar mövcuddur. Onun şəxsiyyətinə pərəstiş barədə isə görkəmli rus yazıçısı, Nobel mükafatı laureatı Mixail Şoloxov yaxşı demişdi: “Şəxsiyyətə pərəstiş var idi, lakin şəxsiyyət də var idi”. Stalinin çox sayda heykəlləri uçurulsa da, o, yaşayır, çünki onun özü, gözəl bir monument, tarixin sıradan çıxara bilmədiyi abidə idi.

**Mao Tsze-dun**. (1893–1976-cı illər)

40 il ərzində Çin kommunist partiyasının rəhbərlik etmiş, Çin Xalq Respublikasının ilk sədri olmuş Mao Tsze-dun ən görkəmli tarixi şəxsiyyətlərdən biridir. O, gəncliyindən öz müstəqilliyini qorumuş, ümumi qaydalara əməl etməkdə  də fərqli xüsusiyyətlər göstərmişdi. Bir dəfə atası onun hansısa bir səhvinə görə cəzalandırmaq istədikdə, ümumi adətə görə, atası qarşısında diz çökmək istəməmiş, atasının haqsız olduğunu nəzərə alıb, yalnız bir qılçasını əymişdi.

Mao ideyalı kommunist, görkəmli inqilabçı olmaqla yanaşı, erkən yaşlarından marksizm banilərinin və Qərb filosoflarının tərcümə olunmuş əsərlərini dərindən öyrənməyə səy göstərmişdir. Gənc Mao o dövrdə məşhur olan kitabların hamısını oxumuşdu. O, geniş biliyə malik olmaqla yanaşı, fəlsəfi məzmunlu şeirlər yazırdı və sonralar həm də istedadlı şair kimi tanınmışdı.

Çin Qızıl Ordusu yaradıldıqdan sonra Mao strategiya və taktikadan baş çıxaran məharətli hərbi xadimə çevrilmişdi. Xalq ordusunun

yaradılmasında, formalaşdırılmasında və güclənməsində onun müstəsna xidmətləri olmuşdu.

Çin Qızıl Ordusu o vaxtki hökumət qüvvələri tərəfindən məhv edilmək təhlükəsi ilə üzləşdikdə, Mao dövrə görə düzgün qərar qəbul etməklə, ordunu xilas etməyə müvəffəq olmuşdu. 1934-cı ildə Çin hökumətinin başçısı, Qolindan partiyasının  Sun Yat Sendən sonra lideri olmuş Çan Kay-şi ölkənin cənubunda düşərgə salmış Xalq Ordusuna, özünün 1 milyonluq qoşunu ilə hücum edib, düşmən saydığı bu ordunu məhv etmək istəmişdi. Maonun ətrafı geri çəkilmək deyil, döyüşmək vacib olduğunu təkid etsə də, o, vəziyyəti düzgün qiymətləndirib, müqayisədə kiçik qüvvə ilə hökumətin nəhəng ordusuna müqavimət göstərməyin ağılsız  bir iş olduğunu anlayaraq, Qızıl Ordunun şimala getməsi və orada yeni düşərgə salması təklifi ilə çıxış edib, öz silahdaşlarını bu qərara inandırmağı bacarmışdı. Həqiqətən də, döyüş nəticəsində, böyük əziyyətlərlə yaradılmış Xalq Ordusu əsl faciə ilə üzləşib, öz mövcudluğuna son qoya bilərdi.

Nəhayət, ordunu Şimala köçürməklə və hökumət qüvvələri ilə vuruşmaqdan imtina etməklə, xilas naminə geri çəkilmək variantı seçilmişdi.

Köç, əzablı olmaqla yanaşı, bir il davam etdi. 100 minlik ordu yeni düşərgə qurmaq naminə uzaq şimala üz tutmuşdu. Kommunistlər və onların silahlı qüvvələri 8 min mil uzunluğundakı məsafəni, bataqlıqlardan və dağlardan keçməklə, böyük əzablara və itkilərə düçar olmaqla qət etmişdi və yeni düşərgə məkanı olacaq Yunana gəlib çıxmışdı. Səfərə çıxan 100 min nəfərdən Şimaldakı yeni məntəqəyə onun üçdə biri – 30 min adam sağ qalmaqla, gəlib çatmışdı. Lakin Qızıl Ordu qorunub saxlamışdı, ağır səfərə çıxmaqla özünü xilas etmişdi.

Yeni düşərgədə ordu öz tərkibini böyütməyə, güclənməyə başladı. Ciddi təlimlə yanaşı, düşərgə sakinləri özlərinin sevincdən kənar olan yoxsul həyat tərzini axşamlar təşkil edilən, Maonun da iştirak etdiyi rəqslərlə yüngülləşdirməyə çalışırdılar. Mao öz xalqının təbiətinə yaxşı

bələd idi, onun iztirablardan və çətinliklərdən qorxmadığını bilirdi. Məhz bu xüsusiyyəti əsas götürülərək, hökumətə qarşı çıxış edən ordu yaradılmışdı. Sovet Rusiyasında isə Qızıl Ordu Vətəndaş müharibəsi başlandıqda meydana gəlmişdi, Amerikadakı kimi inqilab ordusu deyildi, inqilabın qələbəsindən xeyli əvvəl üzə çıxan bir qüvvə idi. Çin Qızıl Ordusu  Çin inqilabının qələbəsinə qədər sürətlə böyüməklə və güclənməklə iki onilliyə bərabər yol keçmişdi.

Çin Xalq Ordusu tədricən güclənərək, Çan Kay-şininin hökumət qüvvələrini döyüşlərdə məğlub edirdi, həm də yapon işğalçılarına qarşı daha uğurlu mübarizə aparırdı. Çin kommunistlərinin ordusu hökumət qüvvələri üzərində növbəti qələbə çalıb, Çan Kay-şini öz tərəfdarları ilə birlikdə Tayvan adasına qaçmağa məcbur etdi.

1949-cu ildə ordu Pekinə girdi və oktyabrın 1-də Tyananmen meydanında Çin Xalq Respublikasının yaradıldığı elan edildi. Yeni dövlətə respublikanın sədri kimi Mao Tsze-dun başçılıq etdi və 1976-cı ildə ölənə qədər onillik fasilə ilə bu vəzifəni icra etməklə, təkcə partiya rəhbəri kimi deyil, həm də dövlətin qanuni başçısı statusuna yiyələnmişdi.

Çin sosialist ölkəsinə çevrildi, onun zəif  bir dövlət kimi Yaponiyanın işğal zonasına, ABŞ-ın vassalı olmasına son qoyuldu. Az keçməmiş hamı bu yeni dövlətlə hesablaşmalı oldu. Çin qüvvələri Şimali Koreya kommunistlərinə, Cənubi Koreya və ona himayəlik edən ABŞ daxil olmaqla NATO qüvvələri ilə gedən müharibədə Sovet İttifaqı ilə yanaşı, böyük hərbi kömək göstərdi və 1953-cü ildə müharibə başa çatanda 38-ci paraleldən şimalda yerləşən Koreya Xalq Demokratik Respublikasının mövcudluğu beynəlxalq aləm tərəfindən tanındı.

Maonun başçılıq etdiyi Çin kommunistlərinin meydana gətirdiyi yeni Çin dövlətinin inkişafı üçün geniş şərait qazandı. Ona SSRİ ardıcıl olaraq böyük siyasi və iqtisadi yardım göstərirdi. 1949-cu ilin dekabrından iki ay müddətində Mao SSRİ-də qonaq oldu, Stalinin 70 illik yubileyi təntənələrində iştirak etdi. Lakin XX qurultayda Xruşşovun

şəxsiyyətə pərəstiş barədəki xüsusi məruzəsinin müddəalarını Mao qəbul etmədi və SSRİ ilə münasibətlər soyumağa başladı.

Daxili siyasətdə Mao həm də müəyyən səhvlərə yol verirdi, ölkəni sürətlə sənaye dövlətinə çevirmək arzusu elmi əsaslara söykənmədiyindən. ölkəni, metal əritməsi qaydalarından uzaq olan kiçik, həm də primitiv Marten sobaları bürümüşdü. Onların istehsal etdiyi metal çox qarışığa malik olduğundan heç nəyə yaramırdı.

1958–1960-cı illərdə aparılan "Böyük sıçrayış" siyasəti özünün praktiki mahiyyəti ilə, əksinə, inkişafa qarşı olan bir sıçrayışa çevrildi. Mao xalq hakimiyyətində olan əleyhdarlarını məhv etmək üçün, Çin Xalq Respublikasının sədri olan Lu Şao-tsinin onlara liderlik etməsini iddia edilirdi.  Mədəni inqilabı, onun tərkib hissəsi olan  xunveybinlər hərəkatını başlayan gənc tələbələr, hətta məktəb şagirdləri görkəmli dövlət xadimlərini xəyanətdə ittiham edib, onların əmək düşərgələrində yenidən tərbiyə olunmasını tələb edirdilər. Sürü psixozunun təsiri altında xunveybinlər hədd tanımayan çıxışları ilə az qala anarxiya mühiti yaradırdılar. Onlar yaşlı rəhbər işçilərin, həyatını inqilabi mübarizəyə həsr etmiş inasnların taleyini həll etmək hüququna yiyələnmişdilər. Sarı dimdikli sərçələr qoca qartalları məhv etməyə, ən azı onların qanadlarını sındırmağa nail olurdular. Yalnız Maonun şəxsiyyətinə toxunmaq olmazdı, o, hətta açıq səhvlərinə görə də möhkəm immunitetə malik idi.

Bu "inqilabi" tədbirlər nəticəsində görkəmli xadimlərin bir çoxu əzablara düçar edildi, Lu Şao-tsi kimiləri isə təzyiqlərə dözməyib məhv oldu.

Haqqında söhbət gedən Lü Şao-tsi (1898-1969-cu illər) Çin inqilabçısı, dövlət və siyasi xadim, Çin Kommunist Partiyasının rəhbərlərindən biri idi. O, 1959-1968-ci illərdə ÇXR-in sədri olmaqla, Mao Tsze-dunun rəsmi qaydada varisi hesab olunurdu. Hər ikisinin şəkli mərkəzi qəzetlərdə bir yerdə və eyni ölçüdə dərc olunurdu.

Lü Şao-tsi 1858-1960-cı illərdə “Böyük Sıçrayış” siyasətini müdafiə etmişdi, lakin sonralar Maonun siyasətinə şübhə etməyə başlamışdı. Buna 1960-1962-ci illərin iqtisadi uğursuzluğu səbəb olmuşdu. Mao ilə Lü arasında fikir ayrılığı yarandı.

Mədəni inqilab vaxtı o, respublikanın baş düşməni elan edilməklə, repressiyaya məruz qaldı. 1968-ci ildə Lü partiyadan xaric edildi, öna ölüm hökmü verilməsini təklif edirdilər. Hətta doğma qızını da atasına qarşı qoydular. Lü 1969-cu ildə Kayfındakı dustaqxanada ölmüşdü. Yalnız ölümündən sonra o, reabilitasiya olundu.

2017-ci ildə keçirilən ÇKP-nın XIX qurultayında Mao və onun silahdaşları ilə yanaşı, Lünün da xatirəsi yad edildi, bu onun Çin Respublikası qarşısındakı xidmətlərinə verilən qiymətin bərpa edilməsi əlaməti idi.

Lakin Maonun ölümündən bir qədər sonra ölkədəki əyintilərin yoluna qoyulmasına başlandı. Vaxtilə təqib olunan dövlət xadimlərindən biri olan Den Syao-pin hakimiyyət mərkəzinin üzvlüyünə qayıtdıqdan sonra, iki sistemin vəhdətindən ibarət olan yeni iqtisadi siyasətin həyata keçirilməsi ideyasını irəli sürdü. Mao dövründə qarışıqlıqlardan sui-istifadə edən şəxslər, o cümlədən Maonun sonuncu arvadı Tszyan Tsin məhkəməyə verildi və ağır qayada cəzalandırıldı.

Xruşşovdan fərqli olaraq, Den Syao-nun Maonun ifşa etmək kimi ağılsız yolu tutmaqdan imtina etdi. O, ÇXR-ın yaradıcısının fəaliyyətinə qiymət verərkən, onun 70 faizinin müsbət, 30 faizinin isə mənfi olduğunu bildirdi. Müasir Çin rəhbərliyi də Maoya həmin prizmadan yanaşmaqda davam edir.

Maonun xatirəsinə ehtiram bəslənilməsinə toxunulmamışdır, ayrı-ayrı şəhərlərdə onun heykəlləri və doğma kəndindəki ev-muzeyi qalır və

əhali muzeyə böyük hörmət əlaməti olaraq gəlməkdə davam edir. Çin kommunistləri Xruşşovdan fərqli olaraq ölkənin keçmiş tarixinin xarabalıqlara çevirməyin özünü vandalizm əlaməti hesab edərək, ona əl atmağı heç düşünməmişdilər də.

Mao Tsze-duna pərəstiş dərəcəsi azalsa da, onu ehtiram xalqın ürəyində və şüurunda yaşayır. Maonun yaratdığı sosialist dövləti XXI əsrin başlanğıcında sürətli iqtisadi yüksəlişə nail olmaqla, dünyanın iqtisadi cəhətdən ikinci  fövqəldövlətinə çevrilmişdir. Çində şəhərləri göydələnlər bəzəyir, elm, təhsil, texnologiya çox sürətlə inkişaf edir. Nou-xau sahəsində Çin hətta ABŞ-dan da irəli çıxmışdır. Kosmosun tədqiqinə başlamışdır. Süni intellekt yaratmaq sahəsində də Çin alimləri geniş iş aparmaqla insan beyninin sonradan dirilməsinə nail olmağa çalışırlar. Maoya həsr olunan ən böyük abidə də çiçəklənən müasir Çindir.

**İlham Əliyev**

**XXI əsrin başlanğıcı əvvəlki əsrlərdən fərqli olaraq, istedadlı dövlət rəhbərləri və siyasi xadimlərlə öyünə bilməz. Abraham Linkoln,Mustafa Kamal Atatürk, Franklin Ruzvelt, Şarl de Qoll, Ho Şi Min, Li Kuan Yu, İosip Broz Tito, Cavahirləl Nehru və Den Syao-pin kimilər artıq tarixə məxsusdurlar. Lakin az da olsa istisnalar da mövcuddur. Bu istisnaya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi aid etmək olar.**

İradəsi və cəsarəti ilə seçilən dövlət rəhbərləri siyahısına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi də daxil etmək, xalqın onun idarəetmə xüsusiyyətlərinə və ən başlıcası düşmən üzərində qələbəni meydana gətirən bir şəxs kimi ona bəslədiyi ehtiramın ifadəsinə xidmət edərdi. 2003-cü ildə bu ali vəzifəyə gələn İ.Əliyev ərazisinin 20 faizi işğal edilmiş, əhalisinin 1 milyon nəfərinin qaçqın və məcburi

köçkünə çevrildiyi bir ölkəyə başçılıq etməli olmuşdu. Həmin ailələrin bir hissəsi dəmir yolu vaqonlarında və keçmiş yataqxana binalarında yaşayırdılar. Onları əmək resursu kimi işlə təmin etmək də asan məsələ deyildi.

Ilham Əiyevi fərqləndirən ən mühüm cəhət,  bu ağır çətinliklərə baxmataraq, heç vaxt bədbinliyə qapılmaması, ölkəsinin torpaqlarının düşmən işğalından hökmən azad olunacağına möhkəm inamı idi. Və bilirdi ki, bu vəzifənin yerinə yetirilməsi, reallaşması onun ən ali borcudur. O, həm də anlayırdı ki, düşməninin güclü himayəçiləri vardır, ona görə də olduqca ehtiyatlı hərəkət etmək lazımdır, bu həyati əhəmiyyət kəsb edən məsələdə hansısa səhvə yol vermək, qələbəyə nail olmamaq varintı ölümə bərabər olacaqdır. Düşmənin himayədarları doğrudan da heybətli idi, lakin bu nəinki geri çəkilmək üçün, hətta tərəddüdə də səbəb olmamalı idi. Düşmənin güman etdiyi zəifliyi, onun istəyinin əksinə, gücə çevirmək lazım idi. Ən vacib cəhətin, işğalçı ordunu məğlub etmək üçün böyük hərbi qüvvəyə yiyələnmək olduğu kimi, həm də  az saydada olsa,qüdrətli müttəfiqlərə malik olmaq lüzumu bir an da olsun yaddan çıxmırdı.  Əsl dövlət rəhbəri kimi, o, Allahın varlığına və ədalətinə heç bir şübhə etmirdi, islam dininin ehkamlarına hörmətlə yanaşırdı, xalqının həqiqi lideri kimi düşmənin Vətən torpaqlarından qovulacağına möhkəm inam bəsləyirdi.

Ermənistanın XX əsrin sonlarında öz ərazilərindəki azərbaycanlıları,  onların tarixi yurd- yuvalarından qovmaqla kifayətlənməyib, onun ordusu Dağlıq Qarabağ və regionun ətrafında olan yeddi rayonun ərazisini də işğal etməklə, şəhərləri və kəndləri xarabazara çevirmişdi. Onların vəhşiliyini göz önünə gətirdikdə. güman etmək olardı ki, erməni dilindən “insnlıq”sözü, bəşəriyyəyin vacib saydığı və çox işlətdiyi bir ifadə, tamamilə yoxa çıxmışdır. Ermənistan ordusu bayquş kimi bu ərazilərə tərk etmək istəmirdi, formal danışıq adı altında işğal müddətini hər vəchlə uzatmağa çalışılırdı. Dünyanın nüfuzlu dövlətləri və beynəlxalq təşkilatlar da Ermənistanın işğal siyasətinə göz yumur, Azərbaycana təzyiq göstərərək, onu məsələnin

guya dinc yolla həll olunması variantı ilə razılaşmağa məcbur edirdilər. Torpaqların hərb yolu ilə geri alınmasına BMT Təhlükəsizlik Şurasının üzvlərinin əksəriyyəti olan dövlətlər müxtəlif yollarla etirazını bildirməklə, işğala son qoyulmasına cəhd etmirdilər.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan iri dövlətlərlə müqayisədə ərazisinə və əhalisinin sayına görə kiçik ölkədir, lakin zəngin sərvətlərə malikdir. Bu dadlı piroqdan pay umanlar da çoxdur və buna görə ölkə rəhbərliyinə müəyyən təzyiqlər göstərilir. Lakin Prezident İlham Əliyev balanslaşdırılmış xarici siyasət yeritməklə yanaşı, Azərbaycanın kiminsə vassalına çevrilməsinə imkan vermir. Xalqının milli mənafeyini qorumağı, o, özünün başlıca vəzifəsi hesab edir. Təəssüf ki, təzyiqlər də səngimək bilmir. Təkcə düşmənçilik zəhərinin daşıyıcısı olan və revanşizm xülyası ilə yaşayan Ermənistan adlı ilanla qonşuluq, daim sayıq olmağı tələb edir. Onu himayə edənlər də, ölkəmizi provokasiya tələsinə salmaq cəhdlərini dayandırmırlar. Lakin ölkə rəhbərinə xas olan dözümlülük, cəsarət və güclü iradə dövlətimizi təhlükələrdən qoruyur. Azərbaycan öz ərazisində daim ixtilaf mənbəyi olan və SSRİ-dən miras qalmış xərçəng şişini birdəfəlik ləğv etməyi bacardı. Bütün bunlar dövlət rəhbərinin uzaqgörən siyasətinin aktivinə yazılmalıdır.

Ermənistan siyasi və hərbi rəhbərliyi isə qüdrətli himayədarlarına arxalanaraq, Azərbaycanın yeni müharibəyə girəcəyi ehtimalına nəinki inanmır, hətta istehza qaydasında bildirirdilər ki, bu hadisə baş versə, ölkəmizin qonşuluqdakı başqa ərazilərini də zəbt edəcəklər.

Azərbaycan və onun Prezidenti isə Ermənistanın bəyanatlarına əhəmiyyət vermirdi, diqqətini ölkənin iqtisadi inkişafına, maliyyə cəhətdən möhkəmlənməsinə verməklə yanaşı, hərbi quruculuq

məsələlərini daim gündəlikdə saxlayırdı. Qərb ölkələrində yaşayan erməni diasporasının donor şəklində çıxış edərək, iri məbləğdə ianə verdiyi Ermənistandan fərqli olaraq, Azərbaycan sürətlə inkişaf edir, hərbi qüdrətinin yüksəlməsi üçün möhkəm maliyyə ehtiyatlarına yiyələnirdi. Hərbi  quruculuq sahəsində də ciddi dönüş meydana gəlirdi, ordu ən yeni hərbi texnika və silah-sursatla təmin edilir, onun əsgər və zabitlərinə ciddi təlimlər keçirilirdi.. Əslində, döyüşə hazır olan, və tam yeniliyi ilə seçilən ordu yaradılmışdı.

Bu da tarixin təsdiq etdiyi bir həqiqətdir ki, çətin anlarda hamının arzuladığı bir şəxs tapılır ki, o, xalqın xilaskarına çevrilir. Bu fövqaladə qabiliyyətin sahibi dövlət rəhbəri olduqda, xalq bədbəxtlikdən birdəfəlik qurtarmaq üçün onun ətrafında asanlıqla və daha sıx birləşir. Azərbaycanda  da xalqın etimadını qazanmış və ümid mənbəyi olan həqiqi xilaskar tapıldı. O, uzun illər ərzində dəmir dözümlülük göstərdi, öz planını gizli saxladı, ancaq sınaq  anı gəlib çatanda  malik olduğu liderlik və sərkərdəlik qabiliyyətini bütünlüklə açıb göstərdi. Müharibə dövründə o, təkcə öz xalqına uzun müddət həsrətini çəkdiyi böyük sevinc bəxş etmədi, həm də dostlarla yanaşı, hətta düşmənləri də təəccübləndirdi. O, özünün Vətən qarşısında böyük xidmətinə əsaslanaraq, həmvətənlərinə deyə bilər ki, heç vaxt soruşmayın ki, Azərbaycan sizin üçün nə etmişdir, sualı özünüzə verin ki, siz onun üçün nə etmisiniz. Bundan sonra hər birimizin borcu, onun azacıq da olsa alçaldılmasına yol verməməkdir. Biz düşməndən qisas almağı bacardıq, onu alçaltmaqla, özündən razılığına, lovğalığına , saxta naxışlarla bəzədilmiş tarixi ilə öyünməsinə son qoyduq.

Ən mühüm cəhətlərdən biri də o idi ki, ölkədə stabillik hökm sürürdü, böhran vəziyyəti yaratmağa çalışanların cəhdləri baş tutmadığından, həm də xaricdən aldıqları dəstək azaldığından, müxalifət cəbhəsi xeyli zəifləmiş, əhali arasında da onlar öz nüfuzlarını, əsasən itirmişdilər. Ermənistan ordusu üzərindəki qələbə, müxalifəti də öz mövqelərində düzəliş aparmağa məcbur etdi. Xalqın kütləvi sevincinə mənfi təsir göstərmək artıq mümkün deyildi və belə hərəkət birbaşa

süqutla nəticələnərdi. Bunu dərk edənlər qasırğalı havalı xalq dənizində üzməkdən imtina etdilər. Təəssüf ki, sağlam metamorfoza heç də hamıya qismət olmadı. Bəzi liderlər uğursuzluqlarından, heç nəyə nail ola bilmədiklərindən nəticə çıxarmayıb, yenə də havanı titrətmək kimi fayda verməyən üsuldan əl çəkmək istəmirlər.

Hərtərəfli ciddi hazırlığa və böyük resurslara malik olan Azərbaycan Ermənistan ordusunun davam edən təxribatlarına cavab olaraq 2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsinə girdi və başlanğıcdan uğur qazanmağa başladı. Əlverişli iqlim şəraitində 44 gün davam edən müharibə Ermənistan ordusunun darmadağın edilməsi və məğlubiyyəti ilə nəticələndi.

Ermənistan, öz ordusunun tam məhv olmasına yol verməmək üçün təslim olmaq barədə Rusiyanın vasitəçiliyi ilə müraciət etdi və əsasən Azərbaycan Prezidentinin irəli sürdüyü şərtlər əsasında üçtərəfli müqavilə bağlandı. Azərbaycan ərazi suverenliyini bütünlüklə bərpa etdi, ermənilər iki rayonu artıq döyüşsüz təhvil verməyə məcbur oldular. Üç il sonra, 2023-cü ildə Xankəndində qalan Ermənistan ordusunun qalıqları hərbi texnikasını ataraq, qaçmağa məcbur oldu, onların arxasınca erməni əhalisi də uzun müddət səcdə qıldıqları "miatsum"un həyata keçməsinə bütün ümidlərini nəinki itirdiklərindən, həm də düşmənçilik bəslədikləri azərbaycanlılarla bir yerdə yaşamağın onlar üçün çətin olacağına əmin olub. Ermənistana üz tutdular. Azərbaycan rəhbərliyi isə respublika vətəndaşı kimi bütün hüquqlara və vəzifələrə yiyələnən ermənilərin qalıb yaşamasına etiraz etmirdi. Xankəndinin tərk etməyə məhz  ermənilər özləri qərar vermişdilər. Azərbaycan tərəfindən onlara heç bir təzyiq göstərilməmişdi, əksinə, qalıb, tam hüquqlu vətəndaşlar kimi yaşamaları təklif edilmişdi. İlk dəfə idi ki, ermənilər tarixini acı dərsindən ibrət götürmək yolunu tutdular, çünki onların hamısı,  hətta kiçik bir istisna olmadan belə, Ermənistan ordusunun işğalına tərəfdar çıxmış, onlara daim xoş münasibət göstərən azərbaycanlılara qarşı ən eybəcər düşmənçilik mövqelərindən çıxış etmişdilər.

Ermənilər XX əsrdə o iki dəfə, əsrin əvvəlində və sonunda Azərbaycan xalqına xəyanət edərək günahsız insanların kütləvi qırğınlarını təşkil etmişdilər. XXI əsrin başlanğıcında Azərbaycan ordusu işğalçı düşmənə qarşı igidliklə vuruşaraq, ermənilərdən layiqli qisas almışdı.

Vaxtilə Fransa prezidenti III Napoleon Prussiya üzərində diplomatik qələbə qazandığına güvənərək, Prussiyaya müharibə elan etmiş, az sonra ağır məğlubiyyətlə üzləşmiş, ordusu ilə birində prezidentin özü də prussiyalılara əsir düşmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev isə nə Ermənistanı hədələmiş, nə onun torpaqlarına göz dikmiş, yalnız düşmən ordusunun təxribatlarına cavab olaraq, onlara qarşı qalibiyyətli müharibəyə başlamışdı. 2020-ci ilin noyabrın 10-da müharibə Azərbaycanın qəti qələbəsi ilə başa çatdığından, həmin gün Zəfər bayramı günü təyin edilmişdi.

Prezident İ.Əliyev Ali Baş Komandan kimi döyüşlərin gedişinə, düzgün taktikanın seçilməsinə bilavasitə rəhbərlik etmiş, strateji əhəmiyyət kəsb edən nöqtələrdən Ermənistan silahlı qüvvələrinin qovulmasını və onların tutulmasını ordu qarşısında ölümə gediləcək bir vəzifə kimi qoymuşdu. Mwharibə dövrwndə onun bilavasitə rəhbərliyi ilə ordunun Baş Qərargahı saat kimi işləyirdi/. Həm də əsgər və zabitlərin əsl fədakarlıqlarını layiqincə mükafatlandırmışdı. Qələbəni Azərbaycan xalqı 30 il müddətində gözləməli olmuş, itirilmiş torpaqların geri qaytarılması həsrəti ilə yaşamışdı.

İlham Əliyev nüfuzlu dövlətlərin və beynəlxalq təşkilatların hərb yol ilə torpaqların azad edilməsini qeyri-mümkün hesab etdiklərinə baxmayaraq, hansı ki, BMT torpağı itirilmiş xalqa bunu qadağan etmir, böyük iradə və əsl müstəqillik göstərərək, müharibənin həm də qorxulu bir təhlükə risqi olduğnu da nəzərdən qaçırmayaraq, ordusuna hücum əmri vermişdi və bir ay yarım müddətində möhtəşəm qələbənin qazanılmasına nail olmuşdu. 44 günlük müharibədəki qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır. Əslində, ölkədə daim

arzu olunan milli intibah baş vermişdi. Prezident və Ali Baş komandan kimi İ. Əliyev öz adını da, tarixin ləyaqət rəmzi olan zəfər səhifəsinə həkk etmişdi.

Böyük qələbənin bəhrələrindən biri, doğma dilimizdə bəzi sözlərin ilk dəfə olaraq iftixarla səslənməsi oldu, bunlardan ən mühüm əhəmiyyət kəsb edənləri "zəfər" və "fateh" sözləridir. Azərbaycan ordusunu qəhrəmanlığını "zəfər" sözü xarakterizə etdiyi kimi, "fateh" ifadəsi də tam haqlı olaraq Ali Baş Komandan, respublika Prezidenti İlham Əliyevə ünvanlanır. Televiziya şərhçiləri bu kəlmələri xüsusi sevinc pafosu ilə vurğulayırlar. Bu da təsadüfi deyildir. "Fateh" şöhrətini türk dünyasında ilk dəfə öz dövlətinə böyük xidmət göstərib, Konstantinopolu tutmaqla, Bizans imperiyasının mövcudluğunu tarixin arxivinə verən sultan II Mehmet daşımışdır və o, daha çox Mehmet Fateh kimi məşhurlaşmışdı. Bizim hərb tariximizdə əvvəllər iftixar mənbəyi olan zəfər və onu qazanan Fateh olmamışdı. 2020-ci ildəki 44 günlük müharibədə nail olduğumuz qələbə, onun hər ikisini bizə bəxş etdi. Bu sözlərdə böyük uğurun bərq vurduğu parıltı yığcam şəkildə gözə çarpır. Xalqımız ordumuza bəslənilən məhəbbətlə yanaşı, eyni səviyyədə zəfərə imza atan milli Fatehimizə də minnətdarlıq hisslərini addımbaşı dilinə gətirir.

Prezident İlham Əliyev təkcə müharibə teatrında deyil, həm də diplomatik fəaliyyəti ilə cəsur döyüşçü igidliyi göstərirdi. O, yorulmadan ordusunun ədalətli müharibə apardığını təkzib olunmaz arqumentlərlə sübut edirdi. Provakasiya tipli suallar veriləndə, kəskin və lakonik cavabla qərəzli jurnalistləri susdurmağı da bacarırdı. Xarici ölkə rəhbərləri, onun bəyan etdiyi danılmaz fakt qarşısında əvvəlki mövqelərində düzəlişlər aparmağa məcbur oldular. Dost ölkə rəhbərləri ilə ittifaq isə sarsılmaz qardaşlığa çevirməkdə də uğur qazanmışdı. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunun xeyli yüksəlməsinə səbəb oldu.

Belə bir həqiqət də mövcuddur ki, hərbi qələbə diplomatik uduş seriyası ilə davam etdirildikdə, böyük məqsədlərə nail olunur. Prezident İlham Əliyev Azərbaycan ordusunun hərbi uğurunu diplomatik manevrlərlə möhkəmləndirə bildiyindən, 44 günlük müharibədəki hərbi qələbə bütöv zəfər əhəmiyyətinə yüksəldi.

Qazanılan qələbə nəhayətsiz sevinc duyğuları yaratmaya bilməzdi, çünki uzun müddətli alçalmaya son qoyulmaqla yanaşı, dövlətin hərbi qüdrətinə də həqiqi və tam real inam yarandı. Qələbə azərbaycan xalqının milli iftixar ünvanını bütünlüklə bərpa etdi. Ermənilərin xəyanətkarlığı nəticəsində bir müddət xalqımız başı aşağı gəzməli olmuşdu, lakin 44 günlük müharibədəki parlaq zəfər onun mənəvi yarasını sağaltdı, ona elə bil ki, şir üpəyi bəxş etdi. Meydana gələn qürur hissi, onun əldə edilməsində fövqaladə xidmətləri olan Prezident İlham Əliyevin şəxsiyyətində də xalqın böyük ehtiramı şəklində əks olundu. Lakin o, təbiət etibarilə məğrurluqdan uzaqdır, çıxışlarında daim qələbəni xalqın adına yazdı, onu həyata keçirən silahlı qüvvələrimizi müzəffər ordu adlandırdı. Özünü nişan verən belə sadəlik xüsusiyyətlərinə baxmayaraq, qələbə, onun başına virtual Zəfər çələngi qoydu və bu, növbədənkənar seçkilərdə xalqın ona göstərdiyi böyük etimadda da, həmçinin heç bir şübhəyə yol verməyən öz ifadəsini tapdı. Qələbə təkcə indiki nəslə sevinc bəxş etmədi, həm də gələcək nəsillərin də hökmən öyünməsinə xidmət edən fəxr hissi aşılayacağı ehtimalını meydana gətirdi .

Qələbə tarixi faktdır, hətta saxtakarlıqları ilə ad çıxarmış ermənilər də öz üzərlərində onun silinməz damğasını hiss etdiklərindən, bu həqiqəti danmağa cəsarət etməzlər. Lakin azərbaycanlılar həmin qəti qələbədən sonra da, sülhsevər xalq olaraq qalır, hər bir xoş münasibətə əsl dostluq hissləri ilə cavab verir. Azərbaycanlılar ünsiyyətdə olduğu hər bir adama və xalqlara münasibətdə, özünün unikal tolerantlığı ilə əsl heyranlıq əks-sədası doğurur. Ermənilər ağır məğlubiyyətlərinə görə, daim əsarətində olduğu hallusinasiyalardan ayılmalı, paranoyyalarına son qoymalı, qonşularına qarşı bəslədikləri mənfur düşmənçiliklə

birdəfəlik vidalaşmalıdırlar. Həyat özü onlardan bunu tələb edir, revanşizm xülyaları erməni xalqını, malik olduğu qurama yorğan tipli dövlətini də məhv olmaqla üzləşdirə bilər.

Azərbaycanlılar, keçmiş və indiki müharibə qızışdıranları, istər onlar Ermənistan rəhbərləri, istər Dağlıq Qarabağ separatçıları olsun, haqlı olaraq lənətləyirlər. Həm də, nəhayət üzləşdikləri iflasa görə zərurət qarşısında düşmənçiliklə vidalaşan xalqa, bu həqiqətən baş versə, xoş münasibət göstərməyə də hazırdır. Lakin ermənilərin, mübtəla olduqları qatı millətçilik mərəzindən sağaltması da çətindir, bəlkə də bütövlükdə mümkün deyildir. Axı bu xəstəlik onlara əsrlər boyu sirayətlənmişdir. Xalqımız isə öz dövlət başçısının uğurlu siyyasətinə loyal münasibət göstərməklə yanaşı, gələcəyə, daha firavan həyat tərzinə malik olacağına böyük inam bəsləyir, daha xoş bir perspektiv ümidi ilə yaşayır. Uğurlu quruculuqdan və yeni nailiyyətlər qazanmaq istəyindən xəbər verən bunlar isə sülh şəraitinin mövcudluğunu tələb edir. Ermənilər də permanent düşmənçiliyi permanent sülhlə əvəz etməyə çalışmalıdırlar, bunun üçün birinci növbədə öz psixikalarında dəyişiklik etməlidirlər. Son müharibə onlara hökmən ayıldıcı təsir göstərməlidir. Ayrı-ayrı xalqlar hazırda süni intellekt yaratmaq və ondan faydalı qaydada istifadə etməyə çalışırlar, qoy erməni xalqı hələ zərərli toz basmış öz ruhunun təmizlənməsi, gigienası ilə məşğul olsun, onun sağalma nəticəsi olacaq bu metamorfoza, onlar üçün cəhalət əlaməti olan zülmət qaranlıqdan sonra meydana gələn əsl dan şəfəqi rolunu oynaya bilər.

Prezidentin fəaliyyəti təhlil edilərkən uğurlar layiqli qiymətini aldığı kimi, heç də bu o demək deyildir ki, ölkənin idarə edilməsində nöqsanlara yol veilməmişdir. Respublika Prezidentinin mübarizə sahəsindəki ardıcıl səylərinə və həyata keçirdiyi geniş tədbirlərə baxmayaraq, ölkədə məmur özbaşınalıqları və ən ağır bəla olan rüşvətxorluq halları baş verməkdə davam edir. Lakin bu cinayətlər və xətalar, öz kəskin cavabını almamış qalmır. Qanunu pozanlar ifşa olunur, yüksək vəzifələrdən uzaqlaşdırılır, layiq olduqları ağır cəzalarla

üzləşirlər. Dustaqxana sakinləri arasında keçmiş məmurların sayı heç də az deyildir. Onu da qeyd etmək lazımdır ki, qanuna məhəl qoymayan bir sıra mühüm nüfuz sahiblərinin nəhəng imkanlarının məhdudlaşdırılması, geniş səlahiyyətlərdən məhrum edilməsi, vəzifələrdən qovulması və digər cəzalara məhkum edilməsi Prezidentin bilavasitə şəxsi təşəbbüsü ilə baş vermişdir və onların himayəsinə sıxılan bir sıra ünsürlər istisna olmaqla, xalq tərəfindən ölkə rəhbərinin bu fəaliyyəti də böyük rəğbətlə qarşılanmışdır.

Mübarizə heç də sona çatmamışdır və davam edir. Lakin qorxulu virusu (latınca "zəhər" deməkdir) məhv etmək və cəmiyyətin bu sahədəki tam sağlamlığına nail olməq da asan məsələ deyildir. Rüşvətxorluğ anatomiyaya aid bir rudimenti, atavizmi xatırlatsa da, onu cərrahiyyə əməliyatı ilə bir andaca kəsib atmaq mümkün olmur. Həm də onun vurduğu yaralar da, arzu olunan kimi sürətlə sağalmır. Lakin ölkə rəhbərinə bəslənən inam bədbinliyə qapılmağa imkan vermir, məkrli xarici düşmən üzərində qazanılan qələbə, ağır fəsad sayılan daxili xəstəliyin də hökmən müalicə olunacağına böyük ümidlər yaradır. Mövcud çətinliklərə baxmayaraq, uğurlar adamlara, daha xoş gələcək üçün nikbin hisslər aşılayır.

Dövlət siyasətindən baş çıxarmayanlar cəmiyyət üçün məsuliyyət daşıyan bu quruma öz hədsiz tələbatlarını daim ödəmək mənbəyi kimi baxırlar, dövləti Amalfeya keçisinin buynuzu kimi permanent zənginlik mənbəyi hesab edirlər. Bu olduqca səhv düşüncədir. Axı ideal dövlət barədə təsəvvür də yalnız utopiya xarakteri daşıya bilər. Dövlət rəhbərindən ölkəsini cənnətə çevirməyi ummağın özü ağılsızlıqdır. İdarəetmənin mahiyyəti və gücü isə ölkəsinin ehtiyac və yoxsulluq cəhənnəminə çevrilməsinə yol verməmək, vacib olan təhlükəsizliyi təmin etməklə, əhalinin gecələr rahat yatmasına şərait yaratmaqdır və bu, ölkəmizdə öz təsdiqini bütünlüklə tapır. Bu məqsədlərin yerinə yetirilməməsindən əsassız olaraq şikayət etmək, ən azı, insafsızlıq olardı.

------------------------------------

Qədim Romanın nəcib imperatorları (bizim eranın 96–180-ci illərdə onlar imperiyanı uğurla idarə etmişlər) allaha müraciət edəndə, öz vicdanlarını nəzərdə tuturdular. O vaxtlar hələ Romada monoteizm mövcud deyildi,, gələcəkdə hakim dinə  çevriləcək xristianlığa sitayiş edənlər isə təqib olunurdu, bu din yalnız IV əsrin sonunda dövlət dini ola bildi. Lakin vicdan müasir dövlət xadimləri üçün də vacib şərtdir, vicdanını daim oyaq və ayıq saxlayanlar həm də öz xalqını yaxşı başa düşür və onun arzularına cavab verməyə çalışırlar. Onlar bilirlər ki, vicdan, şəraitlər tələb edəndə deyil, daim fəaliyyətdə olmalıdır. Bu yazıda da III Napoleonun ciddi qüsurları ilə yanaşı, bəzilərinin qəddarlığından isə öz xalqı böyük ziyan çəksə də, əsasən, ali kürsüdə ləyaqətə xidmət edən dövlət xadimlərinin örnək xarakterli nümunəsi qələmə alınmışdır. Tarix onları hökmən yaşadacaqdır. Həmin böyük şəxsiyyətlər, müəıyyən istinalar nəzərə alınmasa, öz idarə etmələrinin nəcib xüsusiyyətləri hesabına, həm də tarixin səhifələrini bəzəmələri ilə fərqlənəcəklər.

**SON**

**10 mart. 2024-cü il.**

***Telman Orucov***

## İnsan gözəlliyin vurğunu və yaradıcısıdır

İbtidai insanlar həyatda hələ çox şeyi dərk etməsə də, gözəlliyin cazibəsinə biganə qalmamış, daim onun güclü təsirinə məruz qalmışdır. Onlar hələ özlərinə ev tikməyi bacarmasa da, soyuqdan qorunmaq üçün mağaralarda yaşayanda da, ətraf mühiti daha emosional etmək üçün, ona bəzək verməyə çalışmışdılar. Məhz insanın gözəlliyə olan xoş münasibətindən divar rəsmləri və sonralar qaya rəsmləri yaranmışdır və ibtidai rəssamlar meydana gəlmişdir.  Mağaradakı divar rəsmləri ibtidai insanda həm də istedad rüşeymlərinin meydana  gəlməsini, primitiv də olsa, təsviri sənətə yiyələnmək sahəsindəki ilk cəhdlərinin sübutlarıdır. Gözəllikdən həzz almaq duyğuları bu məxluqlarda həm də onu yaratmaq həvəsi yaratmışdır. Təsviri sənət isə, lap azacıq da olsa, istedadın olmasını tələb edir, bu işi bacarmayanlar heç ona girişmirlər də. Divar rəsmləri həm də ibtidai insanın onu əhatə edən mühiti qavradığını, anlamağa başladığını göstərir. Təsviri sənət incəsənətin ilk növü hesab olunur, heykəltəraşlıq və arxitektura çox sonralar yaranmışdır.

Paleolit (köhnə daş dövrü deməkdir) erası daş alətlərdən istefa edilməsinin başlanğıc fazası olmaqla, ondan sonrakı təkamül prosesi nəticəsində mezolit (orta daş erası) və neolit (yeni daş erası) gəlir, bəşər məxluqunun tarixdən əvvəlki ən erkən dövrünü fərqləndirmək üçün bu terminlər işlənir. Bu dövr b.e.ə. 2,5 milyonuncu ildən 10 mininci ilə qədər olan zaman məsafəsini əhatə edir. Bu vaxt soyuq iqlim şəraitində yaşayanlar sağ qalmaq üçün mağaralarda sığınacaq tapırdılar.

Sonra onlar işıq və istilik mənbəyi olan oddan istifadə etməyi bacardılar. Qədim yunan mifologiyasında bu , allahlara qaşı çıxış edən Promoteyin xidməti kimi qiymətləndirilir. Od insanlara həm də öz qidalarını hazırlamaq üçün, onu bişirməyə imkan verdi. Bu yolla hazırlanan yemək  istehlak edildikdə daha dadlı olurdu, həm də onu sonrakı istifadə üçün  saxlamaq dövrünü uzatmağa imkan verirdi.

Alətlər düzəltmək və  oddan istifadə – Paleolit insanının iki mühüm texnoloji icadı idi. Bunlar insanın sağ qalması üçün əhəmiyyətli bir qabiliyyət növü idi. Paleolit insanı isə sağ qalmaqla, nəslini davam etdirməklə sonralar çox şeyə nail oldu.

Mağara rəsmləri, ibtidai insanın estetik zövqə yiyələnməsi yolundakı onun mühüm cəhdlərindən biridir. Mağara rəsmləri bütünlüklə iri heyvanların təsvirinə həsr olunmuşdur və bu rəsmlər Fransanın cənubi-qərbində və İspaniyanın şimalında tapılmışdır. Qaya rəsmlərinə isə Amerikanın Yuta ştatında, Braziliyada, Çinin Xusan əyalətində rast gəlinir. Onlar Paleolit insanının mədəni inkişaf və yaradıcılıq sahəsindəki ilk qabiliyyətindən xəbər verən fəaliyyətinin sübutudur. Fransadakı rəsm b.e. 30.000-ci ildən 28.000-ci ilə qədər olan dövrə aiddir. Həmin insanlar heyvan piyindən daş lampalar vasitəsilə mağara divarlarını işıqlandırmaq üçün istifadə edirdi və mineral oxra süxurunu və heyvan piyini qarışdırmaqla sarı və qara rənglər yaratmağa nail olurdu. Bu, artıq təbiətin birbaşa insana verdiyi töhfələr olmayıb, insanın özünün fəaliyyəti nəticəsində süni qaydada yaradılan yeni icad, həm də gözəlliyi təsvir etməyə həsr olunmuş primitiv cəhdlərin nümunələri idi.

Fransadakı mağarada şirlərin, öküzlərin, ayıların, bayquşların və digər heyvanların 300-dən çox rəsmləri tapılmışdır. Bu heyvanlardan çoxunu Paleolit insanı ovlamırdı, daha doğrusu, ovlaya bilmirdi. Yəqin ki, bu rəsmlər dini təsəvvürə görə və ya hətta bəlkə də, bəzək niyyətləri üçün çəkilirdi.

Burada yəqin ki, ekstaz anı təsvir olunurdu. Digər tərəfdən onlar sevinc əmələ gətirmək və emosiya yaratmaq üçün nəzərdə tutulurdu. Bunlar həm də bir izah olunmayan dəlilik anlarının məhsulu ola bilərdi.

İbtidai insanın yaşadığı şəraitə diqqət yetirdikdə, onun yaradıcılıqla, təsviri sənətlə məşğul olmasına təəccüb qalmamaq mümkün deyildir. Olduqca ağır şəraitdə, fiziki gərginliklə və daim ölüm qorxusu ilə müşayiət olunan ağır zəhməti hesabına özünü qida ilə təmin edən insanın gündəlik həyatı qayğılarına, öz varlığını qoruyub saxlamaq kimi mühüm fəaliyyətə bir an da olsa fasilə verən və onu gözəlliyi yaratmaq işinə həsr edən həmin şəxslərə qarşı dərin ehtiram hissi yaranır. O dövrün insanının həyat şəraiti isə olduqca ağır idi, yüz min illər ərzində gündəlik qida ehtiyacı ucbatından ovçuluqla və bitkilərin meyvəsini və kökünü yığmaqla məşğul olur, bu yolla yaşamasını davam etdirə bilirdi. İnsanlar qidalanmaq üçün, onun mənbəyi olan heyvanları və bitkiləri öyrənməli idi. Bu biliklər hesabına o, qida əldə etmək üçün çox vaxt uğura sahib olurdu, ona görə də qədim insanı təbiətin övladı adlandırmaq daha düzgün olardı. Onlar ağacların yetişdirdiyi yabanı qidaları, böyürtkənləri, meyvələri, həm də müxtəlif dənliləri və qida məqsədinə xidmət edən yaşıl bitkiləri yığırdılar.

Müasir insan qədim əcdadının təcrübəsini davam etdirərək, indi də tərəvəz növü kimi həmin bitkiləri toplayırlar. Aclıq dövrlərində isə dağ zonalarının əhalisi üçün onlar əsl xilasedici rol oynayır. XX əsrin əvvəllərində Fransanın şimalında yaşayanlar meşədən yığdıqları şabalıdı bişirib, yumşaq kütlə şəklində yeməklə qidalanırdılar. Böyük Vətən müharibəsi illərində ölkəmizin dağ zonalarında yaşayanlar ehtiyac ucundan əsasən yamaclarda bitən və qidalı sayılan yabanı bitkilərlə, ot növləri ilə qidalanırdılar. Qədim insanların ovladıqları heyvanlar siyahısına isə camışlar, atlar, bizonlar, vəhşi keçilər və marallar daxil idi. Sahil ərazilərində yaşayanların  qidalanmasının əsas mənbəyi. əlbəttə ki, balıq ovu idi.

Paleolit insanları 20-30 nəfərdən ibarət xırda qruplarda yaşayırdılar. Kəndlərdəki tayfalar, onların həyatı şəkildəyişmə xarakteri daşıyırdı, nomad (köçəri) olmaqla heyvanların arxasınca miqrasiya edirdilər, çünki başqa çıxış yolu yox idi. İndiki şimal xalqları maral sürülərini  becərmək işində qədim insanların təcrübəsinə əsaslanırlar. Qədim insan heyvanların arxasınca gəzdiyi kimi, həm də bitkilərin yetişmə dövriyyəsindən asılı idi. Ovçuluq həm də, heyvanların davranışının ehtiyatla müşahidə etməyə, onu düzgün mənimsəməyə əsaslanırdı.

İllər keçdikcə alətlər təkmilləşdirilirdi və daha faydalı olanlar meydana çıxırdı. Nizənin kəşf edilməsi ovçuluğu xeyli asanlaşdırdı. Harpun qarmaqlar üçün sümükdən istifadə edilməsi, balıq ovunun artmasına səbəb oldu.

Zaman keçdikcə, mağaranı tərk edən insanlar özləri üçün yeni növ sığınacaqlar, evlər tikdilər.

B.e.ə. 10.000-ci ildən 4.000-ci illərədək Neolit inqilabı baş verdi. Bu əslində aqrar inqilab idi. Ən böyük dəyişiklik heyvanları ovlamaqdan və bitki mənşəliləri toplamaqdan, qida maddələri istehsalı sisteminə, kənd təsərrüfatı ilə məşğul olmaq yolu əsasında, keçmək idi. Dənli bitkilərin becərilməsi və tərəvəzlər qida üçün müntəzəm qaydada ehtiyat toplamağa imkan verdi. Sonra heyvanların – keçilərin, mal-qaranın, göyərçinlərin və qoyunların əhiləşdirilməsinə başlandı. Qədim insanların yaşadığı ərazilərdə dördayaqlılar üçün yem ehtiyatının kasad olduğunu nəzərə alaraq, onlar yalnız ot yeyən heyvanları əhiləşdirdilər.

Erkən insan məxluqları kiçik qruplar şəklində formalaşır və onlar sağ qalmaq üçün adi mədəniyyəti inkişaf etdirirdilər. Beləliklə, sivilizasiyanın yaranması üçün bünövrə qoyulurdu. İnsan cəmiyyəti tədricən böyüdü və əsasən mürəkkəb qaydada inkişaf etdi. Bəşər mövcudluğunun yeni forması – sivilizasiya adlanan həyat meydana gəldi. Sivilizasiya mürəkkəb mədəniyyət olub, onda iri miqdarda insan məxluqu müxtəlif ümumi elementlərə şərik olurdu. Şəhərlər

meydana gəldi, onlar siyasi, iqtisadi, sosial, mədəni və dini səviyyələrdə inkişaf edirdi.

Tarixdə ilk sivilizasiya indiki İraqın ərazisi olan Şumerdə yaranmışdı. 65 min əvvəl Zaqros dağlarının (indiki İran ərazisindədir) ətəklərində arpa, buğda becərilmişdi. Kotanın icad edilməsi əkinçilikdə əsl inqilab əmələ gətirdi. Torpağın kotanla yumşaldılması səpilən toxumun cücərməsinə, bitkinin böyüyüb, məhsul verməsinə yaxşı şərait yaradırdı.

İki milyon il əvvəl isə insan danışmağa başladı, bir neçə sözü tələffüz etdi. İnsanda yeni bacarıq yarandı. Şumerlilər və misirlilər ilk dəfə olaraq piktoqramma (rəsmlər) şəklində yazı yazmağa başladılar. Şumerlilər həm də bir neçə hərfi icad etdilər. Əlifba isə bütövlükdə finikiyalılara (indiki Livan ərazisində yaşayırdılar) mənsub idi. Onlardan yazını yunanlar götürüb, etrusklar vasitəsilə Romaya ötürdülər və sonra yazı bütün Avropaya yayıldı. İlk sivilizasiya Şumerdə formalaşmışdı, ona görə də tarixin Şumerdən başladığı bildirilir. Burada yazı da, piktoqrammalardan bir neçə hərfə keçməsi ilə inkişaf etmişdi. Finikiyada meydana gələn ilk dolğun əlifbadakı hərflər şəklindəki yazı şimaldakı qitəyə də keçdi.

Olduqca çətin həyat şəraitinə malik olan ibtidai insanın estetikaya vaxt ayırması, yaradıcılıqla, onun ən çətin sahəsi olan təsviri sənətlə məşğul olması, bu insanların öz dövründən xeyli irəli getdiyini sübut edir.

## Misir sivilizasiyası

Misir elə bir mədəniyyət yaratmışdır ki, o bu günkü insanda da təəccüb doğurur. Misirin texniki nailiyyəti xüsusən piramidaların quruluşunda özünü göstərir, həmin dövrdəki dünyaya nisbətən misirlilərin ağıl dərəcəsinin unikal olduğunu nümayiş etdirir. Onlar üçün bu nailiyyətlərin hamısı kosmik qaydanın bir hissəsi idi.

Misirlilər din üçün heç bir sözə malik deyildilər, çünki o Misir cəmiyyətinin məxsus olduğu dünya qaydasının ayrılmaz bir elementi idi. Misir universal kosmik sistemin bir hissəsi olmaqla, faraonu ilahi məxluqa çevirirdi.

Kamil qaydanın daxilində olan faraon, onun stabilliyini qorumaq yolunda fəaliyyət göstərirdi. Misirdə onlar müxtəlif formalardakı və adlardakı allah olurdu. Faraonlar da özlərini canlı allah hesab edirdilər. Osiris və İsidanın uşaqları Horla, Nillə və Günəşlə qohum idilər. Misirə sivilizasiya gətirən Osirisi öz qardaşı Set

öldürmüşdü və onun parçalanmış cəsədini Nilə atmışdı. Sədaqətli arvadı İsida ərinin bədəninin parçalarını tapıb, digər allahların köməyi ilə Osirisi həyata qaytarmışdı. O vaxtdan Osiris dirilmə simvoluna çevrilmişdi və o, misirlilərin həyatında mühüm rol oynamışdı.

Misir sivilizasiyasının böyük nailiyyətlərindən biri piramidalardır. Onları layihələşdirənlər bədii cəhətdən düşündüklərini texnika ilə birləşdirib, möhtəşəm abidələr yaratmışdılar. 4500 yaşı olan Xeops (Xufu) piramidası XXI əsrə qədəm qoyaraq, ən uca sənət nümunəsi, möhtəşəmlik rəmzi olaraq qalır.

Rəssamlıq və yazı heroqlifləri, sənətkarlar və kübarlar tərəfindən məbədlərdə və məqbərələrdə istifadə edilmək üçün tətbiq olunurdu. Misir rəssamlığı geniş fəaliyyət göstərirdi. Allahların və faraonların məbədlərində dini rəsmlər və heykəllər ciddi qaydada ruhu vəsf etmək məqsədlərinə xidmət edirdi. Onlar mərasimlərin icra edilməsi prosesində, birləşdirici hissə rolunu oynayırdı , kosmik qaydanı qoruyub saxlamaq üçün zəruri amil hesab olunurdu. Divar rəsmləri səhnələri və heykəl fiqurları xüsusi fəaliyyət göstərən sərdabələrdə tapılmışdır. Onlar mərhumun bu dünyadan sonrakı həyatda səyahətinə kömək etmək məqsədini güdürdü. Rəsmləri daim mətn müşayiət edirdi. Rəsm getdikcə mürəkkəbləşirdi.

Misirdə rəngkarlıq və heykəltəraşlıq tam fərqli idi. Onlar sərdabələrdə-mastabalarda çəkilirdi və qoyulurdu ki, sehrli funksiya yerinə yetirsinlər. Bu rəsmlər və heykəllər faraonun o dünyadakı həyatına xidmət etməli idi. Bəzi məqbərələrdə erotik rəsmlərə də rast gəlinir. Misirlilər təbiəti çox diqqətlə müşahidə edirdilər, ona  görə də heyvan rəsmləri çox realistik olurdu.Rəsmlərdə heç bir ikimənalılıq yox idi, hər şey daimi formada təsvir edilirdi ki, həyat əbədi davam etsin. Sərdabəyə bol miqdarda yemək şeyləri qoyulurdu ki, faraon yaxşı qidalansın. Faraon burada da yeməli, içməli, məhəbbətlə məşğul olmalı, bir sözlə canlı həyatada etdiyi bütün şeyləri ordada  da təkrar etməli idi.

Sarkofaqda isə faraonun mumiyalanmış cəsədi qoyulurdu. Sərdabədə çəkilən hər bir təsvir, simvol xarakteri daşıyırdı.  Burada yazılan mətnlərə cürbəcür heyvan rəsmləri əlavə olunurdu.  Ona görə də məqbərədə çox sayda rəsmlər olurdu. Rəsmləri çəkmək üçün  mineral piqmentlərdən istifadə olunurdu, oxra  ən davamlı rəsm vasitəsi idi. Bəzi sərdabələrdə isə rənglər polifoniyası diqqəti cəlb edir.

Rəsmin icra aspekti, məqbərədə yatana xoş həyat bəxş etməkdən ibarət idi. Təsvir edilən səhnələr canlanmalı idi ki,faraon cənnətdə yaşaya bilsin.

Misir rəngkarlığı həmçinin formullaşırdı. Rəssamlar və heykəltəraşlar proporsiyanın ciddi qanunlarına riayət edirdilər, bunlar isə həm formanı, həm də təqdim olunmanı müəyyən edirdi. Buna görə də min illər ərzində Misir rəssamlığına bu qanun xüsusi fərqlilik vermişdi. Onun spesifik əlaməti, insan bədəninin müxtəlif pozalardakı baxışlarının birliyini dərinləşdirirdi. Bədənin hər bir hissəsi çox diqqətlə təqdim olunurdu. Bu üslub, yüksək dərəcədə stilistik olan rəssamlıq yaratdı, bu həm də portretin cizgilərinin fərqli olmasına, fərdi xüsusiyyətləri əks etdirməsinə imkan verırdı.

Yazı Misirdə ilk iki sülalənin dövründə meydana gəldi.  Bu yazını sonralar yunanlar heroqlif adlandırdılar, həmin söz "Keşiş nəqş edir" və ya "müqəddəs yazı" mənasını verirdi. Heroqlif sonralar inkişaf etsə də, sadələşdirilsə də, heç vaxt əlifbaya malik olmadı. Misir heroqlifləri əvvəllər daşda nəqş edilirdi, lakin sonralar papirusda yazılmağa başlandı. Həmin kağız növü Nil boyu bitən papirus qamışından hazırlanırdı. Bizim dövrə gəlib çıxmış qədim Misir ədəbiyyatı boru şəklində bükülmüş papirusda və taxta cədvəllərdə yazılmışdır.

## Yeni Babilistan imperiyası

Yeni Babilistan çarı Nabuhodonosor (b.e.ə. VII əsr, 625-605-ci illər) öz paytaxtı Babili yenidən tikməklə və abadlaşdırmaqla, onu həmin dövr dünyasının ən gözəl şəhərinə çevirmişdi. Həmin vaxt semit dilində danışan xalq  olan xaldeanlar Mesopotamiyada assuriyalıların nəzarətinə müqavimət göstərən qüvvəyə çevrilmişdi. Nabuhodonosor Midiya ilə qüvvələrini birləşdirib, Assuriya paytaxtı Ninevanı b.e.ə. 612-ci ildə işğal etdi və Yeni Babilistan monarxiyasını yaratdı. Köhnə Babilistan isə b.e.ə. XVIII əsrdə mövcud olmuşdu, onun ən məşhur çarı Hammurabi idi və ondan Hammurabi kodeksi kimi böyük bir irs qalmışdı.

Nabuhodnosorun hökmranlığı dövründə Babilistan kənd təsərrüfatı torpaqları, həm də gəmilərlə ticarət yolları və sənətkarlığın inkişafı hesabına varlandı. Xüsusən toxuculuq və metal emalına əsaslanan mülkiyyət növlərini yeniləşdirdi. Çar, Babil şəhərini imperiyanın mərkəzində tikdirməklə, qədim dünyanın ən böyük şəhərlərindən birinə çevirdi. Babil 8 mil uzunluğunda qülləli divarlarla əhatə olunmuşdu, həm də Fərat çayı ilə dövrələnmişdi. Şəhərin 8 qapısından biri olan İştar qapısı (babillilərin sitayiş etdiyi ilahənin şərəfinə belə adlanmışdı.) Zəfər yoluna açılırdı. Bu yol Marduk adlı məhdudlaşdırılmış bir müqəddəs əraziyə aparırdı. Marduk isə Babilistanın baş allahı idi.

Babil çox sayda məbədlərlə və saraylarla bəzədilmişdi. Məbədlərinin çoxluğuna görə Yaponiyanın müasir Kioto şəhəri Babili yada salır. Burada mindən artıq məbəd vardır.

Nabuhodonosorun yaratdığı bütün abidələrdən ən məşhuru Asılı Bağlar idi. O, qədim dünyada Yeddi Möcüzədən biri hesab olunurdu. Bu bağ çarın Midiyadan olan arvadının vətəninin dağları və bağları üçün darıxdığını yüngülləşdirmək üçün saldırılmışdı.  Təəssüf ki, səhv nəticəsində Babilistan çarının saldırdığı bağ Semiramida bağları kimi tanınmışdı, b.e.ə. IX əsrin sonunda Assuriya çariçası olan Semiramidaya isə Asılı Bağlara heç bir aidiyyəti yox idi, bu bağ ondan iki əsr sonra meydana gəlmişdi.

Bağın görünüşündə terraslar seriyası süni dağ kimi platoya aparırdı və sıx bağlar yuxarıdan borularla axan su ilə suvarılırdı. B.e. I əsrində bir müəllifin yazdığına görə,  uzaqdan bağlar olduqca gözəl təəssürat yaradırdı:

“Bu ərazinin başında Asılı Bağlar yerləşirdi, yunan rəvayətlərində onlar möcüzə kimi xarakterizə olunurdu. Daş sütunlar bütün  bağ ərazisini əhatə edirdi, struktura iri həcmdə olan ağaclara dəstək verirdi. Qüllələrin hündürlüyü 50 futa çatırdı və bağlar torpaqda bitən ağaclardan ibarət olmaqla, çoxlu bəhrə verirdilər. Uzaqdan bağı müşahidə edənlərə real ağaclar, onların öz doğma dağlarından asılmış kimi görünürdü”.

Nabuhodonosor Babili öz imperiyasının paytaxtı kimi yenidən tikmişdi və onu İştar qapısı kimi bir arxitektura möcüzəsi ilə bəzəmişdi. Qapı mavi qlazurlu (şirli) kərpiclərdən tikilməklə, Zəfər yoluna açılırdı. Kərpiclər ayrıca hazırlanırdı və sonra qapı divarlarına qaldırılırdı. Mardukun müqəddəs heyvanı olan əjdaha fiqurları (baş allahın müqəddəs heyvanlarından biri də öküz idi) qapının səthində alternativ kimi nümayiş etdirilirdi. Qapının mavi səthini həm də buynuzlu marala bənzər heyvan şəkilləri bəzəyirdi.

İştar Babilistanın müharibə və virtual məhəbbət ilahəsi idi. İştar qapısı hazırda Berlinin Perqam muzeyində saxlanılır.

## Yunanların sivilizasiyası

Qaranlıq eradan sonrakı dövr, yunan həyatının canlanmasını göstərir. Yunan incəsənəti və ədəbiyyatı, arxaik yunan mədəniyyətinin dulusçuluq və heykəltəraşlıq kimi bəzi cəhətləri xüsusilə Şərqin təsirinə məruz qalmışdı.

Yunan heykəltəraşlığı, xüsusən Kiçik Asiyanın cənubi-şərqində yaşayan (indiki Türkiyə ərazisi) İon yunan sakinləri, qədim Misir sivilizasiyası ilə xeyli əlaqədə olduğuna görə, onun təsirinə məruz qalmışdı. Təbii ölçüdə olan gənc yunanların daş heykəlləri çılpaq təsvir edilən fiqurlar idi. Fiqurlar real olmasalar da, onların bir ayağı digərindən qabaqda olurdu. Əlləri isə sərbəst qaydada bədənin yanında tutulurdu.

B.e.ə. VIII əsrdə Homerin məşhur "İliada" və "Odisseya" poemaları meydana gəlmişdi. Onlar Troya müharibəsinə və onun qəhrəmanlarına həsr olunmuşdu.

Krit adasındakı Knossos sarayında həm təbiət mənzərəsinin, həm də gənclərin idmanla məşğul olmasını təsvir edən rəsmlər, çəkildiyi vaxtdan 3,4 min il keçməsinə baxmayaraq, adamı heyran edir. Oradakı divar üzərindəki bir freskada "Öküz üzərindən tullanmaq" kimi Minoy idmanı təsvir edilmişdir. Qadın və kişi akrobatlardan biri öküzün belinin üstündən tullanır. Digəri isə öküzün arxasında dayanıb ki, tullananı tutsun. Başqa bir rəsmdə qara qıvrım saçlı, albalı rəngindəki qalın, cazibədar dodaqları olan qızın portreti o qədər real idi ki, Knossos sarayında onu görən fransız turist, Parisdə özünün qonşuluğunda yaşayan qıza bənzədib, onu "parizian qız" adlandırmışdı.

Qədim sənət əsərlərindən biri mikenalılara məxsus qızıldan olan ölüm maskasıdır. Qızıl lövhədə olduqca real cizgiləri olan maska döyülmüşdür.

Afinada Praksitel tərəfindən yaradılan "Venera Kindli" heykəli qadın bədəninin gözəlliyini əks etdirir. Digər bir heykəl isə "Apollon Belvederli" adlanır, onda isə kişi bədəninin məğrurluğu, hər cür fədakarlığa hazır olduğu təsvir olunur. Ümumiyyətlə, ilahə Afinanın himayə etdiyi məşhur şəhərdə arxitektura ilə yanaşı, heykəltəraşlıq da çox inkişaf etmişdi. Praksitel tişəsindən çıxan fiqurları çılpaq təsvir edirdi. Onun "Venera Kindli" heykəli çılpaq qadın bədənini ağ mərmərdə təsvir edir. Heykəl XV əsrin sonunda Romada tapılmışdır., hazırda Vatikanda saxlanılır.

Fidi Delfidə Zevsin, Akropoldakı Parfenonda isə Afinanın qızıldan və fil sümüyündən möhtəşəm heykəllərini yaratmışdı.

B.e.ə. II və I əsrlərdə yaradılan Böyük Aleksandrın başının heykəl təsvirində, sərkərdə allaha bənzədilir. Axı o, özünü Heraklın törəməsi hesab edirdi. Anası Olimpiyada isə onun əri II Filippdən deyil, Zevsdən doğulduğunu iddia edirdi.

O, Misirdə də ilahi qüvvə kimi etiraf edildikdən sonra, ona faraon kimi sitayiş edilirdi. Heykəldə isə Aleksandrın üzünün ifadəsi Zevsin baxışı nümunəsində göstərilir. Ona görə də heykəlin təməlində yazılmşdı: “Mən Yer üzünü öz hakimiyyətim altında birləşdirdim, ey yalnız Olimpiyanı tutan Zevs!” O, özünü Zevsdən də qüvvətli və məharətli hesab edirdi.

B.e.ə. VII əsrin yunan ədəbiyyatı, onların lirik poeziyası güman ki, başqaları ilə müqayisədə daha yaxşı məlumdur. Lirika epik poeziyadan xeyli dərəcədə qısa idi. Sonralar yunanlar Sapfonu (b.e.ə. VII əsr) özlərinin ən böyük qadın lirik şairi kimi qiymətləndirirdilər. Sapfo Egey dənizindəki Lesbos adasında yaşamışdı, orada o, öz gənc rəfiqələrinə musiqi və poeziya dərsləri keçirdi. Onun şeirlərinin çoxu öz qız tələbələrinə həsr olunmuş məhəbbət mahnıları idi. İndiki “lesbiyanka” sözü də Sapfonun Lesbos adasından gəlir. Sapfo yunan yuxarı sinfinə məxsus olan digərləri kimi, homoseksualizmin və heteroseksual hisslərin eyni fərddə mövcudluğunu qəbul edirdi. Sapfo ailədə ərinin qanuni arvadı olmaqla yanaşı, həm də ana idi. O, həmçinin kişilər arasında və həm də qadınlar arasında baş verən hisslərə, yəni eyni cinsdən olanların məhəbbətinə həsr olunmuş şeirlər yazırdı.

Arxaik Yunanıstan həmçinin kübarların və kəndlilərin həyat tərzini əks etdirən şairləri tanıyırdı. Yunanıstanın mərkəzindəki Beotiyadan olan Hesiod b.e.ə. 700-cü il ətrafında yaşamışdı. Onun iki əsərindən biri “Teoqonika” adlanırdı, “Zəhmətlər və günlər” adlanan ikinci əsəri uzun epik poema idi.. Özü əkinçi olmaqla, Hespod kübarlara inanmırdı və onlara yuxarıdan aşağı baxırdı. Onun məqsədlərindən biri allahların ədalətini izləmək, cəzalandırmanın mənbəyinin və ömürün  uzun yolunun mahiyyətinin zəhmət olduğunu göstərmək idi. “Aclıq və xəstəlik” yorulmadan işləyənləri və bayram edənləri yaxalamayacaqdır. Torpaq onları həm də əliaçıqlıqla dəstəkləyir.

Hespadun “Zəhmətlər və günlər” poeması Qərb ədəbiyyatında əməyə həsr olunmuş ilk əsər kimi tanınır.

Meqaradan olan Feonis Hesioddan fərqli olaraq, kübar idi. O, b.e.ə. VI əsrdə yaşamış və yaratmışdı.

## Ellinist incəsənəti

Ellin monarxları ədəbiyyatın hamiləri olmaqla yanaşı, öz pullarını gözəlliyə xərcləyirdilər və şəhərlərini onların köməyi ilə bəzəyirdilər. Yeni salınan şəhərlər və bəzi köhnələrin yenidən bərpası yunan arxitekturası və heykəltəraşlığı üçün çox sayda yaxşı şərait yaradırdı. Bəlkə də, utopik sosialist Tommazo Kompanella özünün "Günəş şəhəri" əsərindən bu yaşayış yerinin, uşaqlar üçün təhsil mənbəyi olan monumental heykəllərlə bəzədilməsini təsvir edərkən, ellinist şəhərlərin nümunəvi təcrübəsinə əsaslanmışdı. Lenin də "Günəş şəhəri"nə bəzəyən monumental heykəlləri Rusiya şəhərlərinə qoymağı məsləhət görmüşdü. SSRİ-də monumental heykəltəraşlığa loyal münasibət bəslənirdi, lakin onlar əsasən inqilab xadimlərinin şərəfinə həsr olunurdu.

Çox sayda tikilən məbədlərin isə sütunları əsasən Korinf ordeni ilə bəzədilirdi. Axı bu, digər dorik və ion ordenlərindən daha gözəl görünürdü, kapitelin üzərindəki vazadan çiçəklər ətrafa səpələnirdi. Ona görə də Korinf ordeni ellin şəhərlərində daha populyar idi.

Ellinist çarları heykəltəraşlara himayəçilik edirdilər və onlar da varlı şəhər sakinlərinə çevrilirdilər. Minlərlə heykəllər bütün Ellin dünyasına yayılmışdı. Onlar hətta kiçik şəhərlərdə də bəzək xatirinə qoyulurdu. Ellin heykəltəraşları geniş səyahət edirdilər, varlı hamilər tərəfindən onlara maddi mükafat təqdim edilirdi. Klassik dövrün texniki bacarığının köməyi ilə ellinist heykəltəraşları b.e.ə. V əsrin klassisizm ideyalarından, daha emosional və realist olan incəsənətə keçirdilər. Qoca qadınların, sərxoşların və oyun oynayan çox sayda kiçik uşaqların heykəllərini yaradırdılar. Onlar həm də çılpaq qadınların təsvirində bədən gözəlliyini yeni qaydada vurğulayırdılar.

Aleksandr Makedoniyalının Hindistanın qərbinə yürüşü ilə bəzi yunan təsirləri bu əraziyə də daxil oldu. Bu xüsusən Ellinistik erada baş verdi. B.e.ə. I əsrdə hind heykəltəraşları Buddanın heykəllərini yaratmağa başladılar. Əfqanıstanda, Bamyanda qoyulmuş Buddanın nəhəng heykəli birinci dəfə hakimiyyətə gələn taliblər tərəfindən partladılmışdı ki, islam dininə görə insanın təsviri qadağandır.

Hind arxitekturası isə  məbədləri bəzəmək üçün erotik səhnələri təsvir edən heykəlciklərdən ibarət kompozisiyalara böyük üstünlük verirdi.

Yunanların iftixar mənbəyi olan Akropol  özünün arxitektura inciləri ilə fərqlənir. Periklin dövründə Akropolun planlaşdırılması (b.e.ə. V əsr) və tikintisi vahid düşünülmüş bir qayda üzrə gedirdi. Tikinti böyük heykəltəraş Fidinin ümumi

rəhbərliyi altında qısa müddətə başa çatdı. Akropolun əsas tikintisi b.e.ə. 449-421-ci ildə tikilən və ilahi Afinaya həsr olunmuş Parfenon idi. Parfenon, dorik ordeni üslubunda olan sütunlarla əhatə olunmuşdu. İçəridə Fidinin işi olan Afinanın heykəli dururdu. Binanın xaricini frezlər bəzəyirdi. Parfenon öz simmetriyası və proporsiyası ilə seçilirdi və arxitektura incisi olduğundan, bu sənətin etalonu kimi qəbul olunmuşdur.

Asimmetrik qayda, Akropolda müxtəlif allahların səcdəgahını yerləşdirməyə imkan verdi. Propiley sarayının dorik frontonu ion ordeninin proporsiyası ilə əkslik təşkil edirdi.

Yunanların ən nəhəng heykəllərindən biri Rodos adasındakı Gelios heykəli idi, o, həm də Rodos Kolossu adlanırdı. B.e.ə. 304-cü ildə rodoslular Makedoniya çarı I Demetrinin hücumunu dəf etmişdilər. Bu qələbənin xatirəsinə görə Rodos limanına girişdə Günəş allahı Geliosun nəhəng heykəli qoyulmuşdu. Bu heykəl qədim dünyanın 7 möcüzəsindən biri idi. Bürüncdən tökülmüş və  ayaqları ilə limanın qapısında iki dayaq üzərində dayanmış heykəlin üstündə “Koloss” sözü yazılmışdı.

Digər bir heykəltəraşlıq incisi isə Venera Miloslu heykəlidir. Parisdə Luvrun girəcəyini bəzəyən bu çılpaq qadının təsviri gec Ellin dövrünün heykəlidir. Bu gözəllik simvolu olan qadın bədəninin heyrətamiz cizgilərini əks etdirdiyindən, ilahəyə bənzər qadın bədəninin etalonu rolunu oynayır.

Laokoon heykəl kompozisiyası isə Troya müharibəsində yunanların “Troya atı” hədiyyəsini qəbul etməyin əleyhinə çıxan Troya kahini Laokoonun allahlar tərəfindən cəzalandırılması səhnəsini təsvir edir. Yunanlar 9 il ərzində Troya ilə müharibə etsələr də, heç nəyə nail olmamışdılar. Bu vaxt hiyləgər İtaka çarı Odissey öz həmvətənlərinin köməyinə gəldi və troyalılara ağac materialdan olan nəhəng at bağışlamağı təklif etdi. Atın qarnı yunan əsgərləri ilə doldurulacaq və at şəhərin qapısından içəri salındıqdan sonra, gecə həmin əsgərlər çıxıb, yunanlara bağlı saxlanılan şəhər qapısını açacaqdılar.

Laokoon bu hiyləgərliyi anladığından, öz troyalılarına hədiyyədən imtina etməyi təkid etdi. Lakin şəhərlilər onun xahişinə məhəl qoymayıb, hədiyyəni qəbul etdilər və Troya məğlubiyyətlə və dağılmaqla üzləşdi. Bundan əvvəl yunanlara kömək edən allahlar Laokoonu cəzalandırmaq üçün ilan göndərdilər, ilan Troya kahinini və onun iki oğlunu sancıb, məhv etdi.

Yunanlar sonralar Laakonun cəza səhnəsini təsvir edən heykəltəraşlıq kompleksi yaratmışdılar. Vatikanda Müqəddəs Pyotr kilsəsi tikilərkən, onun

bünövrəsi üçün torpaq qazılanda həmin heykəlin Roma kopiyası tapılmışdı və bu kompozisiya Florensiyanın Uffitsi qalereyasında da nümayiş etdirilir.

## Roma incəsənəti

Romalılar yunan mədəniyyəti ənənəsini davam etdirib, onu daha da inkişaf etdirdilər. Axı onlar incəsənət ilhamına görə yunanlardan asılı idilər, həm də Ellinist incəsənəti üslubunun bir çox cəhətlərinə uyğunlaşmağı bacarmışdılar. Romalılar arxitekturada, yüksək praktiki incəsənətdə xeyli irəli getdilər. Üstəlik onlar həqiqətən məşhur yollar çəkdilər, yunanlar isə onlardan fərqliolaraq, dəniz yollarına üstünlük verdiklərindən quru yollara o qədər fikir vermirdilər, romalılar həm də möhkəm körpülər və öz icadları olan akveduklar tikdilər, tikintidə etrusklardan götürdükləri alaqapılardan istifadə edirdilər. Onlar inşaatda ilk dəfə betondan istifadə etməyə başladılar, bu onlara nəhəng amfiteatrlar, ictimai hamamlar və yaşayış binaları tikməyə imkan verdi. Axırıncı, Romanın zəhmətkeş əhalisini yaşayış yeri ilə təmin etməyə  xidmət edirdi..

Romalılar yunanlarda olan heykəl zövqünə də yiyələndilər, onlar heykəli təkcə ictimai binalarda deyil, həmçinin öz evlərində saxlayırdılar. Orijinal əsərlərlə təchizata tələb genişləndikdə, yunan heykəllərinin reproduksiyalarını yaratmaq dəbi meydana gəldi. Romalıların öz portret heykəlləri realizmin geniş tətbiqi ilə xarakterizə olunurdu. Romalılar yunan heykəltəraşlığının yüksək zirvəsinə qalxa bilmədilər. Yunan heykəlləri mükəmməlliyi və cazibədarlığı ilə seçilirdi, Roma heykəltəraşlığı isə onun solğun təqlidi idi.

## Erkən Roma imperiyasında incəsənət

Romalılar rəsmlərin və heykəllərin orijinal olmasına az fikir verirdilər. Çoxlu əsərləri yunan rəssamları və sənətkarları tərəfindən yaradılmışdı. Divar rəsmləri və varlıların evlərindəki freskalar realistik qaydada olmaqla, təbiət mənzərəsini, portretləri və mifoloji əhvalatların səhnələrini təsvir edirdi.

Arxitekturada onlar yunanları təqlid edirdilər, sütunlarda düzbucaqlı quruluşlardan istifadə edirdilər. Bunlar dorik ordenini xatırladırdı. Romalılar öz imperiya ərazilərində 50 min millik yol şəbəkəsi yaratmışdılar. Avropanın müasir

yol şəbəkəsi qədim romalıların tikdikləri yollara əsaslanır. Romada körpülərlə yanaşı, bir düjün akveduk tikmişdilər, onlar əhalini su ilə təmin edirdi.

Roma yunanlardan sonra Avropa sivilizasiyasının inkişafına böyük töhfə vermişdi. Zaman keçdikcə qədim romalıların istedadı yenə də Orta əsrlərin sonunda gur canlanaraq, dünya mədəniyyətinə əvəzsiz xidmət göstərdi. Qərbi Roma imperiyası məhv edildikdən min il sonra Renessansın meydana gəlməsi, Florensiya və Romanın bu sahədəki töhfələri ölçüyə sığmazdır. Bu şəhərlərdə yaşayıb, yaradan dahi rəssamlar, heykəltəraşlar, arxitektorlar bu gün də öz əsərləri ilə bəşəriyyətin iftixar mənbəyi olaraq qalırlar.

Kolizey. B.e. 80-ci ilində Romada Flavilərin tikdirdiyi bu nəhəng amfiteatr istifadəyə verildi, sonralar o Kolizey adını aldı. 57 metr hündürlüyündə olan amfiteatrın göbəyinin eni 524 metrə çatır. Bira 50 min tamaşaçı tuturdu.

Kolizey 4 nəhəng yarusdan ibarət idi, arenanın altında həm də vəhşi heyvanları saxlamaq üçün qəfəslər var idi. Birinci yarusdakı yerlər imperator həyəti və yüksək məmurlar üçün, ikinci yarus görkəmli alimlər üçün, üçüncü və dördüncü yaruslar isə xalq üçün idi. Kolizeydə Romanın 45 ictimai bayramının hamısı keçirilirdi, qladiator döyüşləri gedirdi. Qladiatorlar təkcə bir-birilə deyil, yırtıcı vəhşi heyvanlarla da vuruşurdular. İlk vaxtlarda döyüşlər allahların şərəfinə təşkil edilirdi, sonralar isə romalıların ən sevimli əyləncələrinə çevrildi.

**Panteon**. B.e. 115-125-ci illərində imperator Adrian tərəfindən Panteon bərpa edilmişdi. Bu dəyirmi yunan məbədinə bənzər sütunları, 43 metr ölçüsündə olan qübbə tamamlayırdı. Onun yarıqlarından işıq binanın içərisinə yayılırdı. Burada digər görkəmli tarixi şəxsiyyətlərin qəbirləri ilə yanaşı, böyük rəssam Rafaelin də qəbri vardır.

## Bizans imperiyası

Burada şəhərsalma və arxitektura böyük inkişafa nail oldu. 532-ci ildəki Nika üsyanı Konstantinopolu çox dağıtdığından, imperator Yustinian şəhəri yenidən tikdi və ona yeni, tam fərqli və gözəl görünüş verdi. Buna qədər də şəhərdə nəhəng saray kompleksi var idi, İppodrom adlanan nəhəng arena və yüzlərlə kilsə var idi. İndiki İstanbul da elə bil ki, öz sələfi olan məşhur şəhərin dini binalar tikmək sahəsindəki ənənəsini davam etdirir, burada da beş əsr əvvəl tikilmiş məscidlərə sayı-hesabı olmayan yeniləri əlavə olunmuşdur. Hava

limanından gəlib şəhərə daxil olarkən məscid minarələrinin nazik karandaşa bənzər silueti şəhərə əlavə gözəllik verir, göz oxşayır.

Yustinian çoxlu yeni binalar tikdirdi, yollar çəkdirdi, körpülər, divarlar, ictimai hamamlar, məhkəmə binaları tikdirdi. Binaların altında yerləşən nəhəng rezervuar şəhəri su ehtiyatı il təmin edirdi. Şəhərdə çox sayda xəstəxana, məktəb binaları, monastırlar və kilsələr meydana gəldi. Kilsə tikintisinə Yustinianın böyük ehtirası var idi. 34 yeni kilsə tikdirmiş və ya bərpa etdirmişdi. İmperatorun ən böyük nailiyyəti isə məşhur Hagia Sophia – Müqəddəs Müdriklik kilsəsi idi. Onun tikintisi 537-ci ildə başa çatdırıldı. Kilsə yunan arxitekturası üslubunda layihələnmişdi, Qərb arxitekturasının sadə tavanlı bazilikalarından radikal dərəcədə fərqlənirdi. Onun mərkəzi dörd nəhəng sütundan ibarət idi, onları isə daha nəhəng qübbə taclandırırdı. Qübbə elə bil ki, məkanı əhatə edən səmada üzürdü.

Binanın daxilindəki işıq elə təsəvvür yaradırdı ki, o heç də möhkəm bünövrə üzərində qərar tutmamışdır. Elə bil ki, burada məhəbbət məskunlaşmışdı. İçəridəki qaranlıq mühit gözə görünməyən bir işığa qərq olmuşdu, həm də belə inam yaradırdı ki, dünya, elə bil ki, özünü gizli saxlanan bir ruhla işıqlandırır.

Aya Sofiya kilsəsi son 1500 il ərzində zəzələlərə də təslim olmamışdır, bina isə çox seysmik aktivliyi ilə seçilən zonada tikilmişdir. Kilsəni VI əsrdə baş verən zəlzələ, həmçinin 1999- cuildəki olduqca güclü zəlzələ İstanbula böyük ziyan vursa da, Aya Sofiyanı dağıda bilməmişdir. Bir cəhəti də qeyd etmək lazımdır ki, ona qədər belə nəhəng bir bina tikilməmişdi.

Yustinianın Konstantinopolu abadlaşdırmaq, gözəlləşdirmək sahəsindəki fəaliyyəti, onun zəngin  irsi bu gün də onlara heyranlıqla tamaşa edənlərdə, ona qarşı sönməz ehtiram hissləri yaradır. Aya Sofiya öz təyinatını dəfələrlə dəyişsə də, onun təmin etdiyi gözəllik ruhu, ona valeh olma, hər şeyi məhv edən, solduran, yaddan çıxaran zamanın təsirinə məruz qalmadan, öz monumentallığını və möhtəşəmliyini qoruyub saxlayır.

## Rəssamlıq Renessansı

İtalyan Renessansının dahi rəssamlarından biri olan universal sənətkar Leonardo da Vinçi bir dəfə demişdi: “Rəssam kiçik ləyaqətə malik olan rəsmlər çəkən vaxtdan, əgər o, başqasının rəsmlərini özü üçün standart kimi götürsə də ,

ancaq o, milli obyektlərdən öyrənəcəksə, bu vaxt yaxşı bəhrə gətirəcəkdir. Öz standartlarını yalnız başqa birindən götürürsə, bu vaxt təbiət özünü əbəs yerə açacaqdır".

Renessans rəssamlar təbiəti təqlid etməyi, özlərinin başlıca məqsədi sayırdı. Onların öz naturalizm axtarışları onda başa çatırdı ki, obyektlərin təsvirinin arxasınca gedirdilər və ya bəzən onlar portret çəkənlər olurdular. Eyni vaxtda onlar ağılın ətrafa yeni münasibətini, birbaşa yeni rəssamlıq standartı kimi əks etdirirdilər. Onlardan biri, diqqət fokusuna çevrilən insan məxluqu idi, bir nəfərin təyin etdiyi bu münasibət , təcvirin "mərkəzi və ölçüsü" olurdu.

Leonardo və digər italyanlar bu fikri dəstəkləyirdilər ki, XIV əsrdəki Cotto ilk dəfə təbiəti təqlid etməyə başlamışdı. Lakin Cottonun fəaliyyət göstərdiyi Florensiyada başqa rəssamlar tərəfindən bu üslub, təəssüf ki, təkrar olunmamışdı.

Fiquralar və mənzərə arasında sonralar daha realist olan bir əlaqə yarandı və perspektiv qanunlarının vizual təqdimatı ilə rəssamlığın yeni realistik üslubu meydana gəldi. İnsan fiqurunun üç ölçüdə olması Florensiya rəssamlarının sonrakı nəslinin modelinə çevrildi.

Yeni Renessans üslubu qəbul edildi və XV əsrdə digər Florensiya rəssamları tərəfindən bu, dəb şəklinə düşdü. Onun xüsusi əhəmiyyəti ondan ibarət idi ki, eksperimentlər aparmağa olan meyl inkişaf etdi və bu, iki istiqamət aldı. Biri, rəssamlığın matematik tərəfini vurğulayırdı, bu perspektiv qanunlarından kənara çıxırdı. Digər cəhət, eksperimental meylli hərəkət tədqiqatını və insanın anatomik quruluşunu əhatə edirdi. XV əsr, bu vaxt ekspertimentlər və texniki ustalıq dövrü oldu.

XV əsrin son dekadasında Florensiyada yeni ruhlu sosial ixtira meydana gəlir, Florensiya hökmdarı Möhtəşəm Lorentso görkəmli rəssamlara himayədarlıq edirdi. Onlardan biri Sandro Bottiçelli (1445-1510-cu illər) idi. Onun marağı yunan və Roma mifologiyasına ünvanlanmışdı və onları özünün məşhur əsərlərindən biri olan "Primovera" – "Bahar" tablosunda əks etdirmişdi. Tablo Veneranın əbədi bahar rəmzi olan bağında gedən hadisəni təsvir edir. Bottiçellinin fiquralarından hər birinin əhəmiyyətli olmasına baxmayaraq, onlar digər dünyaya məxsus olan keyfiyyətlərə malikdirlər, reallıqdan uzaq olan bir yerdə hərəkət edirlər. Bu da erkən Renessans rəssamlığının mahiyyətini xarakterizə edirdi.

XV əsrdə Florensiya rəssamlığının inqilabi nailiyyətləri həmçinin heykəltəraşlığa və arxitekturaya da öz təsirini göstərdi. Heykəltəraş Donatellonun əsərləri arasında "David" xüsusilə seçilir. Bu heykəl ilk dəfə olaraq təbii ölçüdə

yaradılmışdı, sərbəst dayanmış bir çılpaq bədənli oğlan fiqurası idi. Antik dövrdən sonra Avropa incəsənətində bu yeni üslub idi. Ayağının altında nəhəng Qoliafın başı olan David, Florensiyanın milanlılar üzərindəki zəfərini (1428-ci il) meydana gətirən qəhrəmanların şərəfini əks etdirirdi.

İnsan fiqurunun təsviri Erkən Renessans rəssamlığının portret sahəsində yeni vurğulanmasını əks etdirir.

XV əsrin sonunda İtalyan rəssamları, heykəltəraşları və arxitektorları yeni incəsənət mühiti yaratdılar. Bu vaxt yaradıcı ifadənin daha fərdi formaları meydana gəldi. Renessans rəssamlığı inkişafının final səhnəsi. 1480-ci illə 1520-ci il arasındakı dövrdə onun çiçəklənməsi ilə əlamətdar idi. Bu dövr Yüksək Renessansının yeni mədəni mərkəzi olmaqla, onun əhəmiyyətini yüksəltdi.

Yüksək Renessans üç rəssamlıq nəhənginə – Leonardo da Vinçinin (1452-1519-cu illər), Mikelancelonun (1475-1564-cü illər) və Rafaelin (1483-1520-ci illər) əsərlərində dominantlıq edirdi. Təsadüfi deyil ki, F. Engels Renessans dahilərini, nəhayətsiz ölçüdəki fəaliyyətlərinə görə titanlara bənzətmişdi. Onlardan biri olan Leonardoya gəldikdə, o, Yüksək Renessansın prinsipləri üçün transmilli şəxsiyyət kimi iştirak edirdi. Rəssam hətta insan bədənini yarırdı ki, təbiətin insan üzərində necə işlədiyini daha aydın görsün. O, Yüksək Renessans insanının ideal formada olan realistik portretini yaradırdı. Leonardonun "Son şam yeməyi" freskası Milanda kilsə divarı üzərində çəkilmişdi. Jestlər və hərəkətlər vasitəsilə Leonardo da Vinçi fərdin daxili aləmini açmağa çalışırdı. Onun Parisin Luvr muzeyində saxlanılan "Cokonda" ("Mona Liza") tablosu daha məşhurdur, muzeydə əsərə hər il milyonlarla adam heyranlıqla tamaşa edir. 1911-ci ildə italyan Vinçentso Peruci tablonu muzeydən oğurlamışdı ki, onu rəssamın vətəni İtaliyaya qaytarsın. Bu portret tablosunu isə Leonardo ömrünün sonunda Fransada yaşayarkən yaratmışdı və onu Fransa kralı I Fransiskə hədiyyə vermişdi. İki il sonra oğurlanmış əsər Luvra qaytarıldı. Onu da qeyd etmək lazımdır ki,"Cokonda"nın muzeydən oğurlanması, əsərin şöhrətinin yüksəlməsində, populyarlığının artmasında qeyri-adi müsbət rol oynamışdı.

Mikelancelo dahi rəssam, heykəltəraş və arxitektor idi, Yüksək Renessansın nəhənglərindən biri idi. O, neoplatonizm təsirinə məruz qalmışdı, bu, Romadakı Vatikanın Sikstin kapellasında Bibliya mövzularına həsr olunmuş onun freskalarında xüsusən nəzərə çarpır. O, kapellanın tavanını da öz məşhur rəsmi ilə bəzəmişdi, bu ağır zəhmətə üç il vaxt sərf etmişdi. Çünki o, hündürlükdə yerləşən platforma üzərində uzanıb, əlinin çatdığı tavanda tablosunu çəkirdi.. Freskada

Allahın əlini Adəmə toxundurması ilə ilk insanın yarandığı əks olunur. Onun "David" heykəli isə 18 fut hündürlüyündə, ağ mərmərdən yonulmaqla insan bədəninin ideal gözəlliyini iftixar hissi ilə tərənnüm edir. Heykəl həm də insan məxluqunun şərəfini nümayiş etdirir.

Rafael erkən illərə məxsus olan rəssam idi, artıq İtaliyanın ən yaxşı rəssamlarından biri hesab olunurdu. Rafael madonnaların portretlərində xüsusən fərqlənirdi. Onun "Afina məktəbi" freskası Vatikan sarayını bəzəyir. Mikelancelonun ondan xoşu gəlməsə də, Rafaelin həmin əsərində Mikelancelonun da portretini təsvir etmişdi: "Sikstin Madonnası" əsəri isə ali madonnaya həsr olunmuş bir abidə rolunu oynayır. Mariya Göylə Yer arasında qucağında tutduğu körpəsi İisusla təsvir edilir. Əsər, ona tamaşa edəndə, sitayişə bərabər heyranlıq hissləri yaradır. Drezden qalereyasında saxlanan bu əsər, onunla müqayisəyə girən başqa bir tablonu tanımır., çünki onda müqəddəsliyin təsviri ilə rəssamın ecazkar istedadı birlikdə zühur edir və özünə hədsiz pərəstişə bərabər bir ehtiram bəslənməsini təlqin edir.

Bu üç dahi, Bibliya qəhrəmanlarının təsvirinə müraciət edirlər, əslində isə mifik obrazlar yaradırlar. Onlara qədər təsviri sənət Bibliya mövzularına belə bir miqyasda, həm də təsvirin sərbəst şəkildə ifadə edilməsinə cəsarət etməmişdi. Onlar Köhnə Vəsiyyətdəki və İncildəki nəql olunanlara dahiyanə qaydada yanaşmaqla, dini ehkamları, büründükləri dumandan azad edib, onlara əsl həyat çalarları və izahını asanlaşdıran cəhətlər bəxş etmişdilər. Mikelancelo ilk günaha batmanı da yaratdığı ilk insanları sehrli obrazlar vasitəsilə təqdim edir. Onun "Pyeta" heykəl kompozisiyasında isə ana Məryəmin qucağnda ölmüş İisusu təsvir etməklə,ananın timsalında ümumbəşəri hüznü ön plana çəkir. Leonardo süfrə arxasındakı apostolların əhatəsində İiususu təsvir edərək, onun möcüzəli öncəgörməsini əsalandıra bilir. Rafael körpə İisusu qucağında tutan gözəl Mariya ananı mələklərin əhatəsində təsvir edir. Xristian dini, onların yaradıcılığı hesabına öz tarixinin başlanğıcına rəngkarlıq vasitəsilə sübut ifadələri əlavə edir və sonrakı rəssamlar bu ənənəyə sadiq qalaraq, İncilə həsr olunmuş möövzularda öz incilərini yaratdılar.

Yüksək Renessans öz nailiyyətlərini həmçinin arxitekturada da sübut eydi. Bu, Donato Bramantenin əsərində xüsusi ilə özünü biruzə Verdi. O, Urbinodan, Romaya gəlmişdi və Müqəddəs Pyotrun şəhid olduğu yerin yaxınlığında kiçik məbədin layihəsini vermişdi. Papa II Yuli ona Romada bazilikanın layihəsini hazırlamağı tapşırmışdı, həmin tikinti məşhur Müqəddəs Pyotr kilsəsinə çevrildi. Bu işə 1506- cə ildə başlanıldı. Bu nəhəng binanın tikintisinə Bramante ilə yanaşı,

Rafael, Mikelancelo və digərləri başçılıq etmişdi və onların hər birinin zəhmətinə layiq olduqları ehtiram bəslənməlidir.

Mikelancelo bazilikanın tikintisindən heyrətə gələrək, demişdi ki, "Onu insanlar deyil, mələklər tikmişdir". Rafaelin ölümündən sonra tikintini davam etdirməyi 72 yaşlı Mikelanceloya həvalə etmişdilər. O, binanı taclandıracaq qübbəni icad etdi, bu Romadakı Panteonun qübbəsindən iki dəfə böyük olmalı idi. Ondan sonra tikintiyə başçılıq edən della Ponta papadan bu işə 10 il vaxt istəmişdi, papa isə ona 2 il vaxt vermişdi. Della Ponta isə bu nəhəng işi 22 aya başa çatdırmışdı.

Bazilikanın qarşısındakı piyattsanın (meydanın) dizaynı Lorentso Berniniyə tapşırılmışdı. Meydan 30 min adamı tutmalı idi.Bernini meydanı Müqəddəs Pyotr kilsəsinə açılan qıfılın açar deşiyi kimi layihəşdirmişdi. Meydanın ortasında Misirdən gətirilmiş obelisk ucalmalı idi. Arxitektor meydanı dörd cərgə sütunlardan olan kolonnada ilə əhatə etmişdi. Kolonnadının üstünü çox saydakı heykəllər bəzəyirdi.

İslam dünyası öz memarlıq inciləri olan, XVII əsrdə yaradılmış Tac Mahalla, onu Şah Cahan sevimli arvadı Mümtaz Mahalın xatirəsi üçün tikdirmişdi, həmçinin Abu-Dabidəki müasir Şeyx Zayed məscidi ilə fəxr edir. ŞeyxZayed məscidi 2004 cü ildə vəfat etmiş, Birləşmiş Ərəb Əmirliklərinin ilk prezidenti Zayed bin Sultan Al Nahayanın xatirəsinə tikilmişdir. Rabindranat Taqor Tac Mahalı "zamanın yanağnda qurumuş göz yaşı" adlandırmışdır. Məscidin nəhəng binası isə ağ mərmərdən tikilməklə, ona rənglərlə xüsusi bəzək verilmişdir. Məscidin inşasına 4 milyard ABŞ dollar xərclənmişdir. Dünyada ən böyük xristian kilsəsi olan San Pedro bazilikasının və onun qarşısındakı meydanın tikintisinə isə 9 milyard ABŞ dolları məbləğində pul xərcləndiyi bildirilir.

İtalyan rəssamlığı sonralar öz mərkəzini Florensiyadan və Romadan Venetsiyaya keçirdi. Venetsiyalı rəssamlar Titsianın və Tinterottonun əsərlərində Renessans öz şöhrətini davam etdirdi.

Renessansdan sonra Avropa rəssamlığı bir sıra üslub səhnələrindən keçdi. Rəssamlıq Renessansı sona çatdı və bu vaxt Mannerizm adlanan yeni bir hərəkat İtaliyada 1520-ci illərdə meydana gəldi. Reformasiya tərəfindən dini dəyərlərin dirildillməsi, çox sayda qarışıqlığa səbəb oldu. Xüsusən İtaliyada Renessans qorxuya, qeyri-müəyyənliyə, əzab çəkməyə və ruhi eksperimentlərə yol açmışdı. Mannerizm isə dəyişən mühiti əks etdirirdi. Rəssamlar Mikelancelonun son üslubunun manerasında (onu təqlid etmək qaydasında) rəsmlər çəkirdilər.

Mannerist rəssamlar proporsiyanı ləğv edərək, süni uzadılmış fiqurları çəkirdilər. Bu, əzab çəkmə düşüncəsi yaradırdı, həm də emosional atmosferaya sayca daha çox qarışıqlıq əlavə edilməsinə səbəb oldu.

Mannerizm İtaliyadan Avropanın digər hissələrinə yayıldı və xüsusən öz apogeyinə El Qrekonun (1549-1614-cü illər) əsərlərində çatdı. Domenikos Teotokopulos Kritdən olmaqla, o, buradakı Fodele kəndində anadan olmuşdu, El Qreko ispanca “yunan” demək idi, Venetsiyada və Romada təhsil alandan sonra o, 1570-ci ildə İspaniyaya köçmüş, Toledoda kilsə rəssamı işləmişdi. El Qrekonun uzadılmış fiqurları qeyri-adi sarı və yaşıl rəngdə portretləşirdi, rəssamın intensiv emosiyadakı dünyanı yaratmaq arzusunu ifadə edirdi. Etiraf edim ki, həm onun doğulduğu Fodelə kəndində, həm də Toledodakı ev-muzeyində olmaq mənə nəsib olmuşdu.

Mannerizmin zəruri olaraq yerini yeni hərəkat olan Barokko tutdu, o XVII əsrin son rübündə İtaliyada başlanmışdı və Avropanın qalan hissəsinə yayılmışdı. Bu üslub katolik islahatçı hərəkatı tərəfindən mənimsənildi. Bunun canlı şəhadəti katolik saraylarıdır, xüsusən bu üslubun, Habsburqların Madriddəki, Praqadakı, Vyanadakı və Brüsseldəki saraylarında aparıcı yer tutması idi. Ona Fransada, İngiltərədə və Niderlandlarda müqavimət göstərilməsinə baxmayaraq, Barokko üslubu bütün Avropaya və Latın Amerikasına yayıldı.

Barokko rəssamları Renessans incəsənətinin klassik ideyalarını XVI əsrin dini canlanmasını, ruhi hisslər ilə birləşdirməyə gətirib çıxardı. Barokko rəssamlığı və arxitekturası hakimiyyət üçün aparıcı axtarışları ifadə edirdi. Barokko kilsələri və sarayları gözəl və varlı şəkildə detallaşdırılırdı. Krallar və printslər başqa krallar və printslər kimi, öz təbəələrinin onların gücündən qorxmalarına nail olmağa çalışırdılar.

Barokko rəssamları emosionallığı məqsəd güdən dramatik effektlərdən istifadə edirdilər. Bu üslub flamand rəssamı Paul Rubensin (1577-1640-cı illər) əsərlərində daha çox işlənirdi. O, məhsuldar bir rəssam olaraq Barokkonun yayılmasında mühüm şəxsiyyət rolunu oynayırdı. Onun rəngkarlıq incilərində bədənlər ağır ölçüdə və güclü hərəkətdə, həm də çılpaq şəkildə təsvir olunurdu. O, işıq və kölgədən dramatik bir qaydada istifadə edirdi və bu, intensiv emosiyalar yaradırdı. Yorulmaz formalar və daimi hərəkət bir yerə qarışıb, dinamik sintez əmələ gətirirdi.

Barokkonun ən böyük şəxsiyyətlərindən biri İtalyan arxitektoru və heykəltəraşı Lorentso Bernini (1598-1680-ci illər) idi. O, Vatikandan Müqəddəs

Pyotr bazilikasının tikintisini yekunlaşdırmış və onun qarşısındakı piyattsanı (meydanı) əhatə edən geniş kolonnalarının layihəsini vermişdi.  Onun "Müqəddəs Terezanın ekstazı" heykəl kompleksi XVI əsr ispan müqəddəs qadınının həyatındakı mistik təcrübə anını təsvir edir.

XVII əsrin ikinci yarısında Avropanın mədəni liderliyində Fransa İtaliyanın yerini tutdu. Barokko üslubunu rədd edən fransızlar Yüksək Renessansın klassik dəyərlərini yaratmağı davam etdirdilər. Onun görkəmli nümayəndəsi Nikola Pussen (1594-1665-ci illər) idi.

Sonra hollandların realizmi gəldi, Holland rəssamlığı XVII əsrdə çiçəkləndi. Holland qızıl epoxasının ən yaxşı əsərləri Rembrandt van Reyn (1606-1669-cu illər) tərəfindən yaradılmışdı. Onun çoxlu fiqurlardan ibarət olan "Gecə gözətçiləri", arvadı Saksiya ilə birlikdə olan portretləri daha çox məşhurdur. Rembrandt çoxlu sayda portretlər çəkmişdi, lakin o, ictimai dəstəyi itirdiyindən, bankrot kimi vəfat etmişdi.

XIX əsrin birinci yarısında isə rəssamlıqda romantizm, rəsmlərin klassik məktəbi ilə paralel gedirdi, 1850-ci ildən sonra aparıcı rol oynadı. Lakin romantizm də ölmədi. Fransızlar realist rəssamlıqda liderə çevrildilər. Qustav Kurbe  və  Jan Fransua Mille  bu üslubun görkəmli nümayəndələri idilər.

**İmpressionizm**. Renessansdan sonra rəssamlar mümkün qədər reallığı, diqqətli, qayğıkeş yaxmaları tətbiq etmək vasitəsindən istifadə etməklə, obyektin təsviri yolu ilə özlərini təqdim etməyə çalışırdılar. Buna görə öz subyektlərini realistik qaydada ifadə etmək üçün perspektivdən istifadə edirdilər. XIX əsrin sonlarından etibarən rəssamlar təəssüratın yeni formalarını axtarırdılar. Modern rəssamlığın nümunələrini İmpressionizmdə tapmaq olardı. Bu hərəkət 1870-ci illərdən Fransada başlamışdı. Həmin vaxt bir qrup rəssam studiyanı və muzeyləri tərk dib, kənd yerlərinə getdilər ki, birbaşa təbiəti plener təsviri qaydasında çəksinlər.

Yeni üslubun adı isə Klod Monenin "Günəş çıxması. İmpression (təəssürat)" tablosundan götürülmüşdür.

Onların subyektlərinə gündəlik həyatdakı insanlar, Parisin küçə səhnələri və təbiət daxil idi. Rəngkarlığın rahat modalarına və subyektin mahiyyətinə uymaq əvəzinə, impressionistlər köhnə rəsm əsərlərindəki orijinallığı və fərqliliyi

axtarırdılar. Kamil Pisarro (1830-1903-cü illər) impressionizmin banilərindən biri olmaqla onların axtarışlarını belə ifadə edirdi:

"Qiymətli rəsm çəkmə bütöv təəssüratı, quru və çətin edir, bütün sensasiyanı məhv edir. Düzgün dəyəri və rəngi fırça ilə çəkmək rəsmi əmələ gətirəcəkdir. Erkən vaxtda günəşi, küləyi, suyu, ağac budaqlarını təsvir etmək, yerin üstündə olmaq, hər şeyi bərabər əsasda tutmaq və onu əmələ gətirənə qədər dayanmadan işləmək. Ancaq müşahidə və hiss etdiyini çəkmək, bunun üçün isə ilk təəssüratı itirməmək daha yaxşıdır".

Pisarroya bənzər impressionistlər öz çəkdiklərinin, təsvir etdiklərinin içinə qoymaq üçün təbiətdə işığın, obyekt üzərində dəyişilən effekti barədə öz təəssüratlarını axtarırdılar. Rəssamın ilkin təəssüratı öz əks olunmasını tapdıqda, o, məqsədinə çatdığına əmin olurdu. Pisarronun ideyaları Klod Monenin (1840-1926-cı illər) əsərlərində aydın görünür. O, xüsusi olaraq suyu və işığı tərənnüm etməyi sevirdi. İşığın, suyun, atmosferin qarşılıqlı hərəkətini özünə tabe etdirməyə yaxınlaşırdı.

Lakin impressionistlər təkcə təbiətdən mənzərə – peyzaj çəkmirdilər. Küçələr və kabarelər, qaynar və adamlarla dolu bulvarlar onların subyektlərinin mahiyyətini təşkil edirdi.

Digər mühüm impressionist qadın rəssam Berta Morizo (1841-1895-ci illər) idi.

1880-ci ildə Fransada postimpressionizm kimi tanınan yeni hərəkat meydana gəldi və tezliklə Avropanın digər ölkələrinə yayıldı. Onlar impressionistlərdə olan işığın və rəngin vurğulamasını saxlayırdılar. Lakin onları daha da inqilabiləşdirmişdilər, diqqəti daha çox strukturaya və formaya verirdilər. Postimpressionistlər rəngin və xəttin hər ikisini, daxili hissiyyatı ifadə etmək üçün istifadə edilməsini axtarırdılar. Onlar reallığı fərdi qaydada təsvir edirdilər.

Pol Sezann (1839-1906-cı illər) ən mühüm postimpressionist rəssamlardan biri idi. Ona əvvəllər impressionistlər təsir göstərmişdilər, lakin tezliklə onların üslubundan uzaqlaşmışdı.

Digər məşhur postimpressionist, əzabkeş və faciəli şəxsiyyət olan Vinsent van Qoq (1853-1890-cı illər) idi. Van Qoqa görə rəssamlıq ruhi bir təcrübə idi. O, rənglərə çox maraq göstərirdi və inanırdı ki, onlar özlərinə məxsus dil formasında hərəkət edəcəklər. Onun "Ulduzlu gecə" tablosu Van Qoqun subyektiv baxışını nümayiş etdirir. "Günəbaxanlar" seriyasında isə rəssam bu çiçəklərdə günəş

enerjisinin konsentrasiyasını göstərməyə cəhd edir. “Avtoportretlər”ində isə biz , müəllifin ruhi əzablarının, psixikasının qaydada olmamasının şahidi oluruq.

Van Qoqun sağlığında yalnız bir rəsm əsəri ucuz qiymətə satılmışdı, ona qardaşı Teo maddi yardım göstərirdi. Vinsent və Teo öldükdən sonra, axırıncının arvadı Yohanna Boqner rəssamın əsərlərinin təbliği ilə yaxından məşğul olmaqla, onların xilas edilməsinə və sonralar böyük populyarlıq qazanmasına nail olmuşdu. Bu xeyirxah qadın van Qoqun layiqincə kəşf edilməsi sahəsində böyük fəaliyyət göstərmiş və onun zəhməti, güddüyü məqsədə çatmaqda ona yol göstərən ulduz rolunu oynamışdı.

İrvinq Stounun  “Həyat yanğısı” əsəri Vinsent van Qoq dünyasını kütləvi oxucuya çatdırmaqda böyük iş görmüşdü.

Sonralar modern rəngkarlığın müxtəlif cərəyanları meydana gəldi və onun çoxlu pərəstişkarları var  idi. Hətta polyak mənşəli fransız şairi Gitom Apolliner, o, I Dünya müharbəsi vaxtı döyüşçü kimi həlak olmuşdu. moden təsviri sənət naminə Luvr muzeyini yandırmağı təklif edurdu.

Rus rəssamlığı XIX əsrin əvvəllərindən inkişaf etməyə başlamışdır, buna qədər isə pravoslav (ortodoks) kilsəsinə xidmət edən rəssamlar – Andrey Rublyov və Feofan kimi, onlar yalnız ikona yaradıcılığı ilə məşğul olurdular. Əsrin başlanğıcında O.A.Kiprenski öz portret əsərlərini yaratdı, bura şair A.S.Puşkinin də portreti daxil idi. Sonra xeyli sayda görkəmli rəssamlar meydana gəldi. Onların arasında mənşəcə yunan olan Arxip Kuinci, yəhudi mənşəli İsaak Levitan və rus Karl Bryullov xüsusilə seçilirdi.

Kuinci rənglərdən çox ustalıqla istifadə edirdi, onu məşhur “Dneprdə yay gecəsi” tablosu bu qeyri-adi mənzərəyə bəstələnmiş noktyurna bənzəyir. Səmadakı Ayın işığı gecənin qaranlığında çayın sularında əks olunmaqla, onu gümüşü rəngə boyayır. Damcılar işığı klavişlərdə səslənən musiqi şəklində dəyişdirir, vizual qaydada həzin melodiya yaradır. Əsərdə Ay və onun sudakı əksi insanı tam fərqli qaydada düşünməyə məcbur edən mənzərə yaradır. İnsan da, öz taleyinə dirilik verən işıq düşdükdə başqalaşır, dolğun həyat eşqi ilə yaşamağa başlayır. Kuincinin tablosu tamaşaçıda daha intim hisslər yaratdığına görə Klod Monenin impressionizmə ad verən tablosundan da daha dərin mənası ilə fərqlənir. Çünki fransızın əsərindən fərqli olaraq Dneprin yay gecəsinin sirrini açan tablo insanda melanxolik hisslər yaradır. Onun rus təbiətinin simvolu olan “Ağcaqayın” tablosu isə ağ və qara rənglərin kontrastını ağacın timsalında əks etdirməklə, rənglərin

insan həyatında oynadığı böyük rolu yada salır, axı həm təbiətdə, həm də rəssam yaradıcılığında rənglər bizim üçün emosiya mənbəyinə çevrilir.

İsaak Levitan Rusiya təbiətinin istənilən hissəsinin, meşəsinin də, kiçik çay sahilinin də vurğunu idi. O, təbiət mənzərələrini təsvir edərkən, fırçası ilə qəmgin ruhda, elegiya xarakterli əsərlər yaradırdı. Onun tablolarındakı peyzaj, təbiət gözəlliyinin daşıyıcısı olmaqla yanaşı, adamın hisslərini tarıma çəkən yeknəsəqlik duyğuları yaradırdı. Levitanın mənzərə tabloları Karl Bryullovun işıqlı, günəşin parıltısını əks etdirən İtaliya mövzusundakı əsərlərindən fərqli olaraq, daha çox holland rəssamı Yakov Ryusdalın hər yaxmasından qəmgin hisslər yaradan təbiət təsvirlərinə daha çox bənzəyirdi.

Karl Bryullov isə tablolarında lirik hadisələri əks etdirməklə yanaşı, özünün məşhur “Pompeinin son günü” tablosu ilə daha böyük şöhrət qazanmışdı. Bu böyük ölçüdə olan əsərdə b.e. 79-cu ilindəVezuvi dağında vulkan püskürməsi nəticəsində kül altında qalan abad bir şəhərin xarabazara çevrilməsini, stixiya qarşısında zəifliyini hiss edən insanların həyəcanını, təşviş hisslərini olduqca real cizgilərlə təsvir edir. İki min ilə yaxın bir vaxt keçdikdən sonra Bryullov bu dəhşəti öz fırçası ilə yenidən canlandırmağı bacarmışdı. Tablo məhv olan şəhərə və onun sakinlərinə ən acı hüznü ifadə edən rekviyem xarakteri daşıyır, taleyin insanlara bəxş etdiyi bədbəxtliklərə, rəssam öz istedadı hesabına qəmli ağı deyir.

Bu tablonu Bryullov 1830-1833-cü illərdə İtaliyada yaratmışdı. Əsərdə həyəcan, dərd və qorxu içərisində olan müxtəlif insanlar təsvir olunur. Təbiətin kor qüvvələri insan məxluqlarını məhv edir, şəhəri, onun sakinlərinin qardaşlıq qəbiristanına çevirir. Rəssamın bu işi rənkarlığın yüksək janrı hesab olunurdu.

Ölümün dəhşətli sifəti qarşısında adamlar öz ləyaqətlərini göstərirlər., bir birnə kömək etməyə çalışırlar. Həm də onların qışqırıqları, hıçqırtıları və yalvarışları eşidilir. Faciə onların nəcib hisslərini açıb tökür, insan könlünün mahiyyətini göstərir. Təsvir olunanların çoxu əsl alicənablıq təcəssümüdür. Qızlarını qucaqlayan ana yalnız Allahdan kömək umduğundan, bütün gücünü dua etməyə sərf edir.

Bryullovun “Pompeinin son günü” əsəri Avropada çox populyar idi. İ.S. Turgenyev onu “Rusiyanın və İtaliyanın şərəfi” adlandırmışdı. Valter Skott isə onu adi rəsm əsəri deyil, epic əsər kimi qiymətləndirmişdi.

Əsər olduqca böyük emosional gücə malikdir və insanlara xəbərdarlıq edir ki, təbiətin sınaqları daim onu izləyir və bu toqquşmada insan özünün çox zəif olduğuna bir daha əminlik tapır. Onun əsəri tarixən dəhşətli fəlakətin baş verdiyi

ölkədə geniş rezonans doğurmuş və görünməmiş populyarlıq qazanmışdı. Renessans rəssamları belə, onlara məlum olan həqiqi faktı əks etdirməyə girişməmişdilər. Rus rəssamı isə bu böyük məsuliyyəti öz üzərinə götürərkən, faciənin müdhiş ölçüsünə uyğun gələn bir sənət əsəri, əsl şedevr yaratmışdı. Bunun hesabına Karl Bryullov ilk rus rəssamı idi ki, beynəlxalq nüfuz qazanmış, beş xarici akademiyanın fəxri üzvü seçilmişdi.

Karl Bryullov həm də əsl humanist, filantrop bir şəxsiyyət idi. Ukraynalı şair və rəssam, millətçiliyin ideoloqlarından biri olan Taras Şevçenkonun təhkimçilikdən azad olunmasında yaxından iştirak etmişdi.

Repin, Serov, Savrasov, Polenov kimi rəssamlar da əsasən Peterburqdakı Rus muzeyində və Moskvadakı Tretyakov qalereyasında nümayiş etdirilən rəsmləri ilə milli ruhda olan yaradıcı insanlar kimi şöhrət tapmışdır. Kandinski və Şaqal kimi abstraksionist rəssamlar da bu üslubun görkəmli nümayəndələri hesab olunurlar.

## Gözəlik nümunəsi olan iki şəhər barədə

İnsanın gözəllik yaradıcılığı təkcə rəngkarlıqla, heykəltəraşlıqla, arxitektura nümunələri ilə bitmir. İnsan istedadı və yüksək zövqü hesabına bütövlükdə gözəlliyi əks etdirən və bu göstəriciyə çevrilən şəhər kompleksi salmağa da müvəffəq olur. Qədim dünyada Babil, Afina, Karfagen, Persepolis, Roma kimi gözəl şəhərlər nümunəsi olmuşdur. Lakin onları düşmən və ya qəddar zaman xarabalıqlara çevirdiyindən, onların yalnız xatirələri və ayrı-ayrı cəhətlərinin izləri qalmışdır. Onlar da bu şəhərlərin hansı mükəmməllik səviyyəsinə yüksəldiyinə dəlalət edir.

Xoşbəxtlikdən bu ənənə bütünlüklə unudulmamışdır, onlar nisbətən cavan olan şəhərlərin timsalında özünü yaşatmağı bacarmışdır. Düzdür, XX əsrin başlanğıcından Çikaqoda tikilən ilk göydələn şəhərsalmada böyük vüsət almış, Nyu-Yorkun, Honkonqun, Sinqapurun, Kuala-Lumpurun, Şanxayın, San Paulonun timsalında binalar səmaya doğru yüksəlməklə, şəhər mənzərəsinə az qala fantastik bir görünüş vermişdir. Nyu Yorkdakı Empayr Steyt Bildinq də, XXI əsrin başlanğıcında Üsəma ben Ladenin xarabalıq ustaları tərəfindən dağıdılmış və birdəfəlik dəfn edilmiş məşhur “Ekizlər” də, Kuala Lumpurdakı Petronas da, Dubaydakı az qala bir kilometr hündürlüyündəki “Bürc əl-Xəlifə” də artıq

göydələnlərə adət etdiyimizdən, axı onlar həm də geniş miqyasda tirajlanmış və əksər böyük şəhərlərin vizit kartlarına çevrilmişdir, təəccüb mənbəyi olduqlarını dayandırmışlar və onlara sonralar tamaşa etdikdə, əvvəlki heyranlıqdan əsər-əlamət qalmır. Axı gözəllik də "Sabun operalarına" çevrildikdə, öz mahiyyətini itirir, adiləşir, gözü yormağa başlayır.

Lakin elə şəhərlər vardır ki, onlar öz gözəllikləri ilə bakirə qızlara bənzəyirlər, onlara yeni heç nə əlavə olunmasa da, öz bahar mövcudluğunu illər, bəlkə də əsrlər keçsə də qoruyub saxlayır, malik olduqlarına az qala əbədi həyat xüsusiyyəti verməyə çalışırlar. Onların yalnız ikisi haqqında söhbət açmaq istərdim, çünki başqalarını əlavə etsəm, hansısa uyğun gəlməyən cəhəti əsas götürüb, rəyim etiraz dalğası ilə üzləşə bilər.

Bu şəhərləri, mən öz aləmimdə gözəllik etalonu hesab etdiyim üçün, onlar zamanın dəyişilməsinə də məhəl qoymamaqla, özlərinin müqəddəsliyə çatan mükəmməlliklərini qoruyub saxlamaqla, hər görüşdə yeni bir cəhətini vurğulamaqla, insanları sevindirir, onlara münasibətdə pərəstiş hissləri aşılamağa başlayır.

Paris orta əsrlərin yadigarıdır, onun şöhrət çələngi rolunu oynayan Notr-Dam de Pari XII əsrdə tikilməyə başlanmışdı və inşasının iki əsr davam etməsi ilə öz mükəmməlliyi səviyyəsinə gəlib çatmışdı.

Paris gözəl qız kimi özünə XIX əsrin ikinci yarısının əvvəllərində, II İmperiya dövründə əl gəzdirməyə başlamış, mövcud qüsurlarını da yenidənqurma prosesi nəticəsində füsunkarlığa çevirməyi bacarmışdır. Ustalıqla aparılan makiyaj qızın cazibə mənbəyi olan sifət cizgilərinə əlavə canlanma və heyranlıq xüsusiyyətləri verir. Baron Osmanın titanik cəhdləri hesabına, o, nisbətən kiçik vəzifə sahibi, Sena prefekturasının prefekti olsa da, həm də öz iradəsi, istedadı, yüksək zövqü və cəsarəti hesabına Parisi dar küçələrdən və alçaq hündürlükdəki binalardan azad etmiş, yeni enli bulvarları isə görünüşü möhtəşəmliyi təmsil edən monumental binalarla bəzəmişdi. Minnətdar parislilər şəhərin mərkəzi hissəsindəki ən gözəl küçələrindən birini, onun şərəfinə Osman bulvarı adlandırmışlar. Yelisey çölü avenyusu, Eyfel qülləsi, Luvr muzeyi, Monmartda tikilən Sakra Kyor kilsəsi, memar Şarl Qarnyenin tikdiyi Qrand Opera binası, III Aleksandr körpüsü şəhərin gözəlliklərinə əlavə parlaqlıq vermişdir. Azacıq əyintilər də, Jorj Pompidu sarayı və Luvr qarşısında ucaldılan şüşə piramida da ümumi gözəlliyə xələl gətirə bilməmişdir, onun yaratdığı heyranlıq hissinin, nəcib dənizə məxsus olan suların laciverd rənginə olan vurğunluğa bənzərliyini poza bilməmişdir.

Eyfel qülləsi hazırda Parisin simvolu sayılır, dünyada Misir piramidaları kimi böyük şöhrəti ilə seçilir. Qüllə 1889-cu ildə Parisdə Ümumdünya sərgisi keçirilərkən bir möcüzə kimi şəhərin qonaqqlarının heyranlığına və təəccübünə səbəb olmuşdu. Bu, heç də təsadüfi deyildi, dünyada o vaxtlar ən uca tikinti olmaqla, eyni ölçülü metal hissələrdən ibarət idi. Lakin o həm də parislilərin bəzilərinin tənqidi münasibətilə üzləşmişdi. Yaradıcı ziyalılar onu bəyənmirdi, hətta ona "səmanın çoban qızı" adını vermişdilər. Yazıçı Gi de Mopassan daim onun restoranında nahar etməsini onunla izah edirdi ki, bura yeganə yerdir ki, ondan Eyfel qülləsini görmürəm. Müasir parislilər isə şəhərlərinə məxsus olan bu möcüzə ilə fəxr edirlər.

Paris özünün prima xüsusiyyətli və gözəllik məbədinə çevrilən Lido gecə klubu və kankan rəqqasələrinin məşhurlaşdırdığı Mulen Ruj kimi kabaresi ilə, ənənəvi olaraq yaradıcı ziyalıların yığışdığı Monmartr təpəsi ilə, saysız-hesabsız modalar evləri ilə də dünyada ad çıxarmışdır. Hələ XVII əsrdən, Günəş Kralın-XIV Luinin hökmranlığı dövründən Paris Avropanın moda mərkəzi olmuş, bu liderliyi indiyə qədər saxlayır. Sonralar onun şöhrətini təsviri incəsənətdə meydana gələn İmpressionizm cərəyanə davam etdirdi. Renessans rəssamlığı onun beşiyi olan Florensiyanı nə qədər şöhrətə yiyələndirmişdisə, İmpressionistlər də Parisə elə məşhurluq bəxş etmişdilər.  İmpressionist rəssamlar əsərlərində təbiət mənzərələri ilə yanaşı, Parisin gur insan dalğası ilə dolu küçələrini də öz tablolarında əks etdirməklə, özlərinin də bu gözəlliyə əsir olduqlarını göstərmişlər. Paris Avropaya, əslində, bütün dünyaya gözəlliyi hiss etmək, qiymətləndirmək, ona himn qoşmaq dərsi vermişdir. Təsadüfi deyildir ki, dünyanın ən gözəl şəhəri sayılan Paris başqa şəhərlər üçün nümunə rolunu oynamışdır. Təkcə argentinalıların deyil, bütün Cənubi Amerikanın ən gözəl şəhəri olan Buenos- Ayres Parisə bənzəməsi ilə iftixar hissləri keçirir.

Amerikan yazıçısı Ernest Heminquey, sonralar Havanaya olan kimi, gəncliyində vurulduğu Parisin "səndə daim bayram" əhval-ruhiyyəsi yaratmasını qeyd etmişdir. Həmin sözlər bu gözəl varlığı izah etməyin, ona vurğunluğun ən sadə, lakin ən səmimi ifadəsidir. Paris onu duyanların, sevənlərin, ona vurulanların hamısı üçün ən sevimli bayramdır, onun təlqin etdiyi təntənə, ruhu təmizləyir, saflaşdırır. Gözəlliyə çəkinmədən qiymət verməyi bacardığına görə insan öz gözündə də böyüməyə başlayır.

Hitler 1944-cü ilin avqustunda Parisi minalayıb, məhv etmək göstərişini vermişdi. Lakin Müttəfiq ordularının hücumu, fransız generalı Leklerin tanklarının şəhərə surətlə girməsi və fransız Müqavimət Hərəkatı üzvlərinin qorxmaz

igidlikləri, almanlara öz müdhiş planlarını yerinə yetirməyə imkan vermədi. Dörd il ərzində doğma Parisinin həsrətini çəkmiş general Şarl de Qoll öz müraciətində görünməmiş əzablara düçar olmuş Parisə himn xarakterli sözlərlə müraciət etmişdi. O, Zəfər Tağından Notr-Dam de Pariyə qədər Yelisey çölündəki izdiham kütləsi ilə birlikdə addımlamışdı.

Paris iki dəfə – 1871-ci ilin yanvarında və 1940-cı ilin iyununda almanlara, birləşdikdən əvvəl onlar prussiyalılar adı altında idilər, əsir düşmüşdü, alçalmışdı. Lakin hər iki dəfə müəyyən müddətdən sonra qamətini düzəltmiş, əvvəlki məğrurluğunu bərpa edə bilmişdi. Parisin məğlubiyyəti müvəqqəti xarakter daşısa da, onun zəfəri, qızılgül kimi ətrafa ətir saçması əbədi var olmaqdan, mövcudluqdan xəbər verir. Paris təkcə parislilərin, fransızların deyil, onu sevənlərin, deməli, bütün dünya əhalisinin, bəşəriyyətin şəhəridir, bu alilik yarışında heç bir şəhər ona rəqib ola bilməz.

Fransa rəhbərliyi, onun siyasəti dəyişikliklərə uğrasa da, əyintilərə imza atsa da, onlarla razılaşmayan xalqların münasibəti mənfilik səviyyəsinə gəlib çatsa da, bunun Parisə münasibətə heç bir dəxli yoxdur. Paris müvəqqəti olan dövlət rəhbərliyinə deyil, gözəlliyinin ona verdiyi müqəddəs hüquqa görə əbədiyyətə məxsusdur və hər bir bəşər övladının, bütövlükdə bəşəriyyətin ondan ilham almaq səlahiyyəti vardır və heç kəs onu məhdudlaşdıra bilməz. Mən şair olsaydım, ən uca sözlərimi Parisə həsr edərdim, ancaq buna cəsarət etmək istəmirəm, çünki böyük Viktor Hüqo Notr-Dam de Parinin timsalında Parisə elə bir himn həsr etmişdir ki, ən böyük şairlərin yaratdıqları da onunla müqayisədə solğun görünəcəkdir.

Paris, şəhəri haqqındakı xoş düşüncələrimi bölüşdüyüm bir nəfər, dövlətimizin Fransa  ilə münasibətinin gərgin fazaya düşməsinə, Fransa hökumətinin Ermənistanın revanşist məqsədlərinə dəstək verməsinə və iki xalq arasında ədavəti yenidən qızışdırmaq cəhdinə, həmçinin beynəlxalq aləmdə bizə qarşı əsassız ittihamlar irəli sürdüyünə görə, bunların qələmə alınmasını qeyri-mütənasib, hətta yol verilməz hesab etdi. O, Parisin möhtəşəm mənzərəsinə özünün dar ölçülü, prezident Emmanuel Makrona olan münasibət prizmasından baxırdı. Onyn mövqeti az qala  Mirzə Fətəli Axundovun komeditasındkı dərviş Məstəli şahı xatırladırdı.

Tarixi misallar həmişə Parisə haqq qazandırmışdır. Navarralı Henri 1589-cu ildə taxt-taca çıxıb, IV Henri kimi Fransa kralı olmuşdu. Lakin bir neçə il ərzində o, huqenotların lideri olduğuna görə ölkənin əsas dininin hakim kəsildiyi katolik paytaxtına buraxılmırdı. Bu isə onun kral olmasına böyük əngəl törədirdi. Ona görə

də dinini dəyişib, yenidən katolikliyə keçdi və 1594-cü ildə onun Parisə girməsiinə icazə verildi.

Öz dini mənsubluğunu dəyişdirməsini bir müdrik kəlmə ilə izah etdi: “Paris həqiqətən messaya dəyər”. Messa isə katoliklərin  ən mühüm və təntənəli ibadətidir, protestant kimi huqenotlar onu icra etmirdilər. Parisi fəth etmək üçün öz dini ideyasından da əl çəkmək, bir az əvvəl mübarizə apardığı dinin kölgəsinə sığınmaq da olardı.

IV Henri qaynı III Henri öldükdən sonra tam əsasla taxt-taca yiyələnmişdi. Lakin katoliklər onun huqenot lideri olduğunu nəzərə alıb, onu kral kimi tanımaq istəmir, paytaxt Parisə buraxmırdılar. 1593-cü ildə, dörd il ərzində katoliklərlə müharibə aparan IV Henri Parisi mühasirə etdikdə, məğlub oldu və buna görə də, yeganə çıxış yolu kimi, dinini dəyişib, yenidən katolikliyə keçməli oldu.

Huqenot kimi onun başı əvvəllər də bəlalar çəkmişdi. Kral II Henrinin və Katerina Mediçinin qızı Marqaritaya evləndikdə, 24 avqust 1572-ci ildə Parisdə katoliklər, toyda iştirak etməyə gəlmiş 3 minə qədər huqenotu öldürmüşdülər. Arvadının köməyi və katolikliyə keçəcəyini vəd etdiyinə görə Henri xilas ola bilmiş və uzun müddət sarayda yaşamışdı. Marqaritanı boşadıqdan sonra Mediçilər nəslindən olan Mariya Mediçiyə evlənmişdi və onların övladı 9 yaşlı XIII Lui atası 1610-cu ildə fanatik katolik tərəfindən öldürüldükdən sonra, kral olmuş, 6 il ərzində anası ona regentlik etmişdi.

IV Henri Fransa tarixinin görkəmli krallarından biri hesab olunur. O, Fransanı xeyli inkişaf etdirmiş, yollar çəkdirmiş, körpülər tikdirmiş, sənətkarlığın və sənayenin yüksəlişinə nail olmuş, dövlətin beynəlxalq nüfuzunu xeyli böyütmüşdü.

1598-ci ildəki Nant müqaviləsi ilə huqenotların və katoliklərin hüquqlarını bərabərləşdirməklə ölkədə sabitliyə nail olmuşdu. Şimali Amerikada xeyli ərazini Fransaya əlavə etmişdi. O, incəsənətin də inkişafına xüsusi diqqət verirdi. Parisin abadlaşdırılmasına gəldikdə, Sena çayının sahillərini xeyli məsafədə möhkəmləndirmişdi.

Ona görə də IV Henri, grand Henry – Böyük Henri və ya la bon roi Henry – Nəcib kral Henri adlanırdı. O, gələcək Günəş kral – XIV Luinin babası idi.

Kral Henri həm də müdrik adam idi. O, mənəviyyatında qüsurlu olan adamları suyun köpüyünə bənzədirdi.

Paris uğurlu və uğursuz kralları da, prezidentləri də görmüşdür. Bəzi yüngül çəkili (məcazi mənada) dövlət rəhbərləri Fransaya başı ucalıq deyil, aşağılanma gətirmişlər. I Dünya müharibəsinin qəhrəmanı olan marşal Peten, Hitler Parisi və ölkənin ərazisinin xeyli hissəsini tutduqda, Cənubda özünə Vişi rejimi deyilən hökumət qurdu və Hitlerlə əməkdaşlıq etdi. Dörd ildən sonra Fransa azad edildikdə, Peten, sonralar baş tutmamış ölüm hökmünə məhkum edildi.

Prezident Makron isə Fransa imperiyasının dağılması təhlükəsi ilə üzləşir, son seçkilərdə məğlub olaraq, ikinci yerlə kifayətlənməli olmuşdu. Ona görə də prezidentin partiyasından olan baş nazir istefa vermişdir.. Marginal qüvvələrə, həmçinin Fransadakı nüfuzlu ermənilərə bel bağlaması ona fayda vermədi. Makron siyasətdə ardıcıllığı inkar edir, özünü dövlət adamı deyil, rəqqas kimi aparır. Onun kimilərin kabusu Parisin saf adını ləkələyə bilməz. İndiki prezident Yelisey sarayını tutsa da, onun mifik Yelisey çölünün müqəddəsləri ilə heç bir ruhi əlaqəsi yoxdur. Paris üçün o, ötəri bir şəxsdir, az sonra ondan heç bir xatirə qalmayacaqdır, hamı yalnız onun prezidentliyinin başlanğıcında Notr-Dam de Parinin yanğına məruz qalmasını xatırlayacaqdır. İkinci böyük biabırçılığı isə 2024-cü ilin iyuluunda Olimpiya oyunlarının açılış mərasimində baş verdi. Təntənəli mərasim elə bil ki, beynəlxalq idman bayramına deyil, gey-parada həsr olunmuşdu. Yenə də Makron öz şəxsi mənəvi dəyərlərinə üstünlük vermişdi.

Digər misallar da, Parisin uğursuz dövlət rəhbərləri ilə eyniləşdirilməsi cəhdini rədd edir. Hindistanda Varanisdə (Benares) ölülərin yandırılıb, külünün və qalıqlarının Qanqa tökülməsi acı mənzərə təsiri bağışlayır, lakin şəhərdəki məbədlərin divarlarındakı erotik heykəl kompozisiyaları tamaşaçını heyran edir. Hind xalqı. özünü ağır sınaqlara salır, əhalinin bir hissəsi natəmiz həyat tərzi keçirir. Benqal yarımadası az qala çirkab dənizini xatırladır. Lakin bunların Robindranat Taqor dünyasının saflığına heç bir dəxli yoxdur.

Ona görə də Parisə, müvəqqəti şəxs olan Makrona görə başqa cür münasibət bəsləmək olmaz, ona şərəf gətirməyənlər toza çevriləcəklər. Paris isə məğrurluğu ilə öyünərək, daim yaşayacaqdır.

İkinci şəhər isə Venetsiyadır, dənizin qoynunda yuva salmış və dalğaların onu uçuracağı təhlükəsi qorxusu ilə yaşayan və anbaan onu hiss edən müqəddəs bir məkandır. Etiraz edənlər deyə bilər ki, heç bir din ona müqəddəs adlanmaq hüququ verməmişdir. Onun müstəsna gözəlliyi, canlı və açıq səma altında nəhəng muzeyə çevrilməsi, ona tam layiq olduğu bu haqqı vermişdir. Kanallarının bolluğu ilə seçilən Amsterdam "Şimalın Venetsiyası" adlanması ilə öyünür, Rusiyanın Sankt-

Peterburqu da özünün Venetsiyaya bənzəməsi düşüncəsini bir yüksək mükafat kimi qəbul edir.

Venetsiyanı şəhər kimi salanlar, onun ilk sakinləri İtaliyanın şimalında yaşayan xalq olmaqla, hücumlardan və basqınlardan xilas olmaq üçün Adriatik dənizinin laqunasında, dirəklər üzərində qərar tutan binaları tikməklə və onlarda yaşamaqla özlərini nəinki xilas edə bilmiş, hətta ən varlı, çiçəklənən bir cəmiyyət yaratmış və ona doj adlanan qanunverici və icra orqanı rəhbərlik etmişdi.

Venetsiya öz var-dövlətinə uyğun olan ambitsiyalara da sahib olmuşdu, rəqiblərindən çəkinib qorxmamış, hətta onlara öz iradəsini diqtə edə bilmişdi. 1204-cü ildə Venetsiyanın 94 yaşlı doju Dandolo səlibçiləri aldadaraq, onların köməyi ilə Konstantinopolu işğal edə bilmiş və orada Latın respublikası yaratmışdı. Bizans imperatoru ölkənin şərqndəki Trapezund şəhərində sığınacaq tapmış, 57 il ərzində bu şəhər imperiyanın paytaxtı rolunu oynamışdı. Qoca Dandolo işğal etdiyi şəhərdə at belində gəzərkən yıxılıb budunu sındırmış və sonra orada da ölmüşdü. Venetsiyalılar ürəklərinə yatan Konstantinopoldakı at heykəllərini söküb, öz şəhərlərinə göndərmiş və onlar San Marko kilsəsinin fasadını bəzəyir.

Venetsiya işğalları ilə deyil, geniş ticarət aparması ilə varlanmışdı. Həm də gözəlliyə sitayiş etməsi və onun yüzlərlə, minlərlə nümunəsini yaratması ilə başqa ən məşhur şəhərlərdən də fərqlənmişdi, seçilmişdi. Şəhər  San Marko meydanı ilə, oradakı Doj binası, böyük kilsə, kitabxana binası, meydanın bir tərəfini bəzəyən “Floran” kafesi ilə məşhurdur.

Venetsiya həm də tarixə görkəmli rəssamlar və bəstəkarlar bəxş etmişdir. Onda çalışan arxitektorlar isə yaşayış binaları adı altında əsl muzey kompleksi, memarlıq inciləri yaratmışlar. Qondolada gəzərkən bir binanın divarında bəstəkara hörmət ifadəsi kimi “Viva Vivaldi” sözləri yazılmış plakatı görəndə, minnətdar venetsiyalılara təbii olaraq ehtiram hissləri yaranır. Məşhur “Ah” körpüsü çox hündürlükdə yerləşməklə, Doj binasından kanalın o tərəfindəki məhbəsə dustaqların aparılmasına xidmət edir. Bu bağlı körpüdən keçəndə, məhbuslar həyatla vidalaşmağı gözlədiklərinə görə, “ah” çəkməklə, dərdlərini yüngülləşdirmək istəyirdilər.

Dənizin sahilindəki dəmir yol vağzalının yanından Qrand kanalla San Marko meydanına gedərkən və oradan qayıdarkən gözlər önündə insanların əsrlərlə yaratdığı nəhəng gözəllik tablosu canlanır, altından qayıqların üzüb keçdiyi Rialto körpüsünü görürsən. Kanallar şəhərə xüsusi gözəllik verməklə yanaşı, həm də

Neptunun quduz dalğaları vasitəsilə onu daim dağıtmaq təhlükəsi yaradır. Bu gözəllik simvolu stixiyanın ağır zərbəsi ilə bir gün məhv ola bilər, bu isə bəşəriyyətə özünün sevimli balasını, fəxr etdiyi övladını itirmək kimi qiymətləndirilməlidir. Ona görə də Venetsiyanın xilası, miqyasına görə nə şəhər sakinlərinin, onlar sayca çox az qalmışlar, burada 70 min əhali yaşayır, nə də İtaliya hökumətinin  borcu deyildir, bütün bəşəriyyət öz nadir övladının sağlamlığı, yaşaması qayğısına qalmalıdır. Dünya, Venetsiyanın elmi əsaslara söykənən xilas yolunu müəyyən etməlidir. Onun məhv olması yox, ona kiçik ziyan dəyməsi də bəşəriyyətin zəifliyinin ifadəsi olacaqdır.

Müharibələrə, hərbi texnikaya, kosmosun tədqiqinə sərf olunan milyardların bir hissəsi Venetsiya adlanan gözəllik təcəssümünün xilasına sərf olunsa, bəşəriyyət nəsillərin çəkdiyi zəhmətin və istedadın reallaşmasının nəticəsi olan bu şəhəri xilas etməklə, nəcib bir işi görmüş olardı. Venetsiya iki min il əvvəlki Pompeinin taleyini yaşamamalıdır, gələcək nəsillər üçün də ilham mənbəyi olaraq qalmalıdır.

Venetsiya hər bir adamı təəccübləndirən və heyran edən gözəlliklər, izahı çətin olan müəmmalar şəhəridir. Bura Parisin gözəl qızlarının seçilib toplandığı Lido gecə klubuna bənzəyir, onlardan heç birinin fiqurasında, bədən quruluşunda və sifətinin cizgilərində hansısa bir qüsur tapmaq mümkün deyildir, .Venetsiyada da gözəl olmayan saray, kilsə, meydan, ev yoxdur. Şəhərin kanallarında onlar güzgüdə olan kimi öz füsunkarlığını əks etdirməklə öyünürlər. Burada dəniz təkcə şəhərə mövcudluq məkanı verməmişdir, həm də onun qeyri-adiliyini gözə çarpdırmağa xidmət edir. Qrand kanalla San Marko meydanına üzəndə və ya oradan qayıdanda,  Rialto köepüsü, ətrafdakı binaların arxitekturası, fasadını bəzəyən naxışlar, sudan boylanan feyalar kimi öz məğrurluğu ilə adamı reallıqdan ayırır, əfsanələr dünyasına aparır.

Binaların hamısı laqunada tikilmək üçün dirəklərin üzərində dayanır. Əsrlər boyu şəhəri salanlar, ona xüsusi abadlıq və gözəllik cizgiləri verənlər, onu dənizin sularının qucağında tikdiklərindən, burada məcburi qaydada nəhəng

süni meşə salmışlar. Bu meşəsiz heç nə tikmək olmazdı. Həmin meşədə ağacların çətiri, budaqları, heç yarpaqları da yoxdur. Onların bəhrəsi, çəkisi tonlarla ölçülən ağır tikililərdir. Bu möhtəşəm binalar insan ağlının, istedadının və ağır zəhmətinin meşə üzərində meydana gətirdiyi “çiçəklərdir”. Bu “çiçəklərin” ətri olmur, təkcə hetrətamiz görünüşləri ilə adamı ekstaza gətirir. Onlar özünəməxsus gözəllikləri ilə qızıl gülü və ya orxideyanı da kölgədə qoymağı bacarırlar.

İnsan daim təbiət gözəlliyinə valeh olmuş, ondan ilham almışdır. Ona görə də Alp dağları, Qafqaz sisiləsi şairlərin vəsf obyektinə çevrilmişdir. İnasanla təbiət arasında gözəlliyi yaratmaq üstündə gedən yarışda, təkcə qadın gözəlliyi istisna olmaqla, daim təbiət udmuşdur, əslində qadın gəzəlliyinin ecazkar memarlığı da təbiətə məxsusdur. Venetsiya variantında isə , göründüyü kimi, insan fərasəti, gözəlliyi yaratmaqda təbiəti də ötüb keçə bilmişdir. Bu isə təbiətdə insana qarşı müəyyən paxıllıq yaratmışdır. Şəhər, insanın təbiətə qarşı cəsarətli hərəkətinin nəticəsi kimi dənizin çətin ram olunan qucağında, sehrli haləsində salınmışdır, təbiəti də möhkəm qıcıqlandıran bir gözəlliyə yiyələnmişdir. Ona görə də təbiət özünün ona məhəl qoymayan bir hissəsindən - insanlardan, onların yaratdığı bu qeyri-adi şəhərdən qisas almağa cəhd etməklə, onu vaxtaşırı sınağa çəkir. Yəqin ki, insanların bu cəsarəti Poseydonun xoşuna gəlmir, onu hiddətləndirir. Dəniz allahı çox çalışır ki, Venetsiya da Atlantidanın bədbəxt taleyinə şərik olsun.

Dənizin suyunun səviyyəsi qalxanda, şəhər bir neçə günlüyə daşqına məruz qalır, məşhur San Marko meydanı hovuza, süni gölə çevrilir.

Əsrlər boyu düşmən, kiçik istisna ilə, Venatsiyaya qalib gələ bilməmişdir Bu şəhər - dövlət təhlükələrlə dolu olan sınaqlardan çıxmağı bacarmışdır.

Lakin ana kimi ona öz qucağını açan dəniz, bəzən onu öz ağuşunda boğmağa çalışır. Suyun xeyli qalxması hesabına şəhərin bütünlüklə batması, ona xas olan məğrurluğundan məhrum olması təhlükəsi vardır. Əgər geniş miqyaslı mühafizə tədbirləri görülməsə, təbiətin şıltaqlığı özünün məhvedici işini görəcək, əsrlərlə insanın ağır zəhmətinin bəhrəsi bir andaca yoxa çıxacaqdır. Bəşəriyyətin öyünmə mənbəyi olan bu nadir şəhər suların altında dəfn oluna bilər. Belə şəhəri itirmək isə bəşəriyyətin stixiya qarşısında təslim olmasının acı sübutu kimi, gələcək nəsillərin də narazılığına və hiddətinə səbəb ola bilər.

Şəhərin acı tale yaşamaması üçün nəhəng ölçüdə maliyyə və texniki resurslar tələb olunur və belə xərc İtaliya hökumətini imkanları xaricindədir. Bu işə dünyanın varlı dövlətləri girişməli, ən yüksək xərci də ödəməkdən onlar yayınmamalıdır.

Uşaq ağır xəstə olanda valideyn varlı və kasıb olmasından asılı olmayaraq, ən ağır xərclə də razılaşır və həkimlərin köməyi ilə övladını ölümün əlindən xilas edir. Venetsiyanın valideyni rolunda bütün bəşəriyyət çıxış etməlidir. Vəziyyətin ağırlığı və onun öhdəsindən gəlmək varlı ölkələrdən belə alicənablıq, mərhəmət və fədakarlıq tələb edir. Təbiət, amansız stixiya insanları ölüm- dirim döyüşünə çağırır, qəti qələbəyə qədər bəşəriyyət bu döyüşdən yayınmamalıdır. Titsianın, Tintorettonin, Vivaldini ruhu da bunu müasir pərəstişkarlarından tələb edir, Böyük italyan şairi Françesko Petrarka Venetsiyanı sivilizasiyanın möcüzəsi adlndırmışdı. Sivilizasiya öz qiymətli sərvətindən, gözəllik etalonu sayılan və ikinci nüsxəsi olmayan, əfsanəvi bu şəhərdən hansısa bir səbəbə görə imtina edə bilməz. Varlı dövlətlər müasir dünyanın liderləri sayılır və onlar sivilizasiyanın hər bir nailiyyəti üçün məsuliyyət daşıdıqlarını unutmamalıdırlar və nə qədər gec deil, bu əvəzsiz varlığı xilas etməyıə girişməlidirlər.

Venetsiyanı əsrlər ərzində böyük zəhmət hesbına istedadlı insanlar nəsli yaratmışdır. Bu şəhər nəhəng gözəllik muzeyinə bənzəyir, belə böyük

ərazidə  hər kəsə heyranlıq bəxş edən ikinci bir monumental abidə yaranmamışdır. Belə abidənin dağılmasına, məhv olmasına bəşəriyyət laqeyd qala bilməz, belə sınaq qarşısında yaxanı kənara çəkmək bağışlanmaz qəbahət, biabırçılıq olardı. Ümid etmək lazım gəlir ki, XXI əsr insanlarının belə münasibətlə razılaşması heç cür ağlabatan deyildir.

**SON**

**28 iyul 2024-cü il**